# QUR’ANIN TİLAVƏT QAYDALARI

**MÜƏLLİF: ƏBÜLFƏZL ƏLLAMİ**
**TƏRCÜMƏ EDƏN: AZƏR TURAN**

بسم الله الرحمن الرحيم

***Qur'ani-Kərimin yüksək məqamına təqdim olunaraq, böyük alim, təqvalı şəxsiyyət mərhum atam Ayətullah Şeyx Əsədullah Əllami Miyanəci və şəhid qardaşım, məşhur qari Əbülhəsən Əllamiyə ithaf olunur.***

**Kitabın adı ............................. Qur'anın tilavət qaydaları**
**Müəllif......................................................Əbülfəzl Əllami**
**Tərcümə edən ................................................ Azər Turan**
**Nəşr edən.......................................................Darul-huda**
**Çap tarixi................................................................ 2005**
**Çap növbəsi...........................................................Birinci**
**Tiraj........................................................................ 3000**

**964-497-051-9**

**İslam Peyğəmbəri (s) buyurmuşdur:**
***“Evlərinizi Qur’an tilavəti ilə işıqlandırın”; “Qur’an tilavət olan hər bir evin xeyir və bərəkəti artar.”***

## ALLAHIN ADI İLƏ

### *ÖN SÖZ*

Qur’ani-kərimdə, şə’ni uca İslam Peyğəmbəri (s) və mə’sum imamların söhbətlərində Qur’an qiraətinə tə’kiddən əlavə, qiraət qaydalarına riayət də sifariş olunmuşdur.

Bu qaydalara riayət qariyə xeyli savab nəsib etməkdən əlavə, onu Qur’an qiraətinin son hədəfinə daha da yaxınlaşdırır. Bu hədəf Qur’anın mə’nalarını qavrayıb, onun göstərişlərinə əməl etməkdir.

Bu qaydalar girami Peyğəmbər (s) və imamların sözlərində geniş surətdə bəyan olunmuşdur. Qarşınızdakı kitabda qiraətin zahiri qaydalarının bəyanına daha çox yer verilmişdir ki, bu qaydalara riayət etmək bütün qarilər, xüsusi ilə bizim gənc nəsil üçün asan olsun. Bu qaydaların bəyanında xüsusi bir tərtibə riayət olunmasına sə’y göstərilmişdir.

### *YENİ TƏRTİBİN SƏBƏBİ*

Qur’an araşdırıcılarının və Qur’an məclislərinin bu kitaba diqqətini nəzərə alaraq qərara gəldim ki, dördüncü təkrar çapdan öncə kitabın tərtibini yeniləşdirəm və mətləbləri daha da kamilləşdirəm. Amma tövfiq mənə yar olmurdu. Bir gün İran İslam Respublikasının Qur’an şəbəkəsindən təklif olundu ki, bu kitabın mövzuları Qur’an radio yayımında tədris olunsun. Mən də qəbul etdim. Bu dərslər “Qur’an tilavət qaydaları ilə tanışlıq” adı altında iki dəfə lentə alındı və hazırkı vaxtadək dəfələrlə yayımlanmışdır. Uyğun məsələ kitabın mövzuları ətrafında yenidən geniş araşdırma və bə’zi mətləblərin əlavə edilməsi üçün bir fürsət oldu.

Bu əlavələrdən məqsəd əziz oxucuların daha artıq agahlığı, mətləblərə rəngarənglik vermək, kitabın mütaliəsinə daha çox rəğbət, qaydalardan istifadə üçün stimul yaranması olmuşdur.

*Həkim sözü [1] savab, xeyirdir eynən*
*Xoşbəxtdir o sözü qəlbən dinləyən.*

Bu məqsədlə Qur'ani-kərim ayələrindən, imamların, alimlərin, ariflərin, aqillərin sözlərindən kömək aldıq – bu ümidlə ki, dünya və axirətdə hər birimiz üçün dəyərli olar.

*Sə'di, böyüklərin iqbal bağından*
*Salxım verərlərmi? – əkmədin bir dən!*

Mehriban və bəndəsinə nəvazişli Allahın dərgahından diləyirəm ki, bu dəyərsiz təlaşı qəbul buyursun.

Əbülfəzl Əllami Miyanəci

[1] Məqsəd Allahın kəlamı, din öncüllərinin sözüdür.

# MÜQƏDDİMƏ

# QUR’AN TİLAVƏTİNİN FƏZİLƏTİ

## *QUR’ANIN FƏZİLƏT VƏ ÜSTÜNLÜYÜ*

Varlıq aləmində heç bir kitab fəzilət və üstünlükdə Qur’an dərəcəsinə çatmaz. Çünki Qur’an bütün ilahi peyğəmbər tə’limlərinin xülasəsi və çöhrəsidir. Bəlkə Qur’an bundan üstün, yaranış aləmindəki bütün mövcudlardan ucadır. İslam Peyğəmbəri (s) buyurmuşdur: “Qur’an Allahdan savay hər şeydən üstündür.”[1]

## *QUR’ANDA ALLAHIN TƏCƏLLASI*

Qur’anın əzəmətinin sübutu üçün onun Allah kəlamının cilvəgahı olmasını qeyd etmək kifayətdir. İmam Cə’fər Sadiq (ə) bu barədə buyurdu: “And olsun Allaha ki, Allah yaratdıqları üçün öz kəlamında (Qur’anda) təcəlla etmişdir, amma onlar görmürlər.”[2]

Əlbəttə, mə’sum rəhbərlər və Allah övliyaları Allahla yaxınlıq xatirinə elə bir məqama çatırlar ki, Allahın kəlamını onu deyəndən eşidirlər.

Böyük alim və arif Mövla Möhsin Feyz “Muhəccətül-bəyza” kitabında nəql edir: İmam Sadiq (ə) namaz və səcdə halında məhbub qarşısında hüzurun şiddətindən özündən getmiş, huşunu itirmişdi. Namazdan sonra bu hal barədə soruşdular. Həzrət (ə) buyurur: “Bu ayəni qəlbimdə ardıcıl təkrarladım; axır ki, onu deyənindən eşitdim; buna görə də Allahın qüdrətini dərk etdiyimdən bədənim duruş gətirmədi.”[3]

## *QUR’AN BÜTÜN ƏSRLƏR ÜÇÜN*

Bir halda ki, bizim səmavi kitabımız Qur’an belə bir ərşi və uca məqama malikdir və onun məzmunu bizim xoşbəxt həyat proqramımızdır, onda hər bir müsəlmana bu kitabın məzmunundan xəbərdar olmaq və onu tətbiq etmək zəruridir. Çünki Qur’an təkcə nazil olduğu dövrə, xüsusi bir zamana aid

---

[1] “Mustədrəkəl-vəsail”, Mirzə Hüseyn Nuri, c. 2, səh. 235

[2] “Mühəccətül-bəyza”, Mövla Möhsin Feyz Kaşani, c. 2, səh. 248

[3] “Taha”, surəsi. 11-14-cü ayələri nəzərdə tutulur.

deyildir. Əksinə, həmişə aktual və bütün əsrlərə aid olan bir kitabdır. Bu sözlər Cə'fəri məzhəbinin rəisinin dilindəndir: (O buyurur): "Qur'an hər bir əsrdə yeni və Qiyamət gününədək hər bir millət üçün təravətlidir."[1]

## *QUR'AN TƏ'LİMİNİN ƏHƏMİYYƏTİ*

Qur'an maarifi ilə tanışlıqda ilk addım qiraətin öyrənilməsidir. Qur'anın öyrənilməsinin əhəmiyyətinin təsdiqi üçün İmam Sadiqin (ə) bir bəyanı kifayət edir. Həzrət (ə) buyurur: "Layiqdir, mö'min insan ölənədək Qur'anı öyrənmiş olsun və ya öyrənən halda ölsün."[2]

## *BACARDIĞIN QƏDƏR QUR'AN OXU*

Allahın buyuruğu (zəruri edir ki): Qur'anı üzündən oxumağı öyrəndikdən sonra növbə Qur'anın qiraət və tilavətinə çatır. Yaxşı olar ki, hər bir müsəlman gündəlik vaxtının bir qədərini Allah kitabının qiraətinə həsr etsin. Çünki insan Qur'an oxumaqla İslam göstərişləri ilə tanış olub, ilahi lütflə bu göstərişlərə əməl edəcək. Nəticədə, Qur'anın nuraniyyəti ona sirayət edər və onun bəşəri kamala doğru çiçəklənmə və tərəqqisinə səbəb olar.

Ey girami qardaş, əziz bacı! Qur'anı çox oxumaq tövsiyyəsi Rəuf və Mehriban Allaha məxsusdur. O mənə və sizə belə buyurur: "Qur'andan müyəssər olan qədər oxuyun."[3]

Əgər qəlbimizdə dost istəyi baş qaldırsa, Onunla danışmaq istəsək, namaz qılırıq. Çünki namaz bəndənin Allahla söhbəti, gizli danışığıdır. Amma Allahın bizimlə danışmasını istəsək, mehribanların ən mehribanının bizə yol göstərməsini diləsək, Qur'ana üz tutub, Allah kəlamını oxumalıyıq.

*İstəsən səninlə danışa Allah,*
*Eşq bülbülü kimi dön Qur'ana bax.*

İslam rəhbərlərindən biri öz oğluna Qur'anın əhəmiyyəti barədə belə yazır:

---

[1] "Biharül-ənvar", Əllamə Mühəmməd Baqir Məclisi, c. 2, səh. 280
[2] "Əl-üsul minəl-Kafi", Mühəmməd ibn Yəqub Kuleyni, c. 2, səh. 444
[3] "Müzəmmil", 20

“Övladım, Qur’anla - bu böyük mə’rifət kitabı ilə tanış ol, hətta qiraətlə də olsa və ondan məhbuba doğru yol aç. Zənn etmə ki, mə’rifətsiz qiraətin tə’siri yoxdur – bu, şeytan vəsvəsəsidir. Axı bu kitab sən və başqaları üçün məhbub tərəfindən göndərilib. Məhbubun naməsi sevimlidir, hətta aşiq onun mə’nasını bilməsə də.”[1]

## *QUR’AN QARİSİNİN MÜKAFATI*

Qur’an tilavətinin mükafatından danışan bə’zi rəvayət və hədislər insanı təəccübə gətirir. Burada Məhəmməd ibn Bəşirin imam Səccad (ə) və imam Sadiqdən (ə) bu mövzuda nəql etdiyi rəvayətin bir hissəsini nümunə üçün təqdim edirik. Olsun ki, bu sözlər bizi Qur’anla daha yaxın ünsiyyətə rəğbətləndirə:

“Yalnız Qur’ana nəzər salmaqla onu səssiz oxuyana Allah hər bir hərfə görə bir savab verir, onun bir pis işini pozar və məqamını bir dərəcə ucaldar. Ondan bir hərf öyrənənə on savab yazar, onun on pis işini pozar və məqamını on dərəcə yüksəldər. (Bu yerdə Həzrət (ə) vurğuladı) Hər ayəyə görə demirəm, deyirəm ki, “ba”, “ya” kimi hər hərfə görə (belə bir savab var). Namazda və oturmuş halda kim Qur’andan bir hərf oxusa, Allah onun üçün əlli savab yazar, onun əlli pis işini əməl naməsindən silər və onu əlli dərəcə ucaldar. Namazda və durmuş halda hər kəs Qur’andan bir hərf oxusa, Allah ona yüz savab artırar, yüz pis işini paka çıxarar və onu yüz dərəcə yüksəldər.”[2]

## *QUR’AN QARİSİNİN MƏQAMI*

Hər kəs Qur’anı Qur’an və din başçılarının göstərişinə uyğun oxusa, qiyamətdə onun dərəcələrinin hesabının əsası Qur’andır. Bu barədə İmam Sadiqin (ə) böyük İslam Peyğəmbərindən (s) nəql etdiyi sözlərə nəzər salın:

“Sizin üçün (öyüd) olsun Qur’an tilavəti! Həqiqətən, behiştin dərəcələri Qur’an ayələrinin sayına görədir. Elə ki, qiyamət qopdu, Qur’an qarisinə deyilər: “Oxu və yüksəl.” O hər ayəni oxuduqca bir dərəcə yuxarı qalxar.”[3]

---

[1] Səhifeye-imam, Məcmueye-asare-imam Xomeyni (r) , c. 16, səh. 211
[2] “Üsule-kafi”, c. 2, babe-səvabe-qiraəte Quran, səh. 612
[3] “Vəsailüş-şiə  ila təhsilüş-şəriə”, Şeyx Hürr Amuli, c. 4, səh. 842

Əlbəttə, bilməliyik ki, bu mükafatlar, məqam və dərəcələr Qur’an ayələrinə əməl edən, onun daşıyıcısı olanlarındır. Yə’ni Qur’an qarisi Qur’an, ilahilik boyasına boyandıqda ən şərafətli insanlar zümrəsinə qatılır. İslam Peyğəmbəri (s) buyurur: “Mənim ümmətimin ən şərəfli fərdləri Qur’an daşıyıcılarıdır.”[1]

Qur’anın, qarilərin, Qur’an tilavətinin fəzilətinə aid müqəddimənin bəyanından sonra növbə Qur’anın tilavət qaydalarının araşdırılmasına çatır.

Bu kitabda böyük Allahın yardımı ilə əziz Qur’an araşdırıcılarına və girami Qur’an aşiqlərinə Qur’an tilavətinin iyirmi qaydasını təqdim edirik. İnşaalah.

---

[1] Həmin mənbə, səh. 826

## BİRİNCİ QAYDA

### *TƏHARƏT VƏ PAKİZƏLİK*

Qur'an tilavətinin birinci qaydası Qur'an qarisinin təharət və paklığıdır. Əgər bir şəxs Qur'an yazılarına əl vurmaq istəsə və ya qiraət zamanı əlinin bu yazılara toxunacağını ehtimal etsə, təharətli olması lazımdır. Buna dəlil olaraq "Vaqeə" surəsinin 79-cu ayəsi zikr edilmişdir. Allah-təala buyurur:

"Paklardan başqaları ona (Qur'ana) əl vurmasınlar."

*Paklardan qeyrisi dəyməsin ona,*
*Yaradandan elçi gəlmiş insana.*

Qur'anın möhtərəm təfsirçisi Əllamə Şubbər "Qur'ani-kərimin təfsirində" bu ayə barədə yazır: "Yalnız o kəslər Qur'ana toxuna bilər ki, "hədəs" (bid'ət; dəstəmaz və namazı batil edən şeylər) və küfrdən pak olsun."[1] "Hədəs" dəstəmazı batil edən şeylərdəndir.

### *QUR'ANA MƏSSİN (BƏDƏNİ TOXUNDURMAĞIN) HÖKMLƏRİ*

"Məss" dedikdə bədən üzvünün Qur'an yazısına toxunması, onunla təması nəzərdə tutulur. Təharət dedikdə qüsl və dəstəmaz başa düşülməlidir. Qüsl etməsi vacib olan şəxs Qur'ana əl vurmaq üçün əvvəlcə qüsl verməlidir. Başqa hallarda Qur'ana məss üçün dəstəmaz almaq vacibdir.

**Dəstəmaz nurdur**:

Bu ilahi hökmün − Qur'ana məss zamanı təharətin fəlsəfəsi aydındır. Qur'an Allah kəlamıdır və ona ehtiram hamı üçün zəruridir. Bu cəhətdən də Qur'ana məss zamanı təharətli olmaq bütün müsəlmanların vəzifəsidir.

Böyük müctehidlərin əməliyyə risalələrində sifariş olunmuşdur ki, Qur'an qiraəti zamanı əl və ya bədən Qur'an və

---

[1] "Təfsir Əl-Quranil-kərim" Əllamə Seyyid Əbdüllah Şubbər, səh.502

onun yazılarına toxunmasa belə, insanın dəstəmazlı olması daha yaxşıdır.[1] Dəstəmazlı olmaq qiraətin savabını artırır.

Allah-təala müxtəlif məqamlarda Qur'anı "nur" bildirmişdir. O cümlədən, bu mübarək ayədə:

"Sizə doğru aşkar bir nur nazil etdik."[2]

Digər bir tərəfdən, din öncüllərinin kəlamlarında dəstəmaz da "nur" adlandırılmışdır:

"Həqiqətən, dəstəmaz üstündən dəstəmaz nur üstündən nurdur."[3]

Allahın müqəddəs zatı özü mütləq nur və nur mənşəsidir. **"Allah göylərin və yerin nurudur."[4]** Onun kitabı da nurdur, dəstəmaz da nurdur. İndi əgər Qur'an qarisi Allah kitabının qiraəti zamanı dəstəmazlı olarsa, Allahın və Qur'anın nurundan ona hökmən nəsib olacaqdır.

## *DƏSTƏMAZIN FƏLSƏFƏSİ*

Nəql olunur ki, imam Əliyyibn Musər-Riza (ə) buyurdu: "Həqiqətən, dəstəmaz almaq göstəriş verilmişdir ki, bəndə qadir Allah qarşısında münacat üçün dayandığı vaxt pak olsun; Onun göstərişlərinə itaətkar olub, murdarlıq və çirkinlikdən pak olsun. Bundan əlavə, dəstəmaz süstlüyü aradan qaldırır və yuxunu qaçırır."[5]

## *AĞIZIN PAKLIĞI*

Peyğəmbərlərin əxlaqi xüsusiyyətlərindən biri də ağız və dişlərin pak saxlanmasıdır. Bu barədə İmam Sadiq (ə) buyurdu:

"Misvak vurmaq (diş fırçalamaq) peyğəmbərlərin əxlaqi xüsusiyyətlərindəndir."[6]

*Fırçala dişini, unutma bu iş*
*Peyğəmbərlər üçün əxlaqi vərdiş.*

---

[1] "Təhrirül-vəsilə", imam Rahil (r), səh. 27-28
[2] "Nisa", 174
[3] "Mən la yəhzürühul-fəqih", İbn Babəveyh Qummi, c. 1. səh. 36
[4] "Nur", 35.
[5] "İsrare-qəlbiye-namaz", Zeynəddin Cəbəl Amuli (şəhid Sani), tərcümeyi-Qulam Hüseyn Rövşən Nijad, səh. 46
[6] "Mizanul-hikmə", Məhəmməd Reyşəhri, c, 8, s. 85, 86

Əziz peyğəmbərimiz həzrət Məhəmməddə (s) bu xüsusiyyət bariz şəkildə müşahidə edilirdi. Hədis və tarix kitablarında bildirilir ki, ibadət, xüsusi ilə Qur'an tilavəti və gecə namazı vaxtı dişlərinə misvak çəkmək Allah rəsulunun (s) xüsusiyyətlərindən idi və o, müsəlmanlara dəfələrlə bu işi tövsiyyə etmişdi. Allah rəsulu (s) öz yaxınlarına bu barədə belə buyurdu:

"Qur'an yolunu pak saxlayın. Soruşdular ki, ey Allah rəsulu, (s) Qur'an yolu nədir? Peyğəmbər (s) buyurdu: Sizin ağızlarınız. Soruşdular ki, hansı vasitə ilə? Buyurdu: Misvakla."[1]

Peyğəmbərin (s) bu sözləri mənə və sizə ünvanlanmışdır. Əgər Qur'an oxumaq istəsək, nə qədər ki mümkündür, ilahi ayələri pak və ətirli ağızla tilavət edək. Xüsusi ilə, Qur'an məclislərində, məscidlərdə, müqəddəs məkanlarda Qur'an oxumalı olduqda yaxşı olar ki, dəstəmazlı olaq və dəstəmazdan qabaq dişlərimizi fırçalayaq. Dişləri və ağızı yumaq üçün fırça və diş pastasından istifadə etsək yaxşıdır. İmkan olmadıqda ağız və dişləri barmaq və bir miqdar duzla yumaq olar. Duz da olmasa, Peyğəmbər (s) göstərişinə əməl niyyəti ilə ağızı barmaq və su ilə yuyaq. Bu halda peyğəmbər sünnəsinə əməl savabını əldə etmiş oluruq.

*Qəlbində vardırsa Allaha iman,*
*Bulaşıq ağızla oxuma Qur'an.*
*Çünki həmin ağız vasitəsilə*
*Cana üfürülür ilahi kəlmə.*

## *ZAHİRİN PAKLIĞI VƏ BƏZƏYİ*

İslamın müsəlmanlara tövsiyyələrindən biri zahiri bəzənmə və paklıqdır. Bu səbəbdən yaxşı olar ki, Allah kitabının qiraəti zamanı müsəlman pak bədən və libasla Qur'an oxusun. Əgər paltarda qan kimi bulaşıqlıqlar varsa, onu yusun.

Zahiri paklıq və bəzənmə göstəricilərindən digər biri xoş ətir və könül oxşayan rayihələrdən istifadədir. Qur'an qarisinin tilavət zamanı və Allah qarşısına çıxarkən ətirlənməsi, simasını

---

[1] "Biharül-ənvar", c. 76, səh. 131

qaydaya salıb Qur’an tilavət etməsi bəyənilmişdir. Xüsusi ilə, dini yığıncaq və məclislərdə Qur’an tilavət edən qarilər bu qaydalara əməl etməklə başqaları üçün nümunə ola bilərlər.

*Pak olun gül xəyal bir aləm kimi,*
*Pak olun, gül üstə tər şəbnəm kimi.*
*Bax İslama, necə həqiqi, təmiz,*
*Pak olun, necə ki pakdır dinimiz.*

## *MÜHÜM YADDAŞ*

Zahirən bəzənmək təzə və çeşidli paltarlar geymək, modabazlıq deyil. Libasın paklığı, bəzəyi deyərkən onun təmizliyi nəzərdə tutulur. Bir rəvayətdə nəql olunur ki, bir gün Əmirəl-mö’minin Əli (ə) böyük İslam Peyğəmbərindən (s) mö’min insanın xüsusiyyətləri haqqında soruşur. Peyğəmbər (s) mö’minə xas iyirmi xüsusiyyət sadalayır. O cümlədən buyurur:

“Libaslarını daim pak saxlayarlar.”[1]

[1] “Biharül-ənvar”, c. 67, səh. 276

### *ÖZÜNÜSINAMA*

1. “Paklardan başqaları ona əl vurmasınlar” ayəsindən nə başa düşdüyünüzü bəyan edin.

2. Qur’ana əl vurarkən təharətli olmaqda məqsəd nədir?

3. İmam Rizanın (ə) nəzərincə dəstəmazın fəlsəfəsini izah edin.

4. İslam Peyğəmbəri (s) nə vaxtlar misvak vurardı?

5. Tilavət zamanı “libasın zahiri bəzəyi” barədə qənaətinizi bəyan edin.

## İKİNCİ QAYDA

### *QUR'AN TİLAVƏTİNDƏ İXLAS*

**İxlasın mə'nası:**

Allahın rəsulundan (s) "ixlas"ın mə'nası haqqında soruşdular. Həzrət (s) buyurdu: "(İxlasın mə'nası odur ki,) deyəsən: Mənim yaradanım Allahdır və sənə əmr olunan işdə sabit və möhkəm olasan."[1]

**Tilavətdə ixlas**:

Belə ixlas bu mə'nadadır ki, Qur'an qarisi qiraətin əvvəlindən axırınadək, hətta tilavətdən sonra da (öz işinə görə) yalnız Allahın razılığı intizarında olsun. Əslində bütün ibadətlər Allah dərgahında o zaman qəbul olur ki, miqdarca az olsa da, xalis niyyətlə yerinə yetirilmiş olsun.

**Dərdin bəyanı**:

İbadət yolunu kəsmək üçün nəfs şeytanının pusquda durduğu yerlərdən biri Qur'an tilavəti məqamıdır. Qur'an qarisi məclisdə, xalqın hüzurunda tilavət edərkən xüsusi ilə ehtiyatlı olmalıdır ki, şeytan onun qiraət dairəsinə daxil olmasın.

Bə'zən şeytan belə təlqin edir: "Gör, nə qədər gözəl tilavət edirsən və xalq səni alqışlayır." Ya da Qur'an qarisinə belə təlqin edir: "Sən başqa qarilərdən yaxşı tilavət edirsən. Buna görə xalq sənə məhəbbətlə baxır." Çox olsun ki, bə'zən qari bütün qiraəti boyu bu məsələləri düşünür. Elə ki, Qur'an qiraəti başa çatdı, özünə gəlib görür ki, yeganə diqqətdən yayınan və ya az diqqət yetirilən məsələ xalis niyyət, Allahın razılığı və ilahi ayələrin mə'nasını düşünmək olmuşdur.

**Nə etməli?**

Şeytanın bu qurğusu ilə əsas mübarizə yollarından biri tilavət gedişində qəlbin iştirakıdır. Bu mə'nada ki, hisslərin bir nöqtəyə cəmlənməsi, oxuduğumuz ayələrin mə'nasına diqqət yetirməklə qəlbimizi də ilahi kəlamın əzəmətinə istiqamətləndirək. Qəlbən əmin olaq ki, varlıq aləmində Qur'andan dəyərli və möhtərəm kəlam yoxdur. Bu ruhiyyəni

---

[1] "Rahe-nicat", Mövla Möhsin Feyz Kaşani, tərcümeye-Riza Rəcəbzadə, səh. 188

bütün qiraət boyu hifz edək. Əgər Qur'an qarisi Qur'anı bu ruhiyyədə oxumağa müvəffəq olsa, ixlas halı yaranar.

*Hər kimin zəhmətlə qan-təri axdı*
*Nə axtarırdısa, rastına çıxdı.*

## *İXLASIN İSRARI*

Çalışmalıyıq ki, bu ixlas halı Qur'an tilavətindən və hər bir digər ibadi əməldən sonra davam etsin. İmam Sadiq (ə) bu barədə buyurdu:

**"Əməldə ixlasın israrı əməlin özündən daha çətindir."**[1]

Bir mə'na əhli maraqlı bir bənzətmədə ixlası çay balığına oxşatmışdır. Bə'zən balığı suda tutursan, amma diqqətsizlik səbəbindən xəbərin olunca əlindən çıxır. İxlas balıq kimidir − bə'zən əməl vaxtı əldə edilir, amma qəflət səbəbindən ya işdə, ya işdən sonra itirilir.

İbadətdə ixlasın qədəri insanın sə'y və təlaşının qədəri ilə əlaqəlidir. Nə qədər çox çalışsaq, əməllərimizdə ixlasın rəngi bir o qədər çox olar və nəhayət, bütün işlərimiz ilahi rəngə boyanar:

**"Hansı rəng ilahi rəngdən üstündür?"**[2]

Deyirlər bir gün şagirdləri Seyyid Bəhrül-ülumu (r) xoşhal gördülər. Səbəbini soruşdular, belə cavab verdi: "İyirmi beş illik cihaddan sonra özümə baxıb gördüm ki, artıq əməllərim riyalı deyil, onu aradan qaldıra bilmişəm."[3]

*Ciddi təlaş et ki, dövrün pirləri*
*Təlaşla fəth etdi uca yerləri.*

## *TİLAVƏTDƏ İXLASIN MÜKAFATI*

Siz müsəlman qardaş və bacılar Qur'anı ixlasla oxuya bilsəniz, yolunuzu böyük mükafat gözləyir. Gör, Peyğəmbər (s) bu barədə nə buyurur:

---

[1] "Biharül-ənvar", c. 70, səh. 230
[2] "Bəqərə", 138
[3] "Lubbül-lübab" risaləsi. Əllamə Tehrani, səh. 51-52

“Bir şəxs Allahın razılığı və Allahın dinini anlamaq xatirinə Qur’an oxusa, onun mükafatı Allahın mələklərə, peyğəmbərlərə və rəsullara verdiyi bütün mükafatlar kimidir.”[1]

Çoxları ibadətlərdə və Qur’an qiraətində keyfiyyət yox, kəmiyyət və çoxluğa can atır. Hansı ki, ibadətdə keyfiyyət şərtdir. Keyfiyyət isə əməldə ixlas, ibadətin mətninə və qəbuluna diqqətdən ibarətdir.

Böyük arif Feyz Kaşani bu barədə yazır:

“Əməlin azlığı fikrinə çox bənd olmayın. Onun qəbulu cəhətdən nigaran olun. Allah rəsulu (s) Məaz ibn Cəbələ buyurdu: **“Əməlini xalis et ki, xalis əməlin azı da sənə fayda verər və bil ki, riya və özününümayiş üçün olan əməl, heç şübhəsiz, sənin zərərinədir və əzaba, işgəncəyə səbəb olacaq.”[2]**

Sonda deməliyik ki, Qur’anı ixlasla oxumaq istəsək və bu yolda çalışsaq, Allah bizə hökmən yardım edəcək. Əlbəttə, dua və Allahdan istək, Əhli-beytə (ə) təvəssül də şərtdir. Ondan istəyək: “Pərvərdigara! Bizi öz kitabını oxumağa də’vət etdin, qəbul etdik. Bizə kömək et ki, bütün tilavət müddətində yalnız sənin razılığını nəzərdə tutaq.”

*Dua yola saldım hər sahildən bir,*
*Olsun ki, hədəfə yetişə bir tir.*

İmam Sadiq (ə) Qur’anın hifzi (əzbərlənməsi) barədə şə’ni uca İslam Peyğəmbərindən (s) bir dua nəql edir. Bu duanın bir yerində Allahdan belə istənilir:

“(İlahi!) Məni onun (Qur’anın) tilavətinə Sənin razılığına bais olacaq şəkildə vadar et.”[3]

---

1 “Vəsailüş-şiə", c. 4, səh. 838
2 “Rahe-nicat”, səh. 188
3 “Sünənin-Nəbi”, Əllamə Təbatəbai, səh. 353

## *ÖZÜNÜ SINAMA*

1. Tilavətdə ixlasın mə’nası nədir?
2. İmam Sadiq (ə) “İxlasın israrı” barədə nə buyurmuşdur?
3. Qur’an tilavətində ixlasın mükafatı nədir?
4. Əməlin azlığından nigaran olaq, yoxsa onun qəbulundan? Sizin nəzəriniz nədir?
5. “Xudaya məni Qur’anın tilavətinə Sənin razılığına bais olacaq şəkildə vadar et” duası kimdəndir?

## ÜÇÜNCÜ QAYDA

### *TİLAVƏTDƏN QABAQ DUA*

**Duanın mə'nası:**

"Dua" sözü İslam terminalogiyasında belə mə'nalandırılmışdır: "İstəyə çatmaq üçün Allahı çağırmaq vasitəsi."[1]

Dua ilə ünsiyyət azad və pəhrizkar müsəlmanın xüsusiyyətlərindən biridir. Çünki ibadət və bəndəliyin izharının mahiyyəti dua etməkdir. Böyük İslam Peyğəmbəri (s) buyurdu:

**"Dua ibadətin mahiyyətidir, dua əhli fəlakətə düşməz."**[2]

*Hafiz, sənin işin duadır ancaq,*
*Eşitdi, yoxsa yox, eyləmə soraq.*

Dua dosta yol tapmağın açarıdır. Dua məhbubun diqqətini cəlb etmə vasitəsidir. Gör, Qur'an bu barədə nə deyir:

**"(Ey peyğəmbər) De ki, əgər sizin duanız olmasa, mənim Rəbbim sizə heç e'tina etməz."**[3]

### *DUA YERLƏRİNDƏN BİRİ*

Dua üçün münasib yerlərdən biri Qur'an tilavətinə başlamazdan qabaqkı məqamdır. Çünki bizim dua öncüllərimiz Allah kəlamının qiraətindən qabaq bu işi görərdilər. Həqiqətən, Qur'an tilavəti və onun nurani ayələr fəzasına giriş üçün hazırlığa ehtiyac var. Bunlardan biri də duadır. Xüsusi ilə, mə'sum imamın (ə) dilindən olan dua. O bilir ki, Qur'an oxuyan zaman Allahdan nə istəsin.

**Tövsiyyə:** Bizim sifarişimiz budur ki, Qur'an oxumaq istədiyiniz vaxt duadan qəflətdə qalmayın. Bu "sünnə"dir. Xüsusi ilə, bir-iki səhifədən çox oxumaq istədiyiniz vaxt. Hamımız çalışmalıyıq ki, tilavətdən qabaq dua oxumaq İslami bir sünnə kimi diri qalsın.

---

[1] "Tacül-ərus", Seyyid Məhəmməd Murtəza Hüseyni Zübeydi, c.10
[2] "Biharül-ənvar", c. 90, səh. 300
[3] "Furqan", 77

Qur’an məclislərində, adətən, tilavətdən sonrakı duanı oxuyurlar. Amma Qur’an tilavətindən əvvəlki dua az-az oxunur. Bu mühüm qaydanın dirçəldilməsi həmin məclisləri idarə edən ustad və müəllimlərin öhdəsinədir.

Burada Qur’ansevər qardaş və bacıların bəhrələnməsi üçün mə’sumların (ə) dualarından ikisi təqdim olunur:

**Birinci dua:**

İmam Cə’fər Sadiq (ə) Qur’an qiraətindən qabaq Qur’anı əlinə götürərkən bu duanı oxuyardı:

**“Pərvərdigara! Şəhadət verirəm ki, bu kitab Sənin tərəfindən peyğəmbərin Məhəmməd ibn Əbdüllaha (s) nazil olmuş həmin kitabdır və peyğəmbərin dilinə cari olmuş Sənin deyimli sözlərindir.**

**Pərvərdigara! Sən Qur’anı öz tərəfindən xalqın rəhnüması, özünlə bəndələrin arasında əlaqə vasitəsi qərar vermisən.**

**Pərvərdigara! Mən Sənin əhdini və kitabını yaydım. Buna görə, pərvərdigara, baxışımı o ibadətdə, tilavətimi düşüncəli və düşüncəmi onda ibrət mayası qərar ver.**

**Pərvərdigara! Məni o kəslərdən qərar ver ki, onun nəsihətlərindən öyüd alsın və Sənə itaətsizlikdən həzər qılsın. Tilavət zamanı qulağıma möhür vurma və gözümə pərdə örtmə.**

**Pərvərdigara! Tilavətimi düşüncəsiz tilavət qərar vermə. Mənə tövfiq (yardım) ver ki, onun ayələrini və hökmlərini düşünüm, Sənin ayininin qanunlarına əməl edim.**

**Pərvərdigara! Baxışımı Qur'anda qəflət mayası və tilavətimi boş danışıq qərar vermə ki, Sən özün mehriban və bağışlayansan."**[1]

**İkinci dua:**

Bu dua da imam Sadiqdəndir (ə). Yığcam, uca mə'na və məfhumlu bir dua. Əziz Qur'an araşdırıcıları duanın tam mətni üçün şərif "Üsule-kafi" kitabına müraciət edə bilərlər. Dua geniş, bizim məqsədimizsə xülasə yazmaq olduğundan, Qur'ani-kərim aşiqlərinin bəhrələnməsi üçün duadan bə'zi sətirlər təqdim olunur:

---

[1] Qurani-məcid, tərcümeye-Mühəmməd Mehdi Fuladvənd (qismən dəyişikliklə)

**“Pərvərdigara, ya Rəbb! Sitayiş Sənə məxsusdur. Sən qüdrətdə yeganəsən, padşahlıqda möhkəm. Pərvərdigara! Sitayiş Sənə məxsusdur, ey Qur’an ayələrini, böyük zikri nazil edən. Ey Rəbbimiz! Sitayiş Sənə rəvadır, onunçun ki, bizə hikmət və aydınladan böyük Qur’an öyrətdin.**

**Pərvərdigara! Bizi elə qərar ver ki, halalına itaət edib, haramından çəkinək, onun hədlərini gözləyib, göstərişlərini yerinə yetirək.**

**Pərvərdigara! Bizə ruzi et onun tilavət şirinliyini, bərpasındakı şadlığı, qiraəti zamanı qorxunu, gecə və gündüz ləhzələrində Qur’ana əməl üçün qüvvəni.**

**Pərvərdigara! Qur’anda gətirdiyin ayələrdən bizə mənfəət yetir və onda çəkdiyin məsəllərə bizi diqqətli et. Onun yozumları ilə pisliklərimizi aradan qaldır, onun vasitəsi ilə yaxşı işlərimizin mükafatını ikiqat et, dərəcələrimizi Qur’an vasitəsi ilə yüksəlt və onun vasitəsi ilə ölümdən sonra bizə müjdə ver.**

**Pərvərdigara! Qur’anı bizim üçün görüş günü (qiyamət) şəfaətçi qərar ver. Tərəqqi günü silah, mühakimə günü qalib dəlil, zülmətlər günü nur, nə yer, nə də göylərin olmayacağı gün, hərənin öz zəhmətinin əvəzini alacağı gün.**

**Pərvərdigara! Şəhidlərin məqamını, xoşbəxtlərin həyatını, peyğəmbərlərlə dostluq və yoldaşlığı bizə ruzi et. Sən hər duanı eşidənsən.”**[1]

[1] “Üsule-kafi”, c. 2, babe “əddua ində qəraətil-Quran”, səh. 417-418

## *ÖZÜNÜSINAMA*

1. İslam terminalogiyasında “dua” sözü necə mə’nalandırılmışdır?

2. “Dua ibadətin mahiyyətidir, dua əhli fəlakətə düşməz” cümləsi kimə məxsusdur?

3. Nə üçün Qur’an tilavətindən qabaq dua münasibdir?

4. Tilavətdən qabaq üçün İmam Sadiqdən (ə) neçə dua nəql olunmuşdur?

## DÖRDÜNCÜ QAYDA

## *İSTİAZƏ (ŞEYTANDAN ALLAHA SIĞINMA)*

**"İstiazə"nin mə'nası:**

Lüğətdə "istiazə" "pənah aparmaq, sığınmaq", başqa sözlə, "pisliklərin şərindən və şeytandan Allaha sığınmaqdır." Qur'an qarisi tilavətdən qabaq böyük Allahdan diləyir ki, onu şeytanın şərindən hifz etsin, bununla da, qiraəti tə'sirsiz, riyalı, özününümayiş üçün olmasın. Əksinə, qəlbin iştirakı (hüzure-qəlb), xalis niyyət, ayələrin mə'nasına diqqət ilə müşayiət olunsun. Bir sözlə, şeytanın maneələrindən amanda olmaq üçün qiraətə istiazə ilə başlanılır.

*Pənah aparıram o bir Allaha*
*həmin şeytandan ki, həsrət dərgaha.*

## *"İSTİAZƏ" KƏLMƏLƏRİ*

İstiazə üçün yaxşı olar ki, bu sözlər oxunsun:

**"Əuzu billahi minəş-şəytanir-rəcim"**

("Pənah aparıram Allaha, qovulmuş şeytandan.")

Qur'an oxuyan şəxsin Qur'anın istənilən bir yerində (əvvəl, orta, axır) "Bismillahir-rəhmanir-rəhim" deməzdən qabaq yuxarıdakı sözləri deməsi müstəhəbdir. Bə'zi təfsirçilər və qiraət alimləri istiazə üçün digər cümlələr də təqdim etmişlər. Aşağıdakı ifadələri deyilənlərə misal göstərə bilərik:

**–Əuzu billahis-səmiul-əlimi minəş-şeytanir-rəcim.**

**–Əuzu billahi minəş-şəytanir rəcim, innəllahə huvəs-səmiul-əlim.**

**–Nəstəizu billahi minəş-şəytanir-rəcim.**

Amma istiazə üçün ən yaxşı kəlam həmin birinci ifadədir. Bu məsələdə Qur'an araşdırıcılarının nəzərinə iki dəlil təqdim olunur:

**Birinci dəlil:** Allah-təala "Nəhl" surəsinin 97-ci ayəsində böyük Peyğəmbərə (s) belə xitab edir:

**"Qur'an oxuduğun vaxt qovulmuş şeytanın şərindən Allaha pənah apar."**

**"Əuzu billahi minəş-şəytanir-rəcim"** ifadəsi qısa və nəzərdə tutulmuş ayəyə məzmunca daha yaxın olduğundan digər ifadələrdən üstündür.

**İkinci dəlil:** Bu ifadə yeddi qari[1] tərəfindən seçilmişdir. İbn Cəzri[2] **“Əuzu billahi minəş-şəytanir-rəcim”** ifadəsini bütün “qurra”nın (ustad qarilərin) seçimi kimi tanıtdırır. Dəyərli şiə təfsirçisi mərhum əminül-islam Təbərsi də uyğun ifadəni bir çox qarinin seçimi kimi zikr edir.[3]

## *HƏQİQİ İSTİAZƏ*

İmam Sadiq (ə) bir rəvayətdə buyurur:

“Günah qapılarını istiazə ilə bağlayın, itaət qapılarını təsmiyə[4] ilə açın”[5]

## *İMAM RAHİLİN (R) BUYURUĞU*

Bə’ziləri belə güman etmişlər ki, istiazə kəlmələrini deməklə Allaha şeytandan pənah aparmaq və günah qapılarını bağlamaq müyəssərdir. Yə’ni əgər biz Qur’an tilavəti zamanı “Əuzu billahi minəş-şəytanir-rəcim” dediksə, artıq bizim tilavət dairəmizə şeytan daxil olmur. Ona görə ki, Allahın pənahına sığınmışıq? Yoxsa istiazə kəlmələrini deməklə yanaşı, bütün vücudumuzla Allaha sığınıb, Ondan kömək istəyək? Bu barədə böyük alim və arif həzrət imam Rahilin (r) kəlamından faydalanırıq:

“Qiraətin mühüm qaydalarından biri, mə’rifət yolunun tikanı, Allaha doğru hərəkətin maneəsi olan qovulmuş şeytandan istiazədir. Bu istiazə, boş danışıqla, ruhsuz surətdə, axirətsiz dünya ilə yerinə yetirilməsin. Göz qabağındadır ki, bu sözləri qırx, əlli il dediyi halda yolkəsən şeytanın şərindən qurtula bilməyənlər var. Onlar əxlaq və əməldə, hətta batini əqidələrində şeytana itaət etmiş, onun təqlidçisi olmuşlar.

---

[1] “Səhabə və tabein” dövründən sonra bir qrup Quran qarisi başqalarına nisbətən şöhrətli tanınır və daha çox qəbul edilirdilər. Bu qarilərdən yeddisi “Yeddi qari” titulu qazanmışdı: Nafe, Əbdüllah ibn Kəsir, Asim ibn Əbinnücud, Həmzə, Əbül-Həsən Kisayi, Əbu-Əmru ibn Əla, İbn Amir.

[2] Əbül-xeyr Məhəmməd ibn Məhəmməd ibn Əli ibn Yusif; ibn Cəzri ləqəbi ilə məşhurdur (751-833 h.q.). Muqri, Şafei fəqihi və mühəddisi; qiraət elmində yeri var, iki məşhur kitabı qiraət elmində ensiklopediya sayıla bilər, Şirazda vəfat etmişdir.

[3] “Məcməül-bəyan”, Təbərsi, c. 1, səh. 49

[4] “Bismillahir-rəhmanir-rəhim” ifadəsi

[5] “Səfinətül-bihar”, Şeyx Əbbas Qummi, c. 2, səh.417

Əlbət ki, bu çirkinin şərindən düzgün şəkildə pənah aparmış olsaydıq, mütləq, feyzbəxş, geniş rəhmət, tam qüdrət, əhatəli elm, böyük kərəm sahibi olan Allah-təala, o müqəddəs zat bizə sığınacaq verərdi və imanımız, əxlaqımız, əməllərimiz islah olardı."[1]

## *HƏQİQİ İSTİAZƏNİN YOLU*

Həqiqi istiazə odur ki, günah və Allaha itaətsizlik qapılarını insanın üzünə bağlaya. Belə bir istiazə beş zahiri deyilişlə hasil olmur. Bəs nə etməli?

Bu barədə (bu işdə) Qur'ani-kərimin özündə kömək arayaq. "Nəhl" surəsinin 98-ci ayəsində istiazə göstərişi verildikdən sonra 99-cu ayədə belə buyurulur:

"Həqiqətən, onun (şeytanın) iman gətirib, Allahına təvəkkül edənlər üzərində heç bir hökmü yoxdur.

Buna görə də şeytanın bu iki xüsusiyyətə malik heç bir kəs üzərində hakimliyi yoxdur:

1. Allaha və qiyamət gününə, eləcə də onların şərtlərinə iman;

2. Bütün hallarda Allaha təvəkkül və arxayınlıq, öz işlərini mehriban Allaha tapşırma.

Əgər Allahı sığınacaq seçməsək, elə bir düşmən qarşısında dayanmışıq ki, o bizi görür, biz isə onu görmürük. Ona görə də o hər tərəfdən bizə hücum etdiyi halda, biz onu görə bilmirik ki, özümüzü müdafiə edək. Amma qadir-mütəal Allaha sığınsaq, O həm bizi, həm də düşmənimiz şeytanı görür. Allah-təala bizi hər cəhətdən əhatə etdiyi üçün şeytanın hiyləsindən hifz edir.

*Qur'an oxuyası olsan, ilk qədəm*
*İblisdən Allaha pənah apar sən.*
*Amma, əlbəttə ki, yalançı şeytan*
*Hakim ola bilmir qəlbə o zaman*
*Həmin qəlb Allaha çevirə üzün,*
*Təvəkkül eyləyib, tapşıra özün.*

[1] "Adabe-səlat", İmam Xomeyni (r), səh. 221

## *ÖZÜNÜ SINAMA*

1. “İstiazə”nin tə’rifini deyin.
2. İtiazə üçün hansı ifadə üstündür?
3. Lütfən, istiazə ayəsini oxuyun.
4. “Həqiqi istiazə” haqqında imam Rahilin (r) kəlamının məzmununu söyləyin.
5. Günah və Allaha itaətsizlik qapıları nə yolla bağlanar?

## BEŞİNCİ QAYDA

## *"BƏSMƏLƏ"*

"Bəsmələ" kəlməsi "Bismillahir-rəhmanir-rəhim"in yığcam formasıdır. "Bəsmə" "Bismillahir-rəhmanir-rəhim"in "bismi" kəlməsinə işarədir. "Ləhu" "Əllah" adına işarədir. Ərəb dilində "bəsmələ" "Bismillahir-rəhmanir-rəhim dedi" mə'nasında işlənir. Məsələn, bir şəxs "Bəsmələ Əhməd" desə, bu "Əhməd bismillahir-rəhmanir-rəhim dedi" mə'nasını verir. Buna əsasən, "Bəsmələ" " Bismillahir-rəhmanir-rəhim" deməkdir.

### *"BİSMİLLAH" PEYĞƏMBƏR VƏ MÜVƏHHİDLƏRİN ŞÜARIDIR*

"Bismillahir-rəhmanir-rəhim" ilahi kitabın ön sözüdür. "Bismillah" təkcə Qur'an yox, bütün səmavi kitabların başlanğıcıdır. Bütün peyğəmbərlərin iş sərlövhəsində "Bismillah" yer tutdu. Həzrət Nuhun (ə) gəmisi tufan dalğaları qoynunda yola düşərkən o həzrət öz yoldaşlarına dedi: "Süvar olun, bu gəminin hərəkət və dayanışı Allahın adıilədir. ("Bismillah"la)"[1]

"Bismillah" Allahın adı və müsəlmanlıq nişanəsidir. Ona görə də bizə hər bir işə başlayarkən "Bismillahir-rəhmanir-rəhim"i dilə gətirmək tapşırılmışdır. Peyğəmbərdən (s) nəql olunan bir hədisdə buyurulur:

"Allahın adı ilə başlanılmayan hər bir dəyərli iş naqis və natamamdır."[2]

*Adını çəkməyən özün yıxası,*
*Səni unudanlar yaddan çıxası.*

### *İMAM RAHİLDƏN (R) BİR XATİRƏ*

İmam Rahilin (r) yaxınlarından biri nəql edir: "Ümumi şəkildə demək olar ki, onun həyatı kamil İslam mədəniyyətinin təcəssümü idi. Məsələn, onlarca, yüzlərcə dəfə olub ki, xidmətində olmaq üçün qapını döydükdə və ya bir şeyin icazəsini alarkən həzrət imam "buyurun" əvəzinə "Bismillah"

---

[1] "Təfsire-Nur", Möhsin Qəraəti, c. 1, səh. 12-14
[2] "Dər sayeye-aftab", Mühəmməd Hüseyn Rəhimi, səh. 131

kəlməsini işlədib. “Buyurun” nəzakətli ifadə olsa da, imam (r) “Bismillah”dan istifadə edib, lətif əvəzləmə işlətmişdir. O, Allahı zikr etməklə daxilolma icazəsini, görüşə girişi Allahın adı ilə uyuşdururdu.

### *“BİSMİLLAH” DEMƏK NƏ NİŞANƏSİDİR?*

“Bismillah” onun nişanəsidir ki, “Ey Rəbbim, mən Səni unutmamışam”, “Xudaya, məqsədim nə xalqdır, nə zalımlar, nə istəklər, məqsədim Sənsən.” “Bismillah” tövhid, başqa adlar isə küfr rəmzidir. “Bismillah”, yə’ni yalnız Allahın adı və yalnız Ondan kömək istənilməsidir.[1]

### *QİRAƏTƏ BAŞLARKƏN “BƏSMƏLƏ”*

Varlıq aləmində ən üstün iş və ibadətlərdən biri Qur’an qiraətidir. Qur’an oxuyan hər bir müsəlman tilavətə Allahın adı ilə başlamalıdır. Necə ki, Allah böyük İslam Peyğəmbərinə (s) Qur’an tə’limi zamanı buyurdu:

**“(Ey peyğəmbər) oxu Rəbbinin adı ilə.”**[2]

“Bəraət” (“Tövbə”) surəsindən başqa bütün surələri “Bismillahir-rəhmanir-rəhim” kəlmələri ilə başlayan Qur’an yolu ilə gedərək, biz də Qur’an tilavətinə Onun adı ilə başlayaq.

“Bəsmələ” boş dil hərəkəti, formal deyilişlə tamamlanmamalıdır. Onu deyərkən, hətta bütün qiraət boyu Allahı nəzərdə saxlamaq lazımdır. Bu halda Qur’an oxunması həm qari, həm də dinləyicilərdə tə’sir buraxacaq. Cami “Bəsmələ” haqqında necə də gözəl demişdir:

*Bismillahir-rəhmanir-rəhim həmin*
*Süfrəyə də'vəti böyük həkimin.*

### *TİLAVƏT ZAMANI “BƏSMƏLƏ”NİN HÖKMÜ*

Qur’ani-kərimdə “Bismillahir-rəhmanir-rəhim” ifadəsi 114 dəfə işlədilmişdir. “Bəraət” surəsindən savay bütün surələr bu nurani ifadə ilə başlayır. Daha bir “Bismillahir-rəhmanir-rəhim” “Nəml” surəsinin 30-cu ayəsindədir.

---

[1] “Təfsire-nur”, c. 1, səh. 15-16
[2] “Ələq”, 1

**1. Surənin əvvəli:**

Surənin əvvəlindəki "Bəsmələ" surənin bir hissəsi olduğundan tilavət zamanı onu surənin başlanğıcında oxumaq vacibdir. "Bəsmələsiz" nazil olmuş "Bəraət" surəsini isə həmin ifadə ilə başlamaq olmaz.[1]

**2. Surələrin ortası:**

Surələrin ortasından qiraətə başladıqda həm "Bəsmələ", həm də "Bəsmələ"siz başlamaq olar. Amma "Bəraət" surəsinin ortasından "Bismillah"sız başlamaq, yalnız istiazə ilə qiraət etmək yaxşıdır ki, "Bəraət" surəsinin "Bəsmələ"siz başladığı bilinsin.

[1] "Məcməül-bəyan", c. 5, səh. 6

## ÖZÜNÜ SINAMA

1. “Bəsmələ” nəyə işarədir?
2. “Bismillah” demək nə nişanəsidir?
3. Nə üçün Qur’an qiraətində “Bəsmələ” demək vacibdir?
4. “Tövbə” surəsində (“Bəraət”) “Bəsmələ”nin hökmünü açıqlayın.

## ALTINCI QAYDA

### *EVDƏ VƏ MƏSCİDDƏ QUR'AN TİLAVƏTİ*

Evdə, küçədə, bağçada, məsciddə, hüseyniyyədə, yolda, yatdıqda, bir sözlə, hər yerdə və hər halda Qur'an oxumaq olar. Yalnız o yerlərdə yox ki, həmin yerlərdə Qur'an oxunması Allah kitabına hörmətsizliyə səbəb olsun.

### *BÜTÜN HALLARDA ALLAHIN ZİKRİ*

Aqillərin xüsusiyyətlərindən biri budur ki, bütün hallarda Allahı xatırlayırlar:

"(Aqil) o kəslərdir ki, Allahı (bütün hallarda) ayaq üstə də, oturaq da, uzanmış da olduqda xatırlayırlar."[1]

*Qəlbimin kökündə məbada, hərgiz,*
*Bir boşluq yarana Səndən xəbərsiz!*

Müxtəlif məkanlar arasında Qur'an tilavəti üçün iki məkan daha şərafətlidir: ev və məscid. Uyğun mətləbi bu barədə nəql olunmuş bir rəvayətdən anlamaq olar. Xüsusi ilə, evlərdə Qur'an tilavətinin fəziləti israrla vurğulanmışdır və onun heyranedici faydalarından danışılmışdır.

### *EVLƏRDƏ TİLAVƏTİN FƏZİLƏTİ*

İslam Peyğəmbəri (s) bu barədə buyurdu:

"Evlərinizi Qur'an tilavəti ilə işıqlandırın və onları qəbristanlığa döndərməyin; necə ki, yəhudilər və məsihilər belə etdilər (çünki yalnız mə'bədlərdə ibadət edib) və evlərini ibadətdən məhrum qoydular. Qur'anın çox tilavət olunduğu hər bir evin xeyir və bərəkəti artar və onun sakinləri vüs'ətdə qərar tutar. O ev səma əhlinə nur saçar, necə ki, səmadakı ulduzlar dünya əhlinə nur saçır."[2]

Peyğəmbərin (s) kəlamından belə anlaşılır: Qur'an oxunmayan evlər qəbristanlıq kimi qaranlıq və zülmətdir. Qur'an əhli olmayan, Qur'anla ünsiyyətdən məhrum qalan

---

[1] "Ali-İmran", 191

[2] "Üsule-kafi", c. 2, səh. 446

insanın qəlbi ölmüşdür və onun evi qəbristanlıqdan savay bir şey deyil.

Nə yaxşı olar ki, müsəlmanlar Allah rəsulunun (s) bu sözlərini yadda saxlayıb, öz evlərini Qur'an tilavəti ilə nurani edələr, özlərini və evlərini, yaşadıqları küçə və məhəlləni Qur'an nuru ilə qidalandıralar!

*Öz arifanə nəğmələrinlə,*
*Avaz ilə bu cümləni dinlə:*
*"Qur'an oxuyun, ayələrindən*
*Mənzilləriniz nurlana hər dəm"*

Bu nur və nuraniyyət yer və yer əhli dairəsini aşır, səma əhli də bu evin nurundan bəhrələnir. Səmadakı ulduzlar yer əhlinə nur saçdığı kimi, Qur'an tilavət olunan ev də səma əhlinə nur saçır və onlar da bu nurani mərkəzdən qidalanırlar.

Qur'an sədası ləpələnən ev abaddır. Onun xeyir və bərəkəti çoxdur, ruzisi artmaqdadır. Çoxsaylı otaqları olan evdə yaxşı olar ki, namaz, dua, Qur'an tilavəti üçün xüsusi bir otaq ayrılsın. Geniş mənzil şəraitinə malik olmayan ailələr Qur'an qiraəti və digər ibadətlər üçün xüsusi bir guşə ayıra bilərlər. Çünki belə məkanların şərafəti duaların qəbul olmasına səbəb olacaqdır.

## *FƏZİLƏT DƏLİLLƏRİ*

**1. Riyadan uzaqlıq:** Xəlvətdə edilən dua təzahür və özününümayişdən uzaqlıq və adətən, ixlaslı olur. Ona görə də riyası az olur. Bu səbəbdən də, riya və şeytan vəsvəsəsindən qorxan şəxs xəlvətdə, evdə Qur'an tilavət etsə, daha yaxşıdır.

**2. Övladlara tə'sir:** Evdə tilavət digər ailə üzvlərinə tə'sir edir. Qur'an qiraətini həyat proqramına daxil etmiş ata-ananın övladları da Qur'an öyrənməyə və oxumağa maraq göstərirlər. (Bu tə'sir ev mühitini aşıb, qonşuları da əhatə edir). Bu yol övladlara Qur'an tə'lim etmək yollarından biridir. Çünki uşaq və yeniyetmə öncə valideynlərin, müəllimlərin və dostların söhbətlərinin tə'siri altında olur. Uşaq daha çox ata-ananın tə'sirini qəbul edir.

Bir əhvalata nəzər salın və görün əsrimizin Qur’an fenomeni Məhəmməd Hüseyn Təbatəbainin ilk müəllimi kim olub?

“Seyyid Məhəmməd Hüseynin (Ələmül-huda) anası, adətən, onu idarə etdiyi Qur’an hifzi məclislərinə aparardı. İki yaş yarımlığında (2/ 5) atası hiss edir ki, uşaq öz-özünə Qur’an ayələrini zümzümə edir və onda Qur’an əzbərləmək üçün lazım olan iste’dad və hazırlıq var. O, anası ilə Qur’an hifzi məclislərində iştirak etdiyindən 30-cu cüzvün ayələrini zümzümə edirmiş. Şagirdlərin əzbərləyib, məclisdə söylədiyi ayələri eşitmiş və əzbərləmişdi. Beləcə, onunla Qur’anı əzbərləməyə başlayır və övladının iste’dadını düzgün qiymətləndirməklə çox ali bir nəticə əldə edir. Bunun əsərləri hazırda ölkə daxilində və xaricdə Qur’an hifzi məclislərinin rövnəq tapmasına bais olmuşdur. Buna görə də uşaq üçün Qur’an mühiti yaradın və onun müvəffəqiyyəti intizarında olun.”[1]

Övladın hüquqlarından biri ona Qur’an tə’lim olunmasıdır. Birlikdə Əmirəl-mö’mininin (ə) dilindən bir rəvayət oxuyaq:

**“Övladın ata öhdəsində, atanın övlad öhdəsində haqqı var. Atanın övlad öhəsində haqqı budur ki, övlad Allaha itaətsizlik istisna olmaqla, ataya bütün işlərdə itaət etsin. Övladın ata öhdəsində haqqı budur ki, ata ona yaxşı ad qoysun, tərbiyə versin və Qur’anı öyrətsin.”[2]**

**3. Cəmiyyətə tə’siri:** Əgər Qur’an sədası əksər evlərdə ucalsa, onun ruh oxşayan səsi sübh-axşam hər məhəllədə eşidilsə, iştiyaqlı insanların qəlbində iz qoyar, ruhlar silkənər və Qur’anın ictimai sferada hüzuru üçün şərait yaranar. Bu vaxt qafil, xəbərsiz insanlar özlərinə gəlib, Qur’anı öz həyat proqramları götürərlər. Nəticədə, Qur’an cəmiyyətdə gerçək təcəssümünü tapar.

## *MƏSCİDDƏ TİLAVƏTİN FƏZİLƏTİ*

**Məsciddə olmağın mükafatı:** Məscid Allahın yer üzündəki evidir. Yer kürəsində məsciddən şərəfli, möhtərəm heç bir ev yoxdur. Həqiqi müsəlmanın xüsusiyyətlərindən biri məscid əhli olmaq, məscidlə ünsiyyət saxlamaqdır. İlahi insanlardan

---

[1] “Hafize-nur”, Davud Qasimi, səh. 184, 185

[2] “Nəhcül-bəlağə”, hikmət 391

birinin tə'birincə, **"həqiqətən, mö'min məsciddə balıq suda olduğu kimidir."**[1]

İndi isə məscidə doğru qədəm götürməyin, məsciddə olmağın mükafatı haqqında İmam Sadiqin (ə) dilindən oxuyun:

**"Hər kəs məscidə doğru hərəkət etsə, ayağını heç yaşa-quruya qoymamış yerin yeddinci qatı onun üçün bağışlanma tələb edər."**[2]

Allah evi ibadət və Allahın zikri məhəllidir. Qur'an qiraəti isə ən üstün ilahi ibadətdir. Yaxşı olar ki, biz müsəlmanlardan hər biri öz vaxtının bir hissəsini məsciddə Qur'an tilavəti üçün ayırsın.

*Məscid bir Allaha məxsusdur tamam,*
*Yalnız Onu çağır çağıran zaman.*

Məsciddə Qur'an tilavətinin dəyərini dərk etmək üçün bir parça tarixi mə'lumata və Qur'an gətiricisinin bir kəlamına nəzər salaq:

Bir şəxs məsciddə şe'r oxuyurdu. İslam Peyğəmbəri (s) ona müraciətlə buyurdu:

"Məscidləri Qur'an oxumaq üçün tikiblər."[3]

Bu sözlər məscidlərdə Qur'an tilavətinin əhəmiyyətini göstərir. Peyğəmbər (s) və onun səhabələrinin yolu haqqında yazılmış kitablardan mə'lum olur ki, müsəlmanlar evdən əlavə, məsciddə də Qur'an tilavət edər və bu tilavətlər cəm şəkildə olarmış.

**Bizim təklifimiz:** Bu sünnə, ən'ənə müsəlmanlar arasında az-çox yaşayır və ramazan ayında bir qədər güclənir, məscidlərdəki Qur'an məclislərinə daha artıq şövq hakim olur. Yaxşı olar ki, bu hal həmişə davam etsin, məscidlərdə Qur'an qiraəti ocağı daim isti olsun. Bu məqsədlə xüsusi bir vaxt seçilsə, yaxşı olar. Məsələn, məğrib azanından əvvəl və ya şam namazından sonra Allahın zikr edilməsi Qur'an və hədislərdə sifariş olunmuşdur. Hər axşam 15-30 dəqiqə müddətində

---

[1] "Üsveye-arifan", Məhmud Təyyar Mərağı, Sadiq Həsənzadə, səh. 138
[2] "Rahe-nicat", səh. 85
[3] "Vəsailüş-şiə", c. 3, səh. 493

Qur'an qiraəti dərsi qoyulsun və hər kəs Allah kəlamından bir neçə ayə oxusun. Namaz qılanların vaxtı və halı da nəzərə alınmalıdır. Əlbəttə, təkcə oxumaqla kifayətlənmək olmaz. Qur'ana əməl edilməsi müqəddiməsi kimi, tilavət olunmuş ayələrin və ya onların bir qisminin mə'nası hökmən zikr olunmalıdır. Tə'kid olunur ki, müsəlmanların vaxtı və halı nəzərə alınsın və məclis həm müxtəsər, həm də faydalı olsun.

Əgər məscidlərdə bu məclislər kütləvi şəkil alsa, cazibəli və davamlı olsa, "tərtiloxuma" və ya "Qur'an tilavəti" adı ilə məclislər keçirilsə, cəmiyyətdə böyük mədəni dəyişikliklər olacaq və məscidlər Qur'an-iman mədəniyyətinin yayım mərkəzi kimi, yenidən öz həqiqi yerini alacaq, onda Allaha iman və Qur'an ətri qoxulanacaq, ruhlara yeni həyat veriləcək.

*Qur'an səsi məscidləri götürsün,*
*Səhər mehi iman ətri gətirsin.*

## *QUR'ANI SEVƏN MƏSCİDİ SEVİR*

Altıncı qaydadakı söhbətimizi girami İslam Peyğəmbərinin (s) bir kəlamı ilə bitiririk:

"Qur'anı sevən kəs məscidləri də sevir."[1]

Qur'an Allah kəlamı və məscid Allah evidir. Hər ikisi Allahın nurudur. Ona görə də Qur'anı sevən məscidi sevir, məscidi sevən Qur'anı sevir. Qur'anla məscid arasında qeybi bağlılıq var. Çalışaq ki, bu bağlılığı dünyada möhkəm və daimi edək.

---

[1] "Mustədrəkül-vəsail", c. 3, səh. 355

## ÖZÜNÜ SINAMA

1. Allahın rəsulu (s) Qur’an oxunmayan evi nəyə bənzədir?

2. Evdə Qur’an oxumağın fəzilətinin dəlillərini bəyan edin.

3. Peyğəmbər (s) məsciddə şe’r oxuyan şəxsə nə buyurdu?

4. Allah rəsulunün (s) səhabələri haralarda Qur’an oxumuşlar?

5. “Qur’anı sevən kəs məscidləri də sevir” kəlamı kimə məxsusdur?

# YEDDİNCİ QAYDA

## *MÜSHƏF[1] ÜZÜNDƏN TİLAVƏT*

Öncüllərimizin Qur'an tilavəti haqqındakı göstərişlərindən biri müshəf (Qur'an) üzündən tilavət etməkdir. Bu məsələ üzərində xeyli israr olunmuşdur. Olsun ki, bu israrda məqsəd qarinin Qur'an nuraniyyətindən bəhrələnməsidir. Qur'an yazısına baxmaqla hisslərin daha çox təmərküzləşməsi əldə edilir.

## *QUR'AN "NUR" KİTABIDIR*

Allah-təala Qur'anı özü nazil etdiyindən, onu bütün digər mövcudlardan daha yaxşı tanıyır və Qur'ana tə'rif verilməsinə bütün digər nəzər sahiblərindən daha layiqdir. Allah Qur'anı bəşəriyyətə "nur" adı ilə tanıtdırır:

"Ey xalq! Sizin hidayətiniz üçün Allah tərəfindən möhkəm bir dəlil gəldi və sizə doğru parlaq bir nur (Qur'an) göndərdik."[2]; İman gətirin Allaha, Onun rəsuluna və nazil etdiyimiz nura (Qur'ana)."[3]

Qur'anın nuranilik xüsusiyyəti budur ki, onun maarifi aydın və şübhələrdən uzaqdır. Həm də bəşər cəmiyyətini hər cür e'tiqad, əxlaq azğınlığından, yol seçimində çaşqınlıqdan azad edir və işıqlı "sirate-müstəqim", yə'ni doğru yol şəbistanına çatdırır. Çünki Qur'an "Allah göylərin və yerin nurudur"[4] mənbəsindən nazil olmuş bir nurdur.

*Gecənin qoynunda bir səs gurladı,*
*Nurdan xeymə qurdu, aytək parladı.*
*Haqdan nazil olub tutdu sənə üz*
*O parlaq kitab ki, ömrü nurladı.*

---

[1] "Müshəf" ərəb sözüdür. Bir cilddə toplanan yazılara müshəf deyilir. Quran əlimizdəki formada tərtib olunduqdan sonra müshəf adı və ya termini işlənməyə başladı. Başqa sözlə, Allah rəsulunun (s) rehlətindən sonra Quran bir yerə toplandı və "müshəf" adlandırıldı.

[2] "Nisa", 174

[3] "Təğabun", 8

[4] "Nur", 35

Təkcə son səmavi kitab Qur’an yox, bütün digər səmavi kitablar da nurdur. Qur’an, Tövrat və İncil də nur kimi tanıtdırılmışdır.[1] Çünki bu kitablar insanların dünya və axirət səadətləri üçün həyat proqramı olmuşdur. Bəşəriyyət səmavi kitabların qanunlarına nə qədər çox əməl etsə, onun dünya və axirət səadəti və xoşbəxtliyi bir o qədər artar.

Qur’anın nuraniyyəti təkcə onun mə’na və maarifinə aid deyil. Hətta Qur’anın zahiri, kəlmələri, yazısı da nurdur. Çünki Qur’anın kəlmə və ayələri Allahın təcəlla və zühur cilvəsidir.

**Maraqlı bir əhvalat:** Qur’anın nuraniyyəti, olsun ki, bə’ziləri üçün anlaşılmaz qala. Ona görə də bu mövzuda maraqlı bir əhvalatı birlikdə oxuyuruq:

Kərbəlayi Kazim Saruqi Fərahani hicri-qəməri 1300-1378-ci illərdə yaşamış bir şəxsin adıdır. Saruq İranın mərkəzi vilayətində yerləşən Fərahan məntəqəsinə tabe bir kənddir. Bu kəndin sakini Kərbəlayi Kazim tam savadsız olmuşdur. Bu şəxs Allahın aşkar lütfü ilə bir dəfəyə bütün Qur’anın hafizi olur. Onu Ayətullah-üzma Bürucirdi kimi böyük alimlərin hüzurunda sınayırlar və bu şəxs hamını heyrətə gətirir.

Ayətullah Dəstiğeyb (r) “Maraqlı əhvalatlar” kitabında Kərbəlayi Kazimin Qur’an hifzi ilə bağlı yeddi xüsusiyyətini sadalayır. O, Mirza Şirazinin nəvəsinin dilindən belə nəql edir:

“Təfsire-Safi” kitabı əlimdə idi. Onun üçün açıb dedim: “Bu Qur’andır, üzündən oxu”. Kitabı aldı, ona baxıb dedi: “Ağa, bu səhifə tamam Qur’an deyil.” Əlini səhifədəki şərif ayənin üzərinə qoyub dedi:

“Yalnız bu sətir Qur’andandır, bir də bu yarım sətir. Qalanları Qur’an (yazısı) deyil.” Soruşdum ki, haradan bilirsən, axı sənin ərəbcə, farsca savadın yoxdur? Dedi: “Ağa, Allah kəlamı nurdur. Bu sətir nurdur, qalanları qaranlıq.”[2]

Allahın böyük nişanəsi mərhum Kərbəlayi Kazimin məqbərəsi Qumda həzrət Fatimə-Mə’sumənin (ə) hərəmi ilə üzbəüz qəbristanda yerləşir və Qur’ani-kərim aşiqlərinin ziyarətgahıdır.

---

[1] “Maidə”, 44; “Maidə”, 46

[2] “Dastanhaye-şegeft”, Ayətullah Dəstiğeyb, səh. 63-72

## *MÜSHƏFƏ BAXMAQ İBADƏTDİR*

Əgər bir şəxs soruşsa ki, Qur'anı üzündən oxumaq daha yaxşıdır, yoxsa əzbərdən demək? Belə cavab veririk: İshaq ibn Əmmar adlı bir şəxs İmam Sadiqə (ə) bu sualla müraciət etmişdir. Bu sual-cavab belə olub:

İmama (ə) ərz etdim: "Sənə fəda olum, mən Qur'anı əzbər bilirəm. Onu hifzdən deməyim daha yaxşıdır, yoxsa müshəf üzündən oxumağım?"

İmam buyurdu: "Onu oxu və müshəfə nəzər sal, bu daha yaxşıdır. Bilmirsənmi ki, müshəfə nəzər salmaq ibadətdir?"[1]

İmamın (ə) kəlamının izahında deməliyik ki, Qur'an qiraəti və müshəfə baxmaq iki ayrı-ayrı ibadətdir. Başqa sözlə, Qur'anı ona baxmadan əzbər oxuyan şəxs bir ibadət etmişdir və mükafatı Allahın yanında saxlanılır. Amma Qur'anı müshəf üzündən oxuyan "müshəfə baxmaq" adlı digər bir ibadəti yerinə yetirmiş olur. Əbuzər nəql edir ki, böyük İslam Peyğəmbəri (s) buyurdu:

"Müshəfə, yə'ni Qur'an səhifəsinə baxmaq ibadətdir."[2]

Bu şərif hədisin məzmununa diqqət yetirməklə belə bir nəticə əldə edirik ki, Qur'an sahilsiz bir okeandır və bütün bəşəriyyət ondan faydalana bilər − İslam Peyğəmbəri (s) və mə'sum imamlar kimi kamil şəxslərdən tutmuş azsavadlı və bisavad insanlaradək. Qur'an açıq və səmavi bir süfrədir. Hər şəxs öz iste'dadı həddində ondan faydalanır.

Buna görə də savadı olmayan qardaşlar və bacılar da təharət və dəstəmazla Qur'anı açaraq, onun yazılarına baxa bilərlər. Allah-təala onlar üçün hökmən ibadət savabı yazar.

**Mühüm yaddaş:** Əlbəttə, Qur'anın hifzi, əzbərlənməsi mərhələsində olan əziz Qur'an araşdırıcıları ayələri yadda saxlamaq üçün Qur'anı əzbərdən oxumağa məcburdurlar və bu vaxt məsələ başqa şəkil alır. Amma həmin dostlar Qur'anın hifzi məşğələsindən sair vaxtlarda Qur'anı müshəf üzündən tilavət etsələr, daha yaxşı olar.

---

[1] "Üsule-kafi", c. 2, səh. 449

[2] "Biharül-ənvar", c. 89, səh. 199

**1.Bəhrələr, gözün ibadəti;** İbadət zamanı bədən üzvlərinin hər birinin öz bəhrəsi olur. Məsələn, dəstəmazda əllər, üz, ayaqların üzü dəstəmazdan bəhrələnir. Sədəqə verən əlin öz mükafatı var. İbadətdə gözün mühüm bəhrələrindən biri Qur'ani-kərimə baxmaqdır. Biz Qur'ana baxmaqla bu ibadətdə gözün payını ona vermiş oluruq.

Böyük İslam Peyğəmbəri (s) bu barədə buyurmuşdur: "İbadətdə gözlərinizin bəhrəsini verin." Soruşdular ki, ey Allah rəsulu, ibadətdə gözün bəhrəsi nədir? Buyurdu: "Müshəfə baxmaq, onu düşünmək və qəribəliklərindən ibrət götürmək."[1]

**2.Müshəfin haqqına riayət:** Mənzillərdə, məscidlərdə, müqəddəs məkanlarda olan Qur'anların hər birinin, müsəlmanların boynunda haqqı vardır. Qur'anı açmaqla, baxmaqla, qiraət etməklə onun haqqı ödənir. Hər bir evdə, adətən, bir cild Qur'an vardır. Bir qrup evdar qadınlar öz səliqələri ilə Qur'anı gözəl parçada, təmiz bir yerdə yerləşdirir. Uşaq əli çatmayan hündür bir yerə qoyurlar. Bu iş xoşagələn bir işdir. Amma təkcə bu iş Qur'anın haqqını ödəmir. Qur'anın haqqı onu qiraət etməklə ödənir.

Bə'zi evlərdə müxtəlif xətli və ölçülü çoxsaylı Qur'anlar var. Tövsiyyə edirik ki, ev əhli qiraət zamanı bu Qur'anların hər birindən istifadə olunması üçün proqram tərtib etsin. Bu yolla Qur'anın Allah dərgahına şikayət etdiyi adamlardan olmamaq mümkündür.

İmam Sadiq (ə) buyurur: "Allah qarşısında üç şey üç şeydən şikayət edər: qonşuluqda olanların namaz qılmadığı məscid, cahillər arasında qalmış alim (elmindən istifadə olunmaz), toz basmış və oxunulmayan Qur'an."[2]

**3.Valideynin günahının yüngülləşməsi:** Qur'anı müshəf üzündən oxuyan şəxs gözlərini Qur'an nurundan faydalandırmaqdan əlavə, ata-anasının günahlarının yüngülləşməsinə səbəb olur. Altıncı imam buyurmuşdur: **"Allah Qur'anı müshəf üzündən oxuyan şəxsin gözlərini**

---

[1] "Muhəccətul-bəyza", c. 2, səh. 231
[2] "Üsule-kafi", c. 2, səh. 449

**bəhrələndirir və bu vasitəylə ata-anasının günahlarını yüngülləşdirir, hətta onlar kafir də olsalar.”**[1]

**4. Qur’anın daha çox nəşri səbəbi:** Əgər hamı Qur’anı müshəf üzündən oxumaq qərarında olsa, bu məsələ Qur’ani-kərimin daha çox nəşr edilib yayılmasına səbəb olar. Nəticədə, hamı Qur’an əldə edə bilər və Qur’ana maraq artar.

---

[1] “Misbahul-kəfəmi, c. 2, səh. 531

## ÖZÜNÜ SINAMA

1. Nə üçün Qur’anı müshəf üzündən oxumaq daha yaxşı sayılır?
2. İbadətdə gözün bəhrəsi nədir?
3. Allah qarşısında neçə şey şikayət edər?
4. Müshəf üzündən Qur’an oxumağın ata-anaya nə faydası var?

## SƏKKİZİNCİ QAYDA

### *QUR'ANIN UCADAN VƏ ASTADAN OXUNMASI*

Bir qrup möhtərəm Qur'an tələbəsi və qarilər belə bir sualla müraciət edirlər: Qur'anı astadan oxuyaq, yoxsa uca səslə – hansı daha yaxşıdır?

Hər bir cavabdan öncə nəzərinizi beşinci imam həzrət Baqirdən (ə) nəql olunmuş bir hədisə cəlb edirik:

"Bir şəxs **"inna ənzəlnahu"**-nu uca səslə oxusa, şəmşirlə vuruşan əsgər kimidir və bir şəxs onu astadan oxusa, Allah yolunda öz qanına bələnmiş kəs kimidir."[1]

İmam Baqirin (ə) bu kəlamından mə'lum olur ki, Qur'anı həm ahəstə, həm də ucadan oxumaq fəzilətlidir. Buna görə də Qur'an qarisi şəraiti və öz halını nəzərə almaqla iki üsuldan birini seçib, Qur'an oxuya bilər. Bə'zi vaxtlar elə bir şərait yaranır ki, Qur'anı ucadan oxumaq daha fəzilətli olur. Bə'zən də, əksinə, astadan oxumaq daha fəzilətli ola bilər. Təlaşımız budur ki, uyğun şəraitləri rəvayətlərin dili ilə bəyan edək.

### *QUR'ANI UCADAN OXUMAQ*

İmam Sadiq (ə) Müaviyə ibn Əmmar adlı şəxsin Qur'anı ucadan oxuması barədəki sualının cavabında buyurdu: **(Qur'anı ucadan oxumağın) "Eybi yoxdur."**[2]

İmam Əli ibn Hüseynin (ə) Qur'an oxumaq sədası hamıdan üstün idi. O, uca səslə Qur'an oxuyardı ki, ev əhli eşitsin.[3]

İmam Baqir (ə) Qur'an qiraətində camaatın ən xoşsədalısı idi. Gecə namazı və Qur'an qiraəti üçün durduğu vaxt uca səslə Qur'an oxuyardı. Yoldan ötən suçular və başqaları dayanar, onun qiraətini dinləyərdilər.[4]

### *UCADAN OXUMAĞIN FAYDALARI*

Bu şərif hədis və digər oxşar hədislər bizə öyrədir ki, ucadan Qur'an oxumağın faydaları və müsbət nəticələri vardır. Əgər qari bu məziyyətləri və qiraətdə buna oxşar halları nəzərdə

---

[1] "Vəsailüş-şiə", c. 4, səh. 857
[2] "Vəsailüş-şiə", c. 4, səh. 858
[3] Həmin mənbə
[4] Həmin mənbə

saxlasa, uca oxumağın fəziləti ahəstə oxumağın fəzilətindən daha çox olar.

Söhbətin bu hissəsində Qur'anın uca oxunmasını fəzilətli edən hallara xülasə şəkildə işarə edirik:

1. Evdə uca səslə Qur'an oxuyan ata-analar öz övladlarının ruhunda və canında tərbiyəvi əsər qoyur, onları Qur'anla maraqlandırırlar.
2. Qur'anı ucadan oxumaq zehnin daha çox təmərküzləşməsi ilə nəticələnir, tilavət zamanı diqqət və qəlbin iştirakına səbəb olur. Bu halda Qur'an qarisi Qur'anın mə'nalarına daha yaxşı diqqət yetirə bilir.
3. Tilavət edən şəxsin süstlüyünü aradan qaldırır, ona daha çox ləzzət və sevinc ərməğan edir.
4. Qarinin səsi Qur'anın ilahi avazı ilə ucalıb başqalarına çatdıqda onların ruhunun və psixologiyasının dərinliyində də iz qoyur. Çox olsun ki, onlarda stimul yarana və Qur'ana uz tutalar. Əgər Qur'anı oxuya bilmirlərsə, onu öyrənməyə başlayalar, əgər Qur'an tilavəti ilə ünsiyyətləri yoxdursa, tilavətə şövqlənələr. Bundan da üstün, Qur'an qarisinin yetərli qiraəti qafil və günahkar insanı qəflətdən oyada bilər və onun həyat yolunu hidayətə doğru istiqamətləndirər.

## *FÜZEYLİN HEKAYƏTİ*

İlahi kitabdan bir ayə eşitməklə lərzəyə gəlib, bir anda bütün günahları ilə vidalaşan insanlar tarixdə az olmayıb. Onlardan biri də Füzeyl ibn Əyazdır. Onun maraqlı bir əhvalatı var. Füzeyl öz dövrünün ən şər insanlarından biri idi. Amma Qur'andan bircə ayə eşitməklə dövrünün zahidlərindən birinə çevrildi. O, Allah dərgahına tövbədən sonra təkamülün elə bir dərəcəsinə çatdı ki, İmam Sadiqin (ə) kəlamlarının ravilərindən biri və dövrünün məşhur zahidi kimi tanındı. Füzeyl ömrünün sonunu Kə'bə ətrafında yaşamış və həmin yerdə aşura günü həyatla vidalaşmışdır. O, öz həyatının əvvəllərində elə təhlükəli yolkəsən idi ki, adı çəkiləndə bütün xalq qorxuya düşürdü.

Füzeyl bir gecə alçaq bir məqsədin icrası üçün bir evə girmək istəyirdi. Gecə yarı ətrafdakı evlərdən birində aşiq könüllü bir kişi Qur'an tilavətinə məşğul idi və bu ayəni oxuyurdu:

“Vaxtı çatmadımı ki, mö’minlərin qəlbi Allahın zikri və haqdan nazil olan qarşısında xaşe (müt’i) ola?”[1]

Bu ayə Füzeylin aludə qəlbinə ox tək sancıldı, onu lərzəyə gətirdi. Azca fikrə daldı və özünə dedi: “Bu danışan kimdir? Kimə xəbər verir?... Ey Füzeyl, Qur’an səninlə danışır!” Qəfildən Füzeylin sədası ucaldı. Fasiləsiz olaraq deyirdi: “And olsun Allaha, onun vaxtı çatmışdır!.. Füzeyl üzünü göyə tutdu və çox peşiman, tövbəkar halda dedi:

“Xudavənda! Mən Sənə doğru qayıtdım və tövbəm bu oldu ki, daim Sənin evin ətrafında olum.”[2]

*Dedim candan-başdan keçdim yolunda,*

*Olanımı verdim, boşdur əlim də.*

*Dedi sən kimsən ki keçəsən nədən?*

*Qərarını əldən alan mənəm mən.*

## *QUR’ANI AHƏSTƏ OXUMAQ*

Şiə və sünnə əhlinin hədis kitablarında bu mövzuda nəql olunmuş hədislərdən nəticə almaq olar ki, aşağıdakı hallarda Qur’anı ahəstə səslə oxumaq daha yaxşıdır:

1. O zaman ki, insan Qur’anı uca oxumağın onda riya və özününümayişə səbəb olacağından qorxa. Çünki riya istənilən bir ibadəti nəinki dəyərdən salır, hətta insanı Allahdan uzaqlaşdırır.

2. O zaman ki, Qur’anın ucadan oxunması başqalarının narahatlığına, əziyyətinə səbəb olur. Məsələn, qonşuların istirahət və yatmaq vaxtı qiraət və ya Qur’anın uca oxunmasının ibadətinə mane olduğu yer. Əgər bir qrup mö’min məsciddə namaz və digər ibadətlə məşğul olduğu vaxt Qur’anın ucadan oxunması onlara mane olarsa, Qur’anı uca səslə oxumaqdan çəkinmək lazımdır.

3. Qur’anın ucadan tilavəti insanın cisminə zərərli olarsa. Bu halda insanın haqqı yoxdur ki, uca səslə tilavət etsin. Çünki bədənə zərər vurmaq haramdır. Bir halda ki, Qur’an tilavəti müstəhəbdir, müstəhəb əməli yerinə yetirmək xatirinə haram işə yol verməmək olmaz.

[1] Quran, “Hədid”, 16

[2] “Təfsire-nümunə”, bir qrup alim, c. 23, səh. 344-346

## *ÖZÜNÜ SINAMA*

1. Qur’anı ahəstə və ya ucadan oxumağın hansı fəzilətlidir?
2. İmam Baqirin (ə) Qur’an qiraəti xüsusiyyətlərini bəyan edin.
3. Qur’anı ucadan oxumağın faydalarının üçünü izah edin.
4. Füzeyl ibn Əyazın öz həyat yolunu dəyişməsinin səbəbi nə oldu?
5. Qur’anı hansı hallarda astadan tilavət etmək lazımdır?

## DOQQUZUNCU QAYDA

## *GÖZƏL SƏSLƏ TİLAVƏT*

**Gözəl səs ilahi ne'mətdir.**

İnsan təbii şəkildə gözəlliyi xoşlayır. Bütün gözəl şeylər onda razılıq doğurur. Allahın verdiyi ne'mətlərdən biri bə'zi insanlara əta olunmuş yaxşı və gözəl səsdir. Xoş avaz və yaxşı səs bütün gözəlliklərin fövqündədir.

Allahın Peyğəmbəri (s) buyurdu:

"Gözəlliklərin ən gözəli gözəl saç və yaxşı səsin nəğməsidir."[1]

Bu səbəbdən Rəhman Allah bu böyük hədiyyəsini seçilmiş insanlara əta etmişdir ki, (bütün ilahi peyğəmbərlərə) onların də'vəti daha cazibəli olsun. İmam Sadiq (ə) buyurmuşdur:

"Əziz və böyük Allahın göndərdiyi bütün peyğəmbərlər gözəl səsli olmuşlar."[2]

## *XOŞAVAZLILARIN VƏZİFƏSİ VƏ QUR'AN*

İndi ki, xoş avaz ən böyük ilahi ne'mətlərdəndir, İslam ümmətinin xoşavazlılarının vəzifəsi bu ne'mətin şükrünü yerinə yetirməkdir. Onun şükrü xoş avazla Qur'an tilavətidir. (Kişilər hamı üçün, qadınlar qadınlar üçün) Bu yolla həm özləri faydalansınlar, həm də cəmiyyəti Qur'an tilavətinin könül oxşayan səsi ilə Qur'ana cəzb etsinlər.

*Qari dodağında ilahi ayə*
*Canından dilinə süzülən işıq.*
*Bu tilavətlərin lətif avazı*
*Can mülkünə axan qeybi yaraşıq.*

## *GÖZƏL SƏS QUR'ANIN ZİNƏTİDİR*

Mütləq gözəllik Allah-təaladır və bütün gözəlliklər Ondan başlanğıc götürür. O, bütün gözəlliklərin mənbəsidir. Bu cəhətdən Onun kəlamı da ən gözəl kəlamdır. Heç bir danışıq gözəllikdə Qur'ana çatmaz. Belə ki, Qur'anın ən sərt

---

[1] "Üsule-kafi", "Gözəl səslə Quran tilavəti" babı, səh. 450

[2] Həmin mənbə, səh. 450-451

müxalifləri də bu həqiqəti e'tiraf edirlər. Məsələn, Qüreyş başçılarından və İslamın qatı düşmənlərindən olan Vəlid ibn Müğeyrə özü ən böyük ərəb natiqlərindən olduğu halda Qur'an haqqında belə deyir:

"Mən indi Məhəmməddən (s) elə sözlər eşitdim ki, nə bəşər sözündəndir, nə də huri danışığıdır. Çünki (bu sözlər) vəsfəgəlməz bir şirinliyə və heyranedici gözəlliyə malikdir!"[1]

Ayələri başdan-başa gözəllik olan Qur'an ə'la bir qarinin xoş avazı ilə oxunsa, onun gözəlliyi ikiqat artar və qəlblərdə özünə yer tapar.

Böyük arif Ayətullah seyyid Əli Qazi (r) şagirdləri üçün hazırladığı əməli göstərişlərdə gecə gözəl səslə Qur'an qiraəti haqqında belə yazır:

"Məşğul olasınız gecə, gözəl və qəmgin səslə Qur'ani-kərimin qiraətinə; o, mö'minlərin içkisi, meyidir (şərbətidir)."[2]

Qur'anı gözəl oxumaq o qədər dəyərlidir ki, şə'ni uca Peyğəmbər (s) onu Qur'anın zinəti adlandırmışdır:

"Həqiqətən, gözəl səs Qur'anın zinətidir."[3]

*Ey qəlbi imanla münəvvər insan,*
*Dodağında irfan çiçəyi taban.*
*Peyğəmbər buyurdu: həqiqətən də*
*Səsin səfasında bəzəndi Qur'an.*

## *QUR'ANI GÖZƏL OXUMAĞIN TƏ'SİRİ*

Kimsə soruşa bilər ki, nə üçün Qur'anın gözəl oxunması bir bu qədər tə'kid olunur? Mühüm odur ki, Qur'ana ehtiram göstərilsin. Tələsik yox, diqqətlə oxusunlar. Cavab olaraq deməliyik: Ərəb dilçiləri və ədibləri bu əqidədədirlər ki, Qur'an şe'r olmasa da, ahəng qəbul edir və xüsusi bir ahəngə malikdir. Ərəb dilində heç bir nəsr əsərində bu xüsusiyyət yoxdur. Elə bu cəhətə görə də Qur'an xoş avazla oxunduqda (hətta qeyri-müsəlman) dinləyiciyə maraqlı mə'nəvi tə'sir göstərir. Məşhur qarilərin həyat tarixçəsində çox oxumuşuq ki,

[1] "Biharül-ənvar", c. 18, səh. 168
[2] "Üsveye-arifan", səh. 138
[3] "Biharül-ənvar", c. 89, səh. 190

onların Qur'an qiraəti müsəlmanlardan əlavə, qeyri-müsəlmanlara da dərin tə'sir etmişdir. Belə ki, bu qiraət onların hidayətinə, müsəlman olmasına səbəb olmuşdur.[1]

Yaxşı olar Qur'anı gözəl oxumağın tə'sir dərinliyini ustad şəhid Ayətullah Mütəhhərinin (r) dilindən eşidək:

"Mən özüm... həqiqətən, Qur'an dinləməkdən ləzzət alıram... həqiqətən, Qur'anın gözəlliyini hiss edirəm. Xüsusi ilə lətif və gözəl ahənglə oxunduqda. Əbdül-Basitin oxuduğu surələr... Bə'zi hissələr, xüsusi ilə, ayənin mövzusuna münasib seçilmiş ahəngin tə'siri heyrətamizdir; məsələn, "ya əyyətuhən-nəfsul-mutməinnə" ayəsi və ya "izəşşəmsu kuvvirət" surəsi... Əksər oxuduğu belə tə'sirlidir. "İzəşşəmsu kuvvirət" surəsini onun mə'nasına münasib ahənglə oxumuşdur. Xüsusi ilə, bu ahənglərlə dinləyəndə xeyli ləzzət alıram.

Qur'anın şirinliyi nə qədər təkrar olunsa da azalmır.[2]

*Ey yaranış kitabının türfəsi,*
*Bəsirət əhlinin sevgi lövhəsi.*
*Sənin ayələrin mə'rifət yolu,*
*Bir nur çeşməsi ki, könül sevdalı.*
*Avazın ən gözəl, şirin tərانə,*
*Bu nəğmə çələngi saf, arifanə.*

## ƏN GÖZƏL SƏSLİ QARİ

Bu sətirlərə əziz oxucular, xüsusi ilə, əziz Qur'an qariləri ilə birlikdə baxaq, görək ki, ən gözəl səsli Qur'an qarisi kimdir?

Təsadüfən bir şəxs girami İslam Peyğəmbərinə (s) bu məsələ ilə bağlı sual vermiş, Həzrət (s) də ona cavab vermişdir:

Allah Rəsulundan (s) sual oldu: "Qur'an qiraətində adamların hansı ən xoşavazlıdır?" Buyurdu: "O şəxs ki, qiraətini eşitdikdə onun Allahdan qorxduğunu hiss edəsən."[3]

Allah qorxusu üstün və xoşavaz qarini tanımaq üçün əsas ölçüdür. Elə bir qari ki, öz gözəl səsi ilə Qur'anı zinətləndirir. Buna görə də ən xoşavaz qari o şəxsdir ki, onun danışıq və

---

[1] "Dünyanın məşhur qarilərinin həyat tarixçəsi", səh. 39-40
[2] "Nübuvvət", Ustad Mütəhhəri, səh. 235, 236
[3] "Biharül-ənvar", c. 89, səh. 195

rəftarında Allah və qiyamət qorxusu görünsün. Onun zahiri islami, kəlamı Qur’an, əməl və rəftarı İslam və Qur’an normalarına uyğundur. O, istər vacib əmrlərin icrası və haramların tərkində, istərsə də ictimai vəzifələrin yerinə yetirilməsində öncüldür. Xoş bu dərəcəyə çatmış qarinin halına! Səadət ona nəsib olsun!

*Gah şəbüstanının nurlu şamıyam,*
*Gah gülüstanının bülbülüyəm mən.*
*Gah qamışlığından qalxan naləyəm,*
*Ağlayıb-sızlayan sevgiliyəm mən.*

## *ÖZÜNÜ SINAMA*

1. Nəzərinizcə, xoşavazlı müsəlmanın Qur’an qarşısında vəzifəsi nədir?
2. Vəlid ibn Müğeyrə Qur’an haqqında nəyi e’tiraf etdi?
3. Böyük arif ağa Qazi şagirdlərinə Qur’an tilavəti haqqında hansı göstərişi vermişdir?
4. Nə üçün Qur’anı gözəl oxumaq bir bu qədər tə’kid olunmuşdur?
5. Ən xoşavazlı Qur’an qarisi kimdir?

## ONUNCU QAYDA

### *ƏRƏB DİLİNDƏ TİLAVƏT*

Tilavətin mühüm qaydalarından biri Qur'anı ərəbcə və fəsahətli oxumaqdır. Bu barədə Allahın girami Peyğəmbəri (s) və digər din öncüllərindən dəyərli söhbətlər nəql olunmuşdur. Onlardan bə'zilərinə nəzər salırıq.

### *QUR'ANI ƏRƏBCƏ OXUMAQ ZƏRURƏTİ*

Ərəbcə oxumaq deməkdə məqsədimiz həmin dil məsələsidir. Yə'ni ana dili ərəb dili olmayan hər bir müsəlman Qur'anı ərəbcə oxumağa çalışsa, daha yaxşı olar. Bilirsinizmi, Qur'anı fəsahətli oxumaq onu nazil olduğu şəkildə oxumaq deməkdir. Bu sayaq oxumaq Allahın girami Peyğəmbərinin (s) istəyincədir.

Allah Rəsulunun (s) buyurduğu bir xəbərdə nəql olunur ki, Allah Rəsulu (s) Qur'anı İbn Məs'udun dilindən dinləməyi xoşlayardı. Bilirsinizmi nə üçün? Bu rəvayətə diqqət yetirin:

"Qur'anı nazil olduğu kimi (fəsih ərəbcə) təravətli, qəlbəyatımlı oxumağı xoşlayan şəxs onu İbn Məs'ud kimi oxumalıdır."[1]

İmam Sadiq (ə) bu barədə buyurur:

"Qur'anı (fəsih və ləhnlə) ərəbcə oxuyun, çünki Qur'an ərəb dilindədir."[2]

Bə'ziləri dərhal soruşa bilər ki, bəs ərəbcə fəsih oxumağı bacarmayan qeyri-ərəb müsəlmanların vəzifəsi nədir? Yoxsa onlar Qur'an oxumamalıdırlar?!

Biz o sayaq demirik. Deyirik ki, bacarmamaq və istəməyib çalışmamaq arasında fərq var. Əmirəl-mö'minin Əli (ə) öz dürlü söhbətlərindən birində buyurdu:

"İnsanın dəyəri onun təlaşı qədərdir."[3]

*Təlaş et ki, Xaliq və xalq yanında*

*Təlaşın qədərdir e'tibarın da.*

---

[1] "Quran və Quran araşdırma diplomu", c. 1, səh. 129, 130
[2] "Üsule-kafi", c. 2, səh. 450
[3] "Nəhcül-bəlağə", hikmət 47

Biz müsəlmanların bir qismi bir çox məsələlər, hətta qeyri-zəruri dünyəvi işlər üçün xeyli vaxt və qüvvə sərf edirik. Amma dünya və axirət həzzi və səadəti üçün şərt olan mə'nəvi və ruhani işlərdə özümüzü azca da zəhmətə salmaq istəmirik.

Bir rəvayətə nəzər salaq. İmam Sadiq (ə) həzrət Peyğəmbərdən (s) belə nəql edir:

"Qur'anı onun ərəbcə şəklində öyrənin (öyrədin)"[1]

*Ey bəşər, haqqa gəl, doğru yolu tut,*
*İctihad ipini çalış, sal ələ.*

*Qur'an ərəbidir, onun elmini*
*Necə yazılmışsa, o cür əxz elə.*

Bütün bu tövsiyyələrə baxmayaraq, bə'ziləri Qur'an qiraətində süstlük və mövqesizlik göstərirlər. Hansı ki, dünyəvi işlərdə belə etmirlər. Yalnız çox Qur'an oxumaq barədə düşünür, qiraətin keyfiyyəti barədə qətiyyən narahat olmurlar. Öz gümanlarına uyğun, çox oxumaqla çox savab qazanmaq istəyirlər.

Ona görə də Qur'anı səhv oxumaq, kəlmələrin zir-zəbərini dəyişik salmaq, təşdidləri ötürmək, hətta bütöv sözləri buraxmaq belə adamlara asan gəlir. Bəli, əzizlər! Bütün bunlar Allah kitabına hörmətsizlik deyilmi? Zənnimcə, Qur'anı bu sayaq oxumağın nəinki savabı yoxdur, hətta beləllərinə Sə'dinin bir şe'rini aid etmək olar:

*Qur'anı bu sayaq oxusan əgər,*
*Bil, müsəlmanlığın rövnəqi gedər.*

Bəli, əgər bir şəxs çalışıb, ərəbcə oxumağın zəruri qaydalarını öyrənmək istədiyi halda, öyrənə bilməsə, artıq bir vəzifəsi qalmaz və Allah-təala onun nöqsanlı qiraəti müqabilində fəsih ərəbi qiraətin mükafatını verər.

Amma həqiqətən bir biz bilirik, bir də Allah! Məgər "bilmirəm" deməklə İslam öncüllərinin tapşırıqlarından boyun

---

[1] "Biharül-ənvar", c. 89, səh. 211

qaçırmaq olarmı? Cavab belədir: "Bilmirəm" deyib, bu məsələni boyundan atmaq insafdan deyil.

Buna görə də çalışmaq, bir qədər vaxt sərf edib, qüvvə daxilində, bu tilavət qaydasına riayət etmək və Allah kəlamını ərəbcə və səhvsiz oxumaq lazımdır.

*Qur'anda ciddi bax işarələrə,*
*"Muhrim" "mucrim" olur bir nöqtə ilə.*

## ***QUR'ANI ƏRƏBCƏ OXUMAQ MƏRHƏLƏLƏRİ***

Qur'anı ərəbcə oxumağın mərhələləri vardır. Bu mərhələlər xülasə şəkildə bəyan olunur ki, hərə öz iste'dadı və təlaşı həddində onu öyrənib, Qur'anı ərəbcə oxumaq fəzilətini əldə etsin.

**İlkin mərhələ:** Bu mərhələdə Qur'an öyrənən şəxs ərəb hərflərinin tələffüzü ilə tanış olur. Fars dilində hərflərin sayı 32-dir. Ərəb dilində isə 28. Fars dilində olan 4 hərf ərəb dilində yoxdur: پ (p), چ (ç), ژ (j), گ (g)

28 ərəb hərfindən 18-nin tələffüzü farsca tələffüzlə təqribən eynidir. Yalnız 10 hərfin farsca və ərəbcə tələffüzləri arasında fərqlər vardır. Bu hərflər ibarətdir: ث (sa), ح (ha), ذ (zal), ص (sad), ض (zad), ط (ta), ظ (za), ع (əyn), غ (ğəyn), و (vav)

Qur'an öyrənən şəxs bu hərflərin düzgün tələffüzünü öyrənməlidir.

Bu mərhələdə Qur'anın düzgün oxunması əldə olunur. Bu yolla Qur'an kəlmələrinin mə'na və məfhumu qorunur. Çünki bir çox hallarda hərflərin dəyişik tələffüzü nəticəsində kəlmələrin mə'nası dəyişir. Bu məsələ ilə bağlı göstərilən nümunələrə diqqət edin. Misallar namazın qiraətindən seçilmişdir ki, düzgün qiraətin əhəmiyyətini dərk edəsiniz:

Cədvəlin izahı: Namaz mətnində oxunan "həmd" surəsindəki "sirat" sözü əlifbanın 17-ci hərfi "ta" (ط) ilə yazılır. Bu hərf "dal" (د) kimi tələffüz olunarsa, nəzərdə tutulmuş "yol" sözü "ayaqqabı qıyığı" mə'nasını verər. Rüku zikrində işlədilən "əzim" sözü əlifbadakı 18-ci yox, 11-ci "za" hərfi ilə oxunarsa, nəzərdə tutulmuş "böyük" sözü "qatı düşmən" mə'nasını ifadə edər. Salavatdakı "səlli" kəlməsi "sad" yox, "sin" hərfi kimi

tələffüz olunarsa, “salam göndər” əvəzinə “təsəlli de” mə’nası alınar.

| Düzgün | Səhv |
|---|---|
| Yol = صِراطَ | Qıyıq = صِرادَ |
| Böyük = عَظِيم | Amansız düşmən = عَزِيم |
| Salavat-salam göndər = صَلِّ | Başsağlığı ver = سَلِّ |

**İkinci mərhələ:** Təcvid elmi qaydaların xülasə şəkildə öyrənilməsidir. Əlbəttə ki, bu işdə əməli çalışmalar və qiraət də olmalıdır. Bu çalışmalar elə bir həddə olmalıdır ki, Qur’an öyrənən şəxs Qur’anı ərəb ləhcəsi ilə oxuya bilsin. Bu tə’lim imam Sadiqin (ə) aşağıdakı buyuruğuna əməl etməklə nəticələnir: “Qur’anı fəsih və ərəb ləhni ilə oxuyun.”

**Üçüncü mərhələ:** Bu mərhələdə şagird Allah kitabını kamil ərəb ləhni ilə oxuyur və ayələrin mə’nasına da fikir verir. Yə’ni qari ərəb qrammatikasını və lüğəti bilmək sayəsində, gücü həddində, oxuduğu ayələrin mə’nasını anlayır və öz ləhcəsini, avazını ayələrin mə’nasına uyğunlaşdırır.

Başqa sözlə, hər bir ayəni onun mə’nasına münasib ahənglə oxuyur. Bu sayaq Qur’an tilavəti, demək olar ki, böyük İslam Peyğəmbərinin (s) buyuruğunun aydın nümunəsidir. Həzrət buyurdu:

“Qur’anı ərəb ləhni və avazı ilə oxuyun və fəsad əhlinin, böyük günah əhlinin avazlarından çəkinin.”[1]

Bir çox Qur’an araşdıran alimlər və mütəxəssislər fəsahətli və gözəl qiraətə xüsusi diqqət göstərmiş və qarilərə bu böyük, dəyərli işi tövsiyyə etmişlər.

Fərzanə arif ayətullah Qazinin (r) bir şagirdi onun haqqında belə demişdir:

“Mərhum ağa (Qazi) fəqihlikdə, rəvayət və hədislərin dərkində, təfsirdə, Qur’an elmlərində misilsiz idi. Ərəb ədəbiyyatı, fəsahətdə oxşarsız idi. Hətta təcvid və Qur’an qiraətində çox üstün idi. Onun olduğu məclislərdə az qarilər

[1] “Üsule-kafi”, c. 2, səh. 450

Qur'an oxumağa cür'ət edərdi. Çünki təcvid və qiraət üsulundakı nöqsanları deyərdi."1

**Qur'anın ahəng qəbulu**:

Əgər Qur'an ərəb ləhni ilə kamil şəkildə oxunmuş olsa, elə bir xüsusi ahəng alır ki, bu ahəng bütün digər ahənglərdən fərqlənir. Ərəb dilçiləri və Qur'an araşdırıcılarının böyük hissəsi Qur'ani-kərimin xüsusi bir musiqi və ahəngə malik olması qənaətindədirlər. Heç bir digər mətni Qur'an ahəngi ilə oxumaq olmur. Ustad Mütəhhəri (r) bu barədə deyir:

"Qur'anın xüsusiyyətlərinə aid digər bir məsələ ki, qədimdən diqqət mərkəzində olmuşdur, Qur'anın ahəng qəbul etmək məsələsidir. Bu çox maraqlıdır. Bildirilir ki, müxtəlif dillərdə şe'rdən başqa heç bir mətn ahəng qəbul etmir. Bir bəstəkarın musiqi bəstələyə biləcəyi mətn yalnız ahəng qəbul edən şe'rdir. Bir tərəfdən də görürük ki, Qur'an şe'r deyil... Qur'an ahəng qəbul edən yeganə nəsrdir. Bu, ilkin İslam dövründən diqqəti özünə çəkən bir məsələdir."2

Bu sayaq tilavətin nəticəsindən həm qari, həm də dinləyici faydalanır. Qari Qur'anı belə oxuduqda hiss edir ki, ilahi ayələrdə onun özünə müraciət olunur. Bu hal Qur'an qarisində dərin iz qoyur. O, tilavətdən saatlarca sonra da bu halı özündə hiss edir. Ayələrin mə'nası ilə tanış olan dinləyicilər də eyni hissi keçirir və ilahi kəlamların onların özünə ünvanlandığını hiss edir. Bu hal nəticədə dinləyicilərdə əməli dəyişikliklərə səbəb olur.

Bu növ tilavət Qur'anın ərəbi qiraətinin kamil nümunəsidir. Ümid olunur ölkəmizin əziz qarilərinin tilavəti bir səviyyəyə qalxacaq ki, cəmiyyət üçün sonsuz və mübarək tə'sirlərlə nəticələnəcək.

---

[1] "Ruhe-mucərrəd, Əllamə Seyyid Məhəmməd Hüseyn Hüseyni Tehrani, səh. 501

[2] "Nübüvvət", Ustad Mütəhhəri, səh. 229-236

## *ÖZÜNÜ SINAMA*

1. Nə üçün Allah rəsulu (s) Qur’anı İbn Məs’udun dilindən dinləməyi xoşlayırdı?
2. İmam Sadiq (ə) Qur’an oxumaq şivəsi barədə nə tövsiyyə etmişdir?
3. Qur’anı ərəbcə oxumaq mərhələlərini xülasə şəkildə izah edin.
4. Dilçilər Qur’anın ahəngi və musiqisi haqqında nə demişlər?
5. Qur’anı ərəb ləhni ilə oxumağın qari və dinləyiciyə nə kimi tə’sirləri var?

## ON BİRİNCİ DƏRS

### *QUR'ANIN GÜNDƏLİK OXUNMASI*

Ən dəyərli ibadətlərdən biri Qur'an qiraətidir. Qur'an qiraəti o qədər əhəmiyyətlidir ki, Allah-təala bu barədə belə buyurur:

"Sizə müyəssər olan qədər Qur'an oxuyun"[1]

*Hər nə qədər imkan tapdızsa, hökmən*
*Oxuyun Qur'anın ayələrindən.*

### *BÜTÜN HALLARDA QUR'AN QİRAƏTİ*

Adətən, tövsiyyə və tapşırıq vermək istəyən şəxs mühüm və taleyüklü şeyləri önə çəkir. Allah rəsulunun (s) Əmirəl-mö'minin Əliyə (ə) vəsiyyətlərindən biri Qur'anın ardıcıl şəkildə tilavətidir:

"Bütün hallarda Qur'anı tilavət et."[2]

**Qur'anın buyuruğu:**

Xəstəlik, səfər və ya Allah yolunda cihad zamanı bir çox ibadətlər insana vacib olmur və ya yüngülləşdirilir. Amma Allah-təala tə'kid edir ki, imkan daxilində, həmin hallarda da Qur'an oxuyun:

"Tezliklə sizlərdən bir qismi xəstələnər, digər bir qismi Allahın fəzlini (ruzi) əldə etmək üçün səfərə çıxar, başqa bir qismi isə Allah yolunda cihad edər (və Qur'an tilavətindən ayrılar). Mümkün olan qədər ondan tilavət edin."[3]

**Bu tövsiyyənin sirri nədir?**

Nə üçün Qur'anın ardıcıl və gündəlik qiraəti bir bu qədər tə'kid olunur? Olsun ki, bu tə'kidin hikməti hər bir müsəlmanın xoşbəxt həyat proqramının məhz Qur'an olmasıdır. Bu səbəbdən də yaxşı olar ki, müsəlman şəxs hər gün Qur'ana müraciət etsin, onu qiraət etməklə Qur'andan həyat dərsi alsın və bu dərslərə əməl etsin.

İnsan gündəlik işlərin icrası üçün proqram tərtib edib, həmin proqrama uyğun hərəkət etmək üçün sübhlər ona baxdığı kimi,

---

[1] "Muzzəmmil", 20
[2] "Vəsailüş-şiə", c. 4, səh. 839
[3] "Müzzəmmil", 20

Qur'ana əməl etmək istəyən hər bir müsəlman da gündəlik ona müraciət edib, əlaqə saxlamalıdır ki, onun göstərişləri əsasında dünya və axirətdə kama çatsın.

*Harda olursan ol, bil, ey müsəlman,*
*Qur'an tilavətin çıxarma yaddan.*

## *QUR'AN TİLAVƏTİ VƏ HİKMƏT ƏHLİ*

Hikmət əhli və din alimlərinin həyatında Qur'an qiraətinin xüsusi yeri ilə tanış olmaq üçün bu barədə nümunələri nəzərdən keçiririk. Qoy bu nümunələr bizim üçün dərs və ideal olsun.

**İmam Raztd (r) və Qur'an qiraəti**:

Həzrət imamın (r) həyatından bu məsələ ilə bağlı iki eşitməli, oxumalı xatirəni yada salırıq:

Bir dəfə Nəcəfdə olarkən gözləri ağrıyırdı. Həkim onun gözlərini müayinə etdikdən sonra dedi: "Siz bir neçə gün Qur'an oxumamalı, gözlərinizə istirahət verməlisiniz." İmam gülümsəyib dedi:

"Həkim, mənə göz Qur'an oxumaq üçün lazımdır. Qur'an oxumayacağamsa, gözün faydası nədir?! Siz elə bir iş görün ki, mən Qur'an oxuya bilim."[1]

Ayətullah Təvəssüli həzrət imamın (r) yaxınlarından biri olaraq, onun ardıcıl və gündəlik Qur'an qiraəti haqqında deyir:

"İmam bütün məşğuliyyətlərinə baxmayaraq, müstəhəb əməllərə, xüsusi ilə Qur'an oxumağa, duaya və namazın əvvəl vaxtda qılınmasına əhəmiyyət verərdi. İmam gündə 3-5 dəfə Qur'an oxuyardı. Mübarək ramazan ayında Qur'anı üç dəfə xətm edərdi.[2]

**Ağa Qazi:** O, Qur'anı insan həyatının proqramı, tə'limatı bilirdi. Qiraətin necəliyi və yeri haqqında yazır:

"Tə'limat, həyat proqramı Qur'ani-kərimdir... Müxlislərin bu göz işığını daim göz qabağında saxlayın və bu hadi − yol

---

[1] "Günəşlə ayaq-ayağa", Əmir Riza Setudə, səh. 181
[2] Həmin mənbə, səh. 285

göstərənlə doğru yolu seyr edin. Onun şərif seyrlərindən biri qiraətdir − gözəl surətdə və qaydada, xüsusən gecə yarılar!”[1]

**Əllamə Təbatəbai**:

Dəyərli, “Əl-Mizan” təfsirinin müəllifi Əllamə Təbatəbai haqqında deyirlər: O, Qur’an və Qur’anın qiraəti ilə yaxın ünsiyyətdə idi. Mərhum Əllamə ayələrdən az-çox əzbər bilirdi. İlahi ayələri çox araşdırdığından Qur’ana bir növ aşiq idi. Qur’an oxumağı özü üçün ən yaxşı və ən ali iş sayırdı. Gecə yarı və gün uzunu Qur’an tilavət edərdi.

## *GÜNDƏLİK QİRAƏTİN MİQDARI*

Soruşa bilərlər ki, Qur’anın gündəlik qiraəti bu qədər əhəmiyyətlidirsə, gündə neçə ayə Qur’an oxunsun?

Bu sualın cavabı din öncüllərinin söhbətlərində verilmişdir. Bu mövzuda bir neçə hədis nəql etməklə kifayətlənirik.

**Qiraətin həddi**: İmam Baqirdən (ə) nəql edilmiş hədisdən mə’lum olur ki, bir müsəlman qafillərdən sayılmaq istəmirsə, gündə ən azı on ayə Qur’an oxumalıdır. Beşinci imam (ə) bu mətləbi Girami Peyğəmbərdən (s) nəql etmişdir:

“Hər kəs hər gecə on ayə Qur’an oxusa, bixəbərlərdən və qəflət əhlindən yazılmayacaqdır.”[2]

Əlbəttə, bu on ayə hər bir müsəlmanın namazda qiraət etdiyi ayələrdən əlavədir. Çünki namazdakı ayələr namazın bir hissəsidir və onu oxumaq hər bir yetkin müsəlmana vacibdir.

## *QƏFLƏT BU GÜNKÜ İNSANIN XƏSTƏLİYİDİR*

Bu gün bəşəriyyətin ən böyük xəstəliyi qəflət və bixəbərlikdir. Bu günkü insan özünün və varlıq aləminin yaranış hikmətlərindən xəbərsizdir. O, dünyaya nə üçün gəldiyini, hansı vəzifələrə malik olduğunu, nəhayət, haraya gedəcəyini bilmir. Saysız insanlar varlıq mənbəsindən və qiyamət günündən xəbərsizdirlər.

*Gəl ey Hafiz, dinlə acı nəsihət,*
*Niyə hakim olmuş ömrünə qəflət?*

---

[1] “Üsveye-arifan”, səh. 127-128

[2] “Üsule-kafi”, c. 2, səh. 488

Bu xəstəliyin yeganə dərman nüsxəsi Qur’ani-məciddir. Bu kitab başdan-başa Allah, tövhid, məad haqqında söhbətlərdən ibarətdir və bəşəriyyəti başlanğıc və son haqqında düşünməyə də’vət edir. Qur’andan (gündə) cəmi on ayə oxuyub, bu ayələrin mə’naları haqqında düşünən şəxs heç vaxt qafil və bixəbər insanlardan olmayacaq.

## *SÖVDƏGƏR VƏ TACİRLƏR ÜÇÜN QİRAƏT HƏDDİ*

Möhtərəm bazar əhli, tacirlər də Qur’an qiraətinə lazımınca sə’y göstərməlidirlər. Nə yaxşı olar ki, bizim bazar əhli bu məsələdə qədim bazar əhlinin yolunu gedə.

Şiə tacirlər və sövdəgərlər qədim dövrlərdən başlayaraq, Qur’an və Əhli-beytə (ə) imanlı və məhəbbətli bir zümrə olmuşlar. Hətta, demək olar ki, onlar islami şe’rlərin əzbərlənməsində, Qur’an məclisləri və Əhli-beyt (ə) əzadarlıqlarının təşkilində cəmiyyətin digər zümrələrindən qabaqda getmişlər. Necə ki, İranın bir çox şəhərlərində hazırda da həmin ən’ənə yaşayır. Eşitmiş və ya oxumuş olarsınız ki, qədim tacirlər namaz vaxtı alveri dayandırıb, yövmiyyə namazlarını məsciddə camaatla qılmaqdan əlavə, gündəlik işlərinə Allahın adı ilə başlayırdılar. Bazar əhlinin, sövdəgərlərin, müxtəlif yönümlü dükançıların böyük bir hissəsi öz iş yerlərini açdıqdan sonra Qur’anı açar və gündəlik işə Allahın kəlamı ilə başlayardılar. Bu gözəl ən’ənə səbəbindən iş vaxtı Allahı unutmaz, şeytanın bəlalarından və haram iqtisadi əməllərdən amanda qalardılar. Nəticədə, Allaha sevimli tacirlər zümrəsinə qatılardılar və Allah-təala onların əməyinə bərəkət verərdi.

Allahı xatırlamaq və Qur’anla ünsiyyət iki dəlilə əsasən bazar əhli və sövdəgərlər üçün dini zərurətdir:

1. Qur’an qiraəti yolu ilə İslamın nurani hökmləri, xüsusi ilə, onun iqtisadi göstərişləri ilə tanış olurlar. Bu səbəbdən də haram müamilə etmirlər və başqaları müamilə üçün zahiri don düzəldib, onları harama vadar edə bilmir.
2. Müştərilərin əksəri qadınlardır. Tacirin gözü və dili pak, imanı güclü olmasa, qəlbinə Allah xofu hakim kəsilməsə, onun işi şeytan üçün pusqu olacaq. Buna görə də bazar əhlinin

məscid və Qur’anla ünsiyyəti onların imanlarının güclənməsinə, qorunmalarına səbəb olacaq. Bu vaxt şeytanın tələlərindən hifz olunacaq.

Bizim məzhəb başçımız həzrət İmam Sadiq (ə) müsəlman tacir və sövdəgərlərə müraciətlə belə buyurur:

“Bazarda işə məşğul olan tacirə nə mane olur ki, evinə qayıtdığı vaxt Qur’andan bir surə oxumamış yatmaya?! Oxuduğu hər ayəyə görə ona on savab yazılar və on pis işi pozular.”[1]

## *ALİM QARİNİN QİRAƏTİ*

Bu hissədə qələmi Qur’anşünas olmuş, Qur’anla insaniyyətin uca zirvəsinə və mə’nəvi təkamülə çatmış, iman əhli üçün nümunə olmuş, hələ də düşüncə və qələminin işığında mə’rifət əhlinin yol axtardığı hikmət əhlinə, alimlərə təqdim edirik. Baxaq görək, bu əməl alimlərinin qarilərə, elm və kamal əhlinə hədiyyəsi nədir?

**Feyz Kaşaninin sözü:**

Həqiqi şiə fəqihlərindən və təfsirçilərindən, böyük ariflərdən olan Mövla Möhsin Feyz Kaşani öz şərif “Məhəccətül-bəyza” kitabında yazır:

Əgər qari Qur’anın mə’nalarında mütəfəkkirdirsə, belə bir rəvayətə əməl etsin: hər gün əlli ayə oxusun, çünki İmam Sadiqdən (ə) nəql olunur ki, buyurdu:

“Qur’an Allahın xalqla peymanıdır. Sözsüz ki, Allahın peymanına diqqətlə baxmaq və hər gün ondan əlli ayə oxumaq müsəlman şəxsə layiqdir.”[2]

**Ağa Qazi:** Kamil arif cənab Seyyid Əli Ağa Qazi şagirdlərinə ünvanladığı əməli göstərişlərdə Qur’an qiraəti haqqında yazır:

“Məşğul olasınız gecə, gözəl və qəmgin səslə Qur’ani-kərimin qiraətinə; o, mö’minlərin içkisi, meyidir. Qur’an tilavəti bir cüz’dən az olmasın.”[3]

**Mövla Hüseynqulu Həmədani**: Bu böyük arif belə tövsiyyə edir:

---

[1] “Səvabul-əmal”, Şeyx Səduq, səh. 127

[2] “Üsule-kafi”, c. 2, səh. 446

[3] “Üsveye-arifan”, səh. 138

"Gündəlik nə qədər bacarsan − ən azı bir cüz' − ehtiramla, dəstəmazla, xüzu və xüşu ilə Qur'an oxu və zərurət olmasa, oxuduğun vaxt arada (başqa) söz danışma"[1]

**Əllamə Şə'raninin kəlamı:** Ustad Həsənzadeye Amuli dəyərli "Mə'rifət səmasında" kitabında nəql edir ki, Əllamə Şə'rani elmi, əxlaqi, mə'nəvi bir vəsiyyətnamədə dini elm tələbələrinə xitab edir. Müraciət üçüncü "haşiyeye-vafi" cildinin sonunda dərc olunmuşdur. Bu vəsiyyətnamədə elm əhlinin Qur'an qiraəti şivəsi haqqında oxuyuruq:

"Elm talibinə vacibdir ki, gün uzunu Qur'ani-kərimin qiraətini tərk etməsin. Gücü həddində, ayələrin incəliklərini və mə'nalarını düşünərək qiraət etsin. Çətinliklə rastlaşdığı ayələrdə təfsirə müraciət etsin."[2]

Həqiqətdə, böyük alimlərin və hikmət sahiblərinin ruhani tələbələrə tövsiyyəsi budur ki, Hafizin növbəti şe'ri onların halına şamil olsun:

*"Tənzil"in mə'nasın bilərsə "hafiz"*
*"Tənzil" "hafiz" deyə ötər, şübhəsiz.*

## *QUR'ANIN TİLAVƏT VAXTLARI*

Qur'ani-kərim ayələrindən və hədislərdən mə'lum olur ki, Qur'an qiraəti, Allahın zikri istənilən bir vaxt yaxşıdır. Allah rəsulu (s) Əmirəl-mö'minin Əliyə (ə) belə tapşırır:

"Bütün hallarda Qur'anı tilavət et."

*Könlündən keçirsə əbədi cənnət,*
*Bir olan Rəbbinlə sevgi, ünsiyyət,*
*Bil Əli buyurub: gecə və gündüz*
*Üstündür Qur'anı etsən tilavət.*

Aşağıdakı vaxtlarda Allahın zikri və Qur'an tilavəti daha çox tapşırılmışdır: sübhlər sübh namazından sonra, qürub vaxtı, gecə yatmazdan qabaq, xüsusi ilə gecə yarılar və sübh erkən.

---

[1] "Dər asemane-mərifət", Əllamə Həsənzadeye Amuli, səh. 140
[2] "Vəsailüş-şiə", c. 6, səh. 186

*Hər gecə göz yaşım damdı Qur′ana,*
*Sanki hər şö′ləsi od vurdu cana.*

Hər şəxs öz halına və imkanına uyğun olaraq, bu vaxtlardan birini Qur’an tilavəti üçün seçib, Allahı ilə ünsiyyətə qatıla bilər. Amma gecə yarı Qur’an oxumaq başqa bir aləmdir. Gecə yarı və erkən sübh aşiqlərin mə’budla raz-niyaz, mehriban Allahla ünsiyyət vaxtıdır.

*Bax ki, əsil aşiq oyaqdır necə,*
*Məhbubun başına dönər gizlicə.*
*Kimin qapısı var bağlamış artıq,*
*Bir dostun qapısı açıqdır gecə.*

## *ÖZÜNÜ SINAMA*

1. “Müzzəmmil” surəsinin 20-ci ayəsində nə tapşırılır?

2. Nə üçün Qur’anın ardıcıl və gündəlik qiraəti tə’kid olunur?

3. Əgər qafillərdən və bixəbərlərdən olmaq istəmiriksə, gündə neçə ayə Qur’an oxumalıyıq?

4. İmam Sadiq (ə) tacirlərə və sövdəgərlərə Qur’an qiraəti haqqında nə sifariş edir?

5. Feyz Kaşani, Ağa Seyyid Əli Qazi, Əllamə Şə’raninin nəzərincə, alimlər nə qədər Qur’an qiraət etməlidir?

6. Qur’an tilavəti üçün hansı vaxtlar münasibdir?

## ON İKİNCİ QAYDA

### *QUR'ANDA "TƏDƏBBÜR"*

Qur'ani-kərim bütün müsəlmanları Qur'an qiraətinə də'vət etmişdir.[1] Qiraət müqabilində xeyli savab və fəzilət zikr olunmuşdur. Ona görə də yeri var ki, hər bir müsəlman öz vaxtının bir qədərini Qur'an qiraəti üçün ayırsın. Amma Qur'ana münasibətdə vəzifəmiz bununla tamamlanmır. Qur'anla ünsiyyətdə olan insanın digər bir vəzifəsi də var və bu vəzifə "Qur'anda tədəbbür"dən ibarətdir.

**"Tədəbbürün" mə'nası:**

Bu sözün lüğət mə'nası "işin sonunu düşünmək"dir. Başqa sözlə, işin, əmrin və ya hekayənin sonuna nəzər salmaq və ibrət götürmək. Bu isə "təfəkkür"dən geniş bir məfhumdur.

Buna əsasən, Qur'anda tədəbbürün mə'nası budur ki, onu oxuyan şəxs tilavət gedişində ayələrin mə'nalarına diqqət etsin. Bu mə'naları düşünsün və düşündükdən sonra Qur'an maarifindən dərs alsın, Qur'andakı sərgüzəştlər həmin şəxs üçün ibrətamiz olsun.

### *QUR'ANDA TƏDƏBBÜRÜN ƏHƏMİYYƏTİ*

Allah-təala müsəlmanların Qur'an qarşısındakı vəzifəsini "Sad" surəsinin 29-cu ayəsində belə bəyan edir:

**"(Ey peyğəmbər, Qur'an) Sənə nazil etdiyimiz bərəkətli bir kitabdır ki, onun ayələrində tədəbbür etsinlər və (o) ağıl sahibləri üçün xatırlatmadır."**

*Qur'an sənə nazil olmuş bir kitab,*
*Ondadır bərəkət, ondadır savab.*
*Ayələrin düşünsünlər dərindən,*
*Oxuyanlar kam alsın səmərindən.*
*Ağıl və düşüncə sahibi olan*
*Əlbət ki, nəsihət alası ondan.*

Qeyd olunmuş ayə bütün müsəlmanlara öyrədir ki, Qur'anın tilavət qaydalarından biri Qur'anın mə'nalarına diqqət və onun

---

[1] Quran, "Müzzəmmil", 20

ayələri haqqında düşünməkdir. Yə'ni hər bir müsəlman Qur'an oxuyarkən ayələrin mə'nasına diqqət yetirməli, ayənin sifarişini anlamalı, ilahi kəlmələrin özünə ünvanlandığını bilməlidir. Bu yolla Qur'ani-kərim ayələrinə əməl etmək üçün şərait yaranır. Qur'an qarisi bu məqsədlə tilavətin əvvəlindən sonunadək fikrini cəmləşdirməli, Qur'an və onun mə'nasından kənar şeylər haqqında düşünməməlidir.

Ayətullah Şeyx Məhəmməd Təqi Amuli nəql edir ki, bir gün mərhum Ağa Qazidən soruşdum: "Biz eşidirik ki, bə'ziləri Qur'ani-kərimi qiraət edərkən səma qapıları onların üzünə açılır və qeybi sirlər onlara təcəlla edir. Hansı ki, biz Qur'an oxuyuruq və belə bir əsər görmürük." Mərhum Qazi buyurdu: "Bəli, onlar Qur'ani-kərimi onun xüsusi şəraitinə uyğun tilavət edirlər... və oxuduqlarına bütün vücudları ilə diqqət edirlər, kimin qarşısında durduqlarını dərk edirlər."[1]

## *İMAM ƏLİ (Ə) VƏ QUR'ANDA TƏDƏBBÜR*

Əslində Qur'anı tədəbbürsüz oxumağın elə bir dəyəri yoxdur. Çünki Qur'anın nazil olmasında məqsəd onun ayələrinə əməl olunmasıdır və mə'nalara diqqət, tədəbbür əmələ doğru müqəddimə və qapıdır. İmam Əli (ə) Qur'anda tədəbbürün əhəmiyyəti haqqında belə buyurur:

**"Bilin ki, tədəbbürsüz qiraətdə xeyir yoxdur"**[2]

*Ey bəsirət əhli, qalma xəbərsiz*
*Xeyir təkcə dildə oxunan deyil.*
*Dediyin sözləri düşünsən əgər,*
*Ey dost, müşkülün yox, bunu yaxşı bil.*

**İmam Sadiq (ə) tədəbbür istəyir:**

Qur'anda tədəbbürün nə dərəcədə əhəmiyyətli olması İmam Sadiqin (ə) tilavətdən qabaqkı duada Allahdan məhz tədəbbür istəməsindən mə'lum olur:

---

[1] "Usveye-arifan", səh. 25
[2] "Biharül-ənvar", c. 89, səh. 210

**“Pərvərdigara! Qiraətimi düşüncəsiz qiraət qərar vermə. Tövfiq ver ki, onun ayə və hökmlərini düşünüm, Sənin ayininin qanunlarına əməl edim.”[1]**

## *QUR’ANDA TƏDƏBBÜRÜN AÇARLARI*

İndi ki, Qur’anda tədəbbürün əhəmiyyətini anladıq, gəlin, Allahın yardımı ilə, onun açarlarını və yollarını araşdıraq.

1. **Tərcümə olunmuş Qur’andan istifadə**:

Ərəb dili ilə tanış olmayanlar ayələrin mə’nasını anlamaq üçün tərcüməli müshəfdən istifadə edə bilərlər. Çalışıb sadə, səlis, rəvan ifadəli tərcümələrə müraciət etmək lazımdır. Tərcüməli Qur’an əldə etdikdən sonra ayələrin mə’nasını iki üsulla izləmək olar:

**Birinci üsul:** Ərəbcə ayəni oxumazdan qabaq həmin ayənin tərcüməsini oxuyub, düşünün. Beləcə, qiraətin sonunadək uyğun üsula əməl edin.

**İkinci üsul:** Hər dəfə Qur’an oxumaq istədikdə oxuyacağınız səhifələri müəyyən edib, (məsələn, iki səhifə) qiraətə başlamazdan qabaq həmin hissənin tərcüməsini diqqətlə mütaliə edin. Həmin ayələrin maarif gülzarından dəstə bağladıqdan sonra qiraətə başlayın.

2. **“Tərtil” oxumaq:**

Tərtil oxumaq dedikdə Qur’an ayələrinin mə’nasında tədəbbürlə yanaşı düzgün və hesablı oxumaq nəzərdə tutulur. Allah kəlamını düşüncə və tədəbbürlə oxuma yolu “tərtil” adlanan aram və hesablı oxunuş üsuludur. Amma qiraət zamanı təlaşı yalnız surəni başa çatdırmaq olan, başqa heç nə haqqında düşünməyənlər də az deyil. Bu növ qiraətin o qədər də fəziləti yoxdur. Hətta İslam öncülləri bu işi xoşagəlməz saymışlar. İmam Əli (ə) buyurdu: Allah rəsulundan “vərəttilil-Qur’anə tərtila” (“Qur’anı tərtillə oxuyun”) ayəsi haqqında soruşulduqda Həzrət (ə) buyurdu:

“Qur’an ayələrini aydın oxu. Eləcə də mətnini sür’ətlə qiraət etmə. Onun e’cazları qarşısında dayanın, qəlblərinizi Qur’an

---

[1] Həmin mənbə

vasitəsi ilə sındırın və heç birinizin tələşı surənin sonuna çatmaq olmasın.”[1]

3. **Günahlardan uzaqlıq**: Qur’ani-kərim haqq kitabdır və bütün insanların hidayəti üçün nazil olmuşdur. Hidayət üçün şərtlərdən biri Qur’anı tədəbbürlə tilavət etməkdir. Amma günah səbəbindən bə’zilərinin qəlbi xəstələnir və Qur’anda tədəbbür tövfiqi onlara nəsib olmur. Allah-təala bu barədə buyurur:

**“Onlar Qur’anda tədəbbür etmirlərmi, ya qəlblərinə möhür vurulmuşdur?”**[2]

Dünyaya və günaha vurğunluq Qur’an ayələrinə diqqətə və onların mə’nasının düşünülməsinə maneədir. Günah qəlbə vurulmuş möhkəm bir qıfıldır. Eynən qıfılla bağlanan adi qapılar kimi. Qur’anın mə’nalarını dərk etmək yolunda mehriban Allah tərəfindən heç bir hicab, maneə yaradılmamışdır. Qəlb aynasını günah pasından təmizləmək lazımdır. Yalnız o vaxt Qur’ana baxmaqla dostun camalını görmək olar. Qur’an, onun ayələrinin mə’nası ilə ünsiyyət nəticəsində insanın qəlbi ilahi kəlamın cazibəsinə düşür.

*Sə'di, hicab yoxdur, gəl aynanı sil,*
*Sil, dostun camalın seyr etsin könül.*

**Sənayi Qəznəvi deyir**: Dünya əhli kimi fəsad və günaha düşən şəxs Qur’an əsrarına necə məhrəm olsun?! Qur’an əhli olmaq istəyirsənsə, əvvəlcə özünü paka çıxarmalısan.

*Fəsada, günaha bulaşmış halda*
*Qur'an əsrarına varmağın çətin.*
*Yalnız günah tozun yuyandan sonra*
*Qarilik və Qur'an olar qismətin.*

Rəhman və Rəhim Allahdan diləyirik ki, bütün müsəlmanlara, xüsusən Əhli-beyt (ə) ardıcıllarına qiraət və Qur’anda tədəbbür tövfiqi mərhəmət etsin. Eləcə də, onların yolundan Qur’anda tədəbbür maneələrini kənarlaşdırsın!

---

[1] “Kənzül-əmmal”, Əllamə Hindi, c. 2, səh. 205
[2] “Məhəmməd”, 24

## *ÖZÜNÜ SINAMA*

1. “Qur’anda tədəbbürün” mə’nasını bəyan edin.
2. “Bilin ki, tədəbbürsüz qiraətin xeyri yoxdur” cümləsindən hansı qənaətə gəlirsiniz?
3. Qur’anda tədəbbür açarlarının adlarını sadalayın.
4. Tərcüməli Qur’andan istifadə üsullarını izah edin.
5. Qur’anda tədəbbürün olmaması ilə günah arasında nə əlaqə var?

## ON ÜÇÜNCÜ QAYDA

### *TİLAVƏT ZAMANI DİNLƏMƏ VƏ SÜKUT*

Ayələri eşidərkən, onları dinləyərkən sükut etmək tilavət qaydalarından biridir. Qari Qur’an oxuyarkən və ya radiodan, maqnitafondan Qur’an yayımlanarkən bu qiraəti eşidənlər sükut edib, onu dinləsələr yaxşı olar. Qur’ani-kərimdə Allahın belə bir göstərişi çatdırılmışdır:

**“Qur’an oxunan zaman ona qulaq asın və sakit olun. Olsun ki, sizə rəhm oluna.”**[1]

*Aram dayan, dinlə Qur’an səsini,*
*Ruhuna süz onun xoş nəfəsini.*

Zikr olunan ayədə Allah-təala bizə iki şeyi əmr edir: dinləmək və sakit dayanmaq. Ona görə də Qur’an qiraəti zamanı dinləyicilər iki iş görməlidirlər: dinləməli və sakit olmalıdırlar.

### *“İSTİMA” (“DİNLƏMƏ”) VƏ “İNSAT”IN (“SÜKUT”) MƏ’NASI*

a) “İstima” mə’na və məfhuma diqqət yetirməklə eşitməkdir. Yə’ni qəlbin meyli ilə eşitmək. Bu cəhətdən, “istima”, təkcə eşitmək deyil.

b) “İnsab” ilahi buyuruğa diqətlə paralel sükutdur. Buna görə də Qur’an qiraəti zamanı ilahi ayələri kamil şəkildə dinləmək, sakit dayanmaq və bu halda tilavət olunan ayələrin mə’nasına diqqət yetirmək bütün müsəlmanlar üçün vəzifədir. Bu surətdə Allahın mərhəmətinə çatmaq olar.

*Dinlə, “ənsitu”nu*[2]*, sakit dayan sən,*
*Çünki haqqın əmrini dinləyirsən.*

**Mühüm yaddaş:** Bütün Qur’ansevərlərə bu nöqtəni xatırlatmaq zəruridir: Müşahidə olunur ki, bə’zi insanlar radio və ya maqnitafondan yayımlanan Qur’anı dinlədikləri halda,

---

[1] Quran “Əraf”, 204

[2] Ayədəki “sakit ol” əmrinə işarədir

bir-birləri ilə söhbət edirlər. Bə'zən də Qur'an məclisinin iştirakçıları qeyri-zəruri söhbətlərə məşğul olurlar. Bu sayaq hallar Qur'an ədəbinə ziddir. Uyğun hallarda iki işdən birini seçmək lazımdır: ya Qur'anı dinləməli, ya da başqa işlə məşğul olmalıyıq.

*Qulaq ver Qur'andan deyən bülbülə,*
*Ey ədəbsiz gülək, toxunma gülə.*

## *QUR'AN DİNLƏMƏYİN FƏZİLƏTİ*

Bə'zi ibadətlərdə ilahi yardım hamıya nəsib olmur. Çünki bə'ziləri həmin ibadətin böyük mükafatından xəbərsizdirlər. Bu ibadətlərin biri Qur'ani-kərimi dinləməkdir. Allah kəlamını dinləməyin fəziləti barədə nəql olunan bir rəvayətdə dördüncü imam həzrət Zeynəl-abidin (ə) buyurmuşdur: **"Allah kitabından özü qiraət etmədən bir hərf dinləyən şəxs üçün Allah bir savab yazar, onun bir günahını pozar və məqamını bir dərəcə yüksəldər."**[1]

İlahi ayələri təkcə dinləməyin belə savabı və mükafatı varsa, nə üçün bə'ziləri özlərini belə əcrdən məhrum edir və qəflətdə qalır?! Qur'an dinləmək heç bir zəhmət tələb etməməklə yanaşı, insanı sevincə qərq edən, onun ruhunu oxşayan bir ibadətdir.

Diqqət edin! Övlad evdə Qur'an oxuduqda, ata-ana namazdan sonra Qur'an qiraət etdikdə, məclislərdə və Qur'an dərslərində ilahi ayələr tilavət olunduqda həmin Qur'an ayələrini dinləyənlər eşitdikləri hər hərfə görə bir savab alır və onların bir günahı pozulur, mə'nəvi dərəcələri bir pillə yüksəlir. Əlbəttə, Allah kəlamının mə'nasına diqqət yetirməklə dinləmək lazımdır.

Qur'an dinləməyin fəziləti haqqında digər bir rəvayətdə İmam Əli (ə) buyurur: "İnsan üçün Qur'andan bir ayə dinləmək bir Səbirdən (Yəməndə böyük bir dağ) daha yaxşıdır."[2]

---

[1] "Üsule-kafi",
[2] "Biharül-ənvar", c. 89, səh. 20

## *QİRAƏT ZAMANI ZİKR DEMƏK VƏ TƏŞVİQ ETMƏK*

Adətən, tanınmış qarilərin qiraəti zamanı məclisdə olanlar "əllah", "əllahu əkbər", "la ilahə illəllah", "əlhəmdulillah", "sübhanəllah" kimi zikrlər deyirlər.

Bu zikrlər bir növ Qur'an qarisinin qiraətinə reaksiyadır və iki səbəbi var:

1. **Ayələrin dinləyiciyə tə'siri**: Qur'an tilavəti zamanı dinləyici elə tə'sirlənir ki, özündən asılı olmayaraq, oxunan ayəyə münasib zümzümə edir. Bu zümzümələr dinləyicinin oxunan ayələrin mə'na və mə'lumatına diqqətindən doğur.

2. **Tilavət xüsusiyyətləri**: Bə'zi vaxtlar Qur'an tilavət edən qarinin gözəl səs, fəsahət, qəmli oxumaq, ayələrin mə'nasına diqqət kimi xüsusi üstünlükləri olur və dinləyici bu xüsusiyyətlərin tə'siri altında Qur'an qarisini təşviq edir.

## *ZİKR DEMƏK VƏ DİNLƏMƏ ƏDƏBİ*

Məsələ bundadır ki, bu zikrlərin, təkbirlərin, təşviqlərin deyilişi dinləmə və sükut ədəbinə uyğun olmalıdır. Yə'ni dinləyici bu zikrləri Qur'an tilavətinin tə'sirindən desin və saxtalıq olmasın.

İkincisi, zikrlər uca fəryadla yox, orta səslə, vüqar və aramlıqla deyilsin. Əgər zikrlərin deyilişində bu xüsusiyyətlərə riayət olunmazsa, məclisdəkilərin halı pozular və onlar Qur'an ayələrindən lazımınca faydalana bilməzlər. Digər tərəfdən, dinləmə və sükut qaydalarına riayət olunmaması ilə Qur'ana hörmətsizlik göstərilmiş olar.

### *ÖZÜNÜ SINAMA*

1. Hansı ayə bizi Qur’an tilavəti zamanı dinləmə və sükuta də’vət edir?

2. Hansı işlər dinləmə və sükut ədəbinə ziddir?

3. Allah kəlamını dinləməyin savabını dördüncü imamın (ə) dilindən bəyan edin.

4. Zikr deyilməsi və qarinin təşviqi dinləmə ədəbinə zidd deyilmi?

## ON DÖRDÜNCÜ QAYDA

### *SƏCDƏ AYƏLƏRİNDƏ SƏCDƏ EDİLMƏSİ*

Qur’ani-kərimdə mövcud olan 15 ayə “səcdə ayəsi” adlanır. Qur’an oxuyan və ya dinləyən şəxsin bu ayələr oxunduqdan sonra səcdə etməsi layiqdir.

Bu on beş ayədən dördündə səcdə etmək vacibdir və onlar “əzaim”[1] adlandırılmışdır. Bu ayələri oxuduqda və ya eşitdikdə səcdə etmək vacibdir. Qalan on bir halda səcdə edilməsi müstəhəbdir və bu səcdələrə “müstəhəbb” və ya “məndubə” deyilir.[2]

### Qur’anın vacib səcdələri:

| Sıra | Surənin adı | Surənin nömrəsi | Ayənin nömrəsi |
|---|---|---|---|
| 1 | “Səcdə” | 32-ci | 15-ci |
| 2 | “Fussilət” | 41-ci | 37-ci |
| 3 | “Nəcm” | 53-cü | Son ayə |
| 4 | “Ələq” | 96-cı | Son ayə |

[1] “Əzaim” “əzimət”in cəmidir və lüğət mənası “əzm, iradədir”. Vacib səcdəsi olan ayələr oxunarkən və ya eşidilərkən səcdə məqsədi edilməlidir. Bu surələrin “əzaim” adlandırılmasının səbəbi odur ki, Allah bu yerlərdə səcdəni hökm (əzm) etmişdir.

[2] Yuxarıda deyilənlər şiə alimlərinin nəzəridir. Hənəfi-sünnilərə görə səcdə ayəsi 14-dür və “həcc” surəsinin 77-ci ayəsi səcdə ayəsi deyil. Maliki sünnilərə görə səcdə ayəsi 11, şafei-sünnilərə görə 14, Hənbəli-sünnilərə görə 14 (bəzən 15)-dir. Hənəfilərə görə bu ayələrdə səcdə vacibdir. Qalan üç məhzəb isə həmin ayələrdə səcdəni sünnə hesab edirlər.

## Qur’anın müstəhəbbi səcdələri:

| **Sıra** | **Surənin adı** | **Surənin nömrəsi** | **Ayənin nömrəsi** |
|---|---|---|---|
| **1** | **Ə’raf** | **7-ci** | **Son ayə** |
| **2** | **Rə’d** | **13-cü** | **15-ci** |
| **3** | **Nəhl** | **16-cı** | **49-50-ci** |
| **4** | **İsra** | **17-ci** | **109-cu** |
| **5** | **Məryəm** | **19-cu** | **58-ci** |
| **6** | **Həcc** | **22-ci** | **18-ci** |
| **7** | **Həcc** | **22-ci** | **77-ci** |
| **8** | **Fürqan** | **25-ci** | **60-cı** |
| **9** | **Nəml** | **27-ci** | **26-cı** |
| **10** | **Sad** | **38-ci** | **24-cü** |
| **11** | **İnşiqaq** | **84-cü** | **21-ci** |

### *SƏCDƏ AYƏLƏRİNİN HÖKMLƏRİ*

1. Qur’anın vacib səcdəli ayəsini oxuyan və ya eşidən hər bir şəxs ayə başa çatan kimi dərhal səcdə etməlidir.[1]
2. Bu səcdədə, yeməli və içməli şeylərdən başqa, yerdən göyərmiş şeylərə səcdə etmək, alını qoymaq olar.
3. Qur’anın vacib və müstəhəb səcdələrində üzü qibləyə dayanmaq, dəstəmazlı olmaq, alın yerinin, bədənin və libasın pak olması, ayıb yerin örtülməsi vacib deyil. Eləcə də, təkbirə, təşəhhüdə və salama ehtiyac yoxdur.
4. Vacib səcdəsi olan ayə maqnitafon, radio və televiziyadan (birbaşa, canlı yayımlanmırsa) eşidilsə, səcdə etmək vacib deyil. Amma radio, televiziya, səs gücləndirici kimi qurğulardan birbaşa yayımlanan səcdə ayəsini eşitdikdə səcdə etmək vacibdir.
5. Vacib səcdə edən şəxs səcdə niyyəti ilə alnını yerə qoysa, zikr deməsə də, kifayətdir. Zikr demək müstəhəbdir və istənilən bir zikr deyilə bilər. Amma Əmirəl-mö’minin Əli ibn Əbi-Talibdən (ə) nəql olunmuş aşağıdakı zikri demək daha yaxşıdır: **(Ərəbi mətndən sonra)**

[1] Səcdə ayəsini yalnız tam oxuduqda və ya eşitdikdə səcdə vacib olur.

**“Həqiqətən, Allahdan başqa mə’bud yoxdur. Mən Onun birliyinə inanır və təsdiq edirəm, bəndəlik üzündən Onun birliyini e’tiraf edirəm. Pərvərdigara, bəndəlik üzündən qarşında səcdəyə düşür, Sənin bəndən olmaqda təkəbbür və asiliyim yoxdur. Zəliləm, qorxudayam və Sənə sığınmış bir kəsəm.”**[1]

## *SƏCDƏ AYƏLƏRİNİN OXUNMAMASININ MƏZƏMMƏTİ*

Səcdəli ayələr üçün ediləsi səcdənin asanlığını nəzərə alaraq, Qur’an qiraəti zamanı səcdəli ayələrə çatdıqda həmin ayələri oxuyub səcdə etmək bəyənilmişdir. Bə’zi Qur’an məclislərində səcdəli ayələrə çatdıqda onları oxumamaq qaydaya çevrilib. Bu xoşagəlməz və yanlış ən’ənədir. Bizim tövsiyyəmiz budur ki, Qur’an oxuyanlar səcdəli ayələrə çatdıqda hökmən səcdə etsinlər. Səcdə hökmlərində danışdığımız kimi, müqəddəs dinimizdə bu səcdənin icra şərtləri olduqca asandır. Səcdə ayələri nazil olmuşdur ki, onlar da digər ayələr kimi oxunulsun və Allahı xatırlamaqla, Onun üçün səcdə edilsin.

## *BƏNDƏNİN ALLAHA ƏN YAXIN HALI*

Bilirsinizmi, Allaha səcdə ən böyük ibadətlərdən biridir? Hədisdə bildirilir: **“Allaha olunan ibadətlər arasında səcdə kimisi yoxdur”**[2] Yenə də nəql olunur: **“Bəndənin Allaha ən yaxın halı onun səcdədə olduğu vaxtdır.”**[3]

Heyf deyilmi ki, səcdə ayəsini oxumayıb, mehriban Allah qarşısında səcdə etməməklə bu böyük ibadətdən məhrum olaq?! Buna görə də tə’kid olunur ki, möhtərəm Qur’an ustadları Qur’an məclisləri və dərslərində bu məsələyə diqqətlə yanaşıb, təlaş etsinlər. İstər müstəhəb, istər vacib səcdəli ayələr oxunsun və iştirakçılar səcdə etsinlər.

Kərim Allahdan diləyirik ki, bütün müsəlmanları və Qur’an tilavət edənləri həqiqi rüku edib, səcdə qılanlardan qərar versin.

---

[1] Geniş məlumat üçün bax: “Tövzihil-məsaile-mərace”, c. 1, səh. 615
[2] “Təhrirül-vəsilə”, İmam Rahil (r), c. 1, səh. 161
[3] Həmin mənbə, səh. 250

## *ÖZÜNÜ SINAMA*

1. Vacib səcdəsi olan ayələrin sayını ayrıca bildirin.
2. Qur’anın vacib səcdələri hansı surələrdə yerləşir?
3. Səcdə ayələrinin hökmlərinin üçüncü bəndini izah edin.
4. Səcdə ayələrinin səcdəsində zikr demək vacibdirmi?
5. Nə üçün səcdə ayələrini oxumamaq bəyənilmir?

## ON BEŞİNCİ QAYDA

### *QUR’AN XƏTMİ*

“Xətmin” lüğət mə’nası hər bir şeyin sonuna çatmaqdır. İslamda Qur’anın xətmi onu ilk “Fatihə” surəsindən başlayıb, son “Nas” surəsinədək qiraət etməkdən ibarətdir.

“Qur’an xətmi” adı ilkin İslam dövründən müsəlmanlara tanış idi. Girami İslam Peyğəmbərinin (s) səhabələri Qur’anın necə xətm olması, onun xətmi üçün ən qısa vaxtın qədəri haqqında həzrətə (s) suallar verər və cavab alardılar.[1]

### *QUR’AN XƏTMİ ƏN ÜSTÜN ƏMƏLLƏRDƏNDİR*

Qur’an qiraəti ilə tanış olan çox insanlar gündəlik bir miqdar Qur’an oxuyur, ya ən azı həftədə bir neçə dəfə öz vaxtlarının bir hissəsini Qur’an tilavətinə həsr edirlər. Onlar, adətən, Qur’anın müxtəlif yerlərindən tilavət edirlər. Əziz Qur’ansevər dostlara təklifimiz budur ki, tilavətə Qur’anın əvvəlindən başlayıb, Qur’an xətminə müvəffəq olmaq üçün tərtiblə oxusunlar. Bu halda bir əməllə iki mükafat əldə edirlər: Qur’an qiraəti üçün mükafat və Qur’an xətmi üçün mükafat. Böyük İslam öncülləri Qur’an xətmini ən üstün ibadətlərdən saymışlar. Zuhəri adlı bir şəxs İmam Səccaddan soruşur ki, ibadətlər arasında hansı əməlin fəziləti çoxdur? İmam buyurur: “Murtəhil əməli.” Soruşulur ki, murtəhil əməli nədir? Həzrət (ə) buyurur: “Qur’an oxumağa başlaya və sona çatdıra. Nə vaxt Qur’anın əvvəlindən başladısa, sona çatdırsın.”[2]

### *QUR’AN XƏTM EDƏNİN QƏBUL OLMUŞ DUASI*

İmam Sadiq (ə) nəql edir ki, böyük İslam Peyğəmbəri (s) buyurdu: “Başlayıb xətm edən kəs ki, Qur’anı aça və onu xətm edə, Allah yanında bir duası qəbuldur.”[3]

### *MƏKKƏDƏ QUR’AN XƏTMİNİN FƏZİLƏTİ*

Məkkə, Allah evini ziyarət (həcc) səfərində çox sifariş olunmuş əməllərdən biri Qur’ani-kərimin xətmidir. Ey kaş,

---

[1] “Quran və Quran araşdırma diplomu”, c. 1, səh. 980

[2] “Biharül-ənvar”, c. 89, səh. 204

[3] “Biharül-ənvar”, c. 89, səh. 205

Məkkeye-müəzzəməyə, Beytüllahil-həram ziyarətinə qədəm qoyan bütün insanlar bu səfərin və onun ləhzələrinin qədrini biləydilər və küçələrdə gəzmək, bazarda dolaşmaq, həddi aşan alver əvəzinə öz axirətləri üçün azuqə toplayaydılar.

Bu barədə bir rəvayət nəql etməklə kifayətlənirik. Şiələrin beşinci imamı həzrət Məhəmməd-Baqir (ə) buyurur: "Məkkədə Qur'an xətm edən kəs Allahın rəsulunu (s) və behiştdə öz yerini görməmiş ölməz."[1]

İlahi səbəb və hədəflə Allah evinin ziyarətinə gedənlər Məkkeye-müəzzəmədə ən azı bir dəfə Qur'ani-kərimi xətm etsələr, yaxşı olar.

Pərvərdigara! Öz evinin ziyarətini, onun əməllərinin icrasını bütün müsəlmanlara nəsib et. Bizi o kəslərdən qərar ver ki, Sənin evinin dövrəsində nuraniyyət kəlamı Qur'anı əvvəldən axıradək oxuyub, elə dünyadaca Sənin Peyğəmbərinin gözəl camalını görməyə nail olmuşlar. Hamımızı behişt və rizvan əhli buyur və bizə tövfiq ver ki, öz axirət yerimizi dünyadaca görək. Amin, ya Rəbbəl-aləmin!

## *QUR'AN XƏTMİNİN SAVABININ HƏDİYYƏ OLUNMASI*

İnsanın yerinə yetirdiyi ibadətlər iki növdür: vacib və müstəhəb. Vacib əməllərin icrası hər bir yetkin insan üçün vacibdir. Amma müstəhəb əməllərin icrası insanın özündən asılıdır. Yə'ni müstəhəb əməlləri icra edən kəs onun savabından bəhrələnir və mə'nəvi cəhətdən üstün dərəcələrə çatır. Bu əməlləri yerinə yetirməyə müvəffəq olmadıqda isə ondan heç nə tələb olunmur.

Bə'ziləri müstəhəb əməlləri yerinə yetirərkən yalnız özləri barədə düşünür, məqsədləri savab əldə etmək olur. Amma gələcəyi düşünən insan olsaq, müstəhəb əməllərdən iki cür əvəz ala bilərik. Belə ki, bu əməlləri peyğəmbərlər, mə'sum imamlar, ata-ana, ustad və müəllimlər, yaxın adamlar kimi boynumuzda haqqı olan şəxslərə hədiyyə etməklə həm onların haqqını müəyyən qədər yerinə yetirər, həm də daha artıq mükafat əldə edərik.

[1] Həmin mənbə

Bundan əlavə, Qur’an qiraətinin savabının din rəhbərlərinə hədiyyə edilməsi ruhu qüvvətləndirir. Böyük arif Mirzə Cavad ağa Mələki Təbrizi bu barədə yazır: “(İnsanın ruhunu qüvvətləndirən şeylərdən) biri də həzrət Peyğəmbərə (s) hədiyyə məqsədi ilə oxunmuş Qur’andır.”[1]

İl boyu və ya mübarək ramazan ayında Qur’anı bir neçə dəfə xətm etməyə müvəffəq olanlar, tövfiq tapanlar bu savabı boyunlarında haqqı olan İslam Peyğəmbəri (s), imamlar (ə) və ata-ana kimi şəxslərə hədiyyə etsələr, münasib olar.

Əli ibn Müğəyrə adlı bir şəxs imam Musa ibn Cə’fərə (ə) belə ərz edir: “Ramazan ayında Qur’anı bir neçə dəfə xətm edirəm. Fitr bayramı günü ki gəlib çatır, onlardan birini Peyğəmbərə (s), birini Əliyə (ə), birini Fatiməyə (ə) və qalanlarını sizə çatanadək digər imamlara hədiyyə edirəm. Bu əmələ görə mükafatım nədir?” İmam buyurur: “Sənin mükafatın odur ki, qiyamət günü həmin şəxsiyyətlərlə olacaqsan.” Müğəyrə ərz edir: “Əllahu əkbər! Belə bir mükafat mənim üçündür?” Həzrət üç dəfə buyurur: “Bəli.”[2]

## *QUR’AN XƏTMİNİN ŞİVƏSİ HAQQINDA*

Qur’an xətminin şivəsi və necəliyi haqqında bu mə’lumatları bilmək faydalıdır:

**Xətm üçün ən qısa zaman**: Bu barədə girami Peyğəmbərdən (s) və imamlardan (ə) nəql olunmuş çoxsaylı rəvayətlər vardır. Çoxsaylı rəvayətlərə görə Qur’anın kamil xətmi üçün ən qısa müddət üç gündür.

**Xətm üçün ən yaxşı sayılan günlər**: Ərəfə günləri, cümə, bazar ertəsi və cümə axşamı.

**Ən yaxşı ongünlüklər**: Ramazan ayının sonu və zil-hiccənin ilk ongünlüyü.

**Ən yaxşı aylar**: Mübarək ramazan ayı”[3]

---

[1] “Mərifət səmasında”, səh. 109

[2] “Biharül-ənvar”, c. 95, səh. 5

[3] Quran və Quranaraşdırma diplomu”, c. 1, səh. 980

## *ÖZÜNÜ SINAMA*

1. İslam anlamında “Qur’an xətmi” nə mə’na daşıyır?
2. Qur’an xətmində bir əməl üçün neçə mükafat var?
3. Məkkədə Qur’an xətminin mükafatını bəyan edin.
4. Qur’an xətminin savabını kimlərə hədiyyə edək?
5. Qur’an xətmi üçün ən yaxşı günlər, ongünlüklər, aylar hansıdır?

## ON ALTINCI QAYDA

### *QUR'ANIN HİFZİ (ƏZBƏRLƏNMƏSİ)*

Dini rəhbərlərin söhbətlərində Qur'an hifzinin xüsusi yeri vardır. Belə ki, İmam Sadiq (ə) dua məqamında Allahdan diləyir ki, Qur'an hifzini ona sevdirsin: **"Pərvərdigara! Qur'anı gözəl tilavət etməyi və onun ayələrinin hifzini bizə məhbub et."**[1]

### *HİFZİN GENİŞLƏNMƏSİ*

İslam inqilabının bərəkətindən İran xalqına nəsib olmuş ne'mətlərdən biri xalqın müxtəlif zümrələri arasında Qur'an hifzinin genişlənməsi olmuşdur. İnqilabdan əvvəl şiələr arasında Qur'anın tam hafizləri barmaq sayından da az idi. İslam respublikası qurulduqdan sonra və axır illərdə xüsusi ilə uşaqlar, yeniyetmə və gənclər arasında Qur'an hifzinə meyl diqqəti çox cəlb edir. İranın bütün nöqtələrində hifz üçün mərkəzlər tə'sis olunmuşdur, müqəddəs Qur'ani-kərimə münasibətdə böyük işlər görülməkdədir.

Bu ardıcıl və xalisanə zəhmət sayəsində Allah kəlamının hifzinə məşğul minlərlə Qur'an aşiqinin təlaşına şahidik. Bəlkə də sizə təəccüblü görünər ki, bə'zi şəhərlərdə minlərlə insan Qur'an hifzinə məşğuldur.

Bu Qur'an aşiqləri arasında İslam dünyasında misli olmayan layiqli hafizlər vardır. Qur'anı ayə və səhifə nömrəsi, mə'nası, nazil olma səbəbi, təfsiri ilə əzbər bilən uşaqlar və yeniyetmələr tapmaq çətin deyil. Qur'an sanki onların ətinə, iliyinə, canlarına hopmuşdur. Onların vücudlarında, qəlb aynalarında Allah kəlamından başqa bir şey yoxdur.

*Qəlbimdə yarımın əlif qaməti,*
*Ustad öyrətməmiş başqa söhbəti.*

Bu elmi cihadın bütün məs'ullarının təlaşına görə hamının təşəkkür edib, böyük Allahdan onlar üçün bol əcr və mükafat diləməsinin yeri var.

---

[1] "Üsule-kafi", c. 2. səh. 417

## *QUR’AN HİFZİNİN ZƏRURİLİYİ*

Amma bütün bu cəhd və təlaşlara baxmayaraq, hələ ki ölkəmizdə Qur’an hifzi lazımı həddə çatmamışdır. Qur’an düşüncəsi və maarifinin genişlənməsi, İslam düşmənlərinin düşüncə hücumları ilə mübarizə yollarından biri Qur’an proqramlarına münasibətdə təlaş, xüsusi ilə, Qur’an hifzidir.

## *MƏDƏNİYYƏT MƏS’ULLARININ VƏZİFƏSİ*

İslam cəmiyyətinin mədəniyyəti və gənclərin taleyinə görə narahat olanlar, yə’ni mədəniyyət məs’ulları münasib proqramlar, maddi və mə’nəvi yardımlarla Qur’anın hifzi üçün əlverişli şərait yaratmalıdırlar. Qur’an hafizlərini dəyərləndirməklə bu işlə maraqlananlar təşviq olunmalıdır.

## *DİN RƏHBƏRLƏRİ VƏ QUR’ANIN HİFZİ*

Olsun ki, Qur’an hifzinin yeri və dəyəri bə’zi məs’ullar üçün qaranlıqdır. Qur’an hifzinin dini agahlığa və mə’rifətə dərin tə’siri bə’ziləri üçün aydın olmaya da bilər. Bu məqsədlə uyğun mövzunu din öncülləri və hikmət sahiblərinin baxışı ilə nəzərdən keçirməyimiz daha yaxşı olar:

**Allah Rəsulu (s):** Qur’an hifzinin əhəmiyyəti və dəyəri haqqında həzrət Peyğəmbərdən (s) nəql olunmuş rəvayətlərdən ikisi ilə kifayətlənirik. İslam Peyğəmbəri (s) buyurur: **“Qur’anı hifzdən oxuyub, sonra Allahın onu bağışlamayacağını güman edən şəxs Allah ayələrini məsxərəyə qoyan şəxslər kimidir.”**[1]

Allah rəsulu (s) behiştdə hafizin dərəcələri haqqında buyurdu:

“Behişt dərəcələrinin sayı Qur’an ayələrinin sayı qədərdir. Qur’an daşıyıcısı behiştə daxil olan zaman ona deyilər: “Yuxarı qalx və oxu, çünki hər ayə üçün bir dərəcə vardır.” Buna görə də Qur’an hafizindən yuxarı bir dərəcə yoxdur.”[2]

Hər bir müsəlmanın arzusu behiştə yol tapmaqdır. Behiştinsə Qur’ani-kərim ayələri sayında dərəcələri var. Qur’an daşıyıcısı olanlara behiştdə deyilər: “Yuxarı qalx və oxu”. Dünyada

---

[1] “Mustədrəkəl-vəsail”, c. 4, səh. 269. rəv. 46-69

[2] “Biharül-ənvar”, c. 89, səh. 22

Qur’an tilavəti sayəsində haqqın kəlamı vücuduna hopmuş, ona əməl etmək nəticəsində “Qur’an sahibi” məqamına yetişmiş Qur’an hafizinə behiştə daxil olarkən deyilər: **“Oxu və yuxarı qalx”.** O, dodaqlarını tərpədib Qur’an ayələrini zümzümə edər və tərəqqi, kamal pillələrini bir-bir qalxar - düz Qur’an ayələrinin sayı qədər!

*Axtarsan ilahi rəhmət açarın,*
*Gəl ki, axtardığın açar burdadır.*
*Həyat suyu gəzən Xızra söyləyin*
*Suyu bəqa olan axar burdadır.*

**İmam Sadiq (ə):** Altıncı mə’sum imam həzrət Sadiq (ə) Qur’an hafizlərini ilahi vəhy səfirlərinə yoldaş bilir: “Qur’ana əməl edən hafiz böyük və xeyirxah ilahi səfirlərlə olacaq.”[1]

Hansı ne’mət Allah səfirləri ilə yoldaşlıqdan üstün və ləzzətli ola bilər?! Xoş o kəslərin halına ki, Qur’an hafizidirlər və oxuduqlarına əməl edirlər.

**Hafizin əziyyətinə mükafat**: Bir çoxları Qur’anı hifz etmək istəsələr də, onlara elə gəlir ki, bu iş çətin və məşəqqətlidir. Ya da hafizələrini, yaddaşlarını zəif bilir, buna görə də Qur’an hifzini özləri üçün problemə çevirirlər. İmam Sadiq (ə) belə insanlara iki mükafat və’d edir: **“Qur’anla məşğul olub, onu məşəqqətlə və zəif yaddaşla hifz edən şəxs üçün iki mükafat var.”**[2]

Bu mükafatlardan biri Qur’anın hifzi, ikincisi başqaları ilə müqayisədə hafizə zəifliyinə görə çəkilən artıq əziyyət müqabilində verilir.

**İmam Əli (ə):** Hifz olunanları unutmamaq üçün dua: Qur’an hifzi o qədər əhəmiyyətlidir ki, din öncülləri onun bütün incəliklərini açıqlamışlar. Onlardan biri hifz olunanları unutmamaq üçün Əmirəl-mö’minin Əlinin (ə) nəql etdiyi duadır. Çünki hafizlərin problemlərindən biri əzbərləmiş ayələri unutma təhlükəsindən qorunmaqdır.

[1] “Üsule-kafi”, c. 2, səh. 441
[2] “Üsule-kafi”, c. 2, səh. 443, 444

İmam (ə) nəql etmişdir: Allahın rəsulu (s) mənə buyurdu: "İstəyirsənmi, sənə bir dua öyrədim Qur'anı unutmayasan?" Sonra Həzrət bu duanı oxudu:

**"Pərvərdigara! Nə qədər ki diriyəm, Sənə itaətsizliyi tərk etməklə mənə rəhm et; karıma gəlməyən işlər üçün əziyyət çəkməkdən "uzaqlaşdırmaqla" mənə rəhm et; Səni məndən razı edəcək şeylərdə mənə cazibədarlıq ruzi et, qəlbimi kitabının hifzinə vadar et, necə ki mənə öyrətdin; onu Sənin xoşuna gələcək şəkildə oxumağı mənə ruzi et.**

**Pərvərdigara! Öz Qur'anınla gözlərimi işıqlandır, Qur'an vasitəsi ilə sinəmi aç, qəlbimi şad et, dilimi aç, bədənimi onunla işə sal, onunla məni qüvvətləndir, mənə Qur'anla yardım et, çünki onda Səndən başqa yardımçı yoxdur, Səndən qeyrisi pərəstişə layiq deyil."[1]**

## *MÜDRİK ALİMLƏR VƏ QUR'AN HİFZİ*

Söhbətimizin bu hissəsini tanınmış Qur'anşünaslara həsr etmişik. Olsun ki, onların kəlamı işığında siz də Qur'an hifzi aşiqləri cərgəsinə qatılasınız və Qur'an hafizləri dairəsinə daxil olasınız.

**Ayətullahül-uzma Xamenei**: "Qardaşlar! Nə üçün Qur'anı hifz etmirsiniz? Axı gəncsiniz. Vallah, dəfələrlə özlüyümdə

[1] "Üsule-kafi", c. 2, səh. 420

düşünüb demişəm ki, mümkün olsaydı, bütün olanlarımı verib, Qur’an hifzini alardım. Əfsus ki, bu iş mümkün deyil. Bu yaşda artıq Qur’anı əzbərləyə bilmirəm. Amma siz cavansınız, körpəsiniz və Qur’anı hifz edə bilərsiniz. Sizin yaddaşınız cavanlıq yaddaşıdır. Həmd olsun Allaha, bizim əksər qarilərimizin yaşı iyirmi beş, otuz, otuzdan aşağı yaşlar. Qur’an hifzi yaşıdır. Allah kəlamını, ilahi ayələri hifz edin və hifzdən oxuyun.”[1]

**Şəhid Sani:** (Dini elm tələbələrinə müraciətlə deyir) “Şagirdin təhsilə başlamazdan qabaq başlamalı olduğu birinci və ən mühüm iş Allah-təalanın kitabının hifzinə başlamaqdır, Qur’anı güclü şəkildə hifz etməkdir. Çünki Qur’an bütün elmlərin, onların ən əhəmiyyətlilərinin əsasıdır. Qədim alimlər hədis və fiqhi Qur’an hafizlərinə öyrədərdilər.”[2]

**Əllamə Həsənzadə Amuli**: “Lap əvvəldən şairlərin divanına, şe’rlərinə böyük məhəbbətim vardı... Ey kaş, həmin vaxtlar deyən olaydı ki, bunları əzbərləməkdənsə, Qur’anı əzbərlə. İndi də təəssüf edirəm ki, kaş şe’r divanlarını əzbərləməyə sərf etdiyimi Qur’an hifzinə sərf edəydim.”[3]

**Ayətullah Məkarim Şirazi**: “Peyğəmbər dövründə fərdlərin şəxsiyyəti daha çox onların Qur’an ayələrini nə qədər əzbər bilməsi ilə tanınardı. Qur’an hifzi bir sünnə və böyük ibadət kimi həmişə müsəlmanlar arasında olmuş və olmaqdadır... Bir sözlə, Qur’an hifzi sünnəsi Peyğəmbər (s) əsrindən başlayaraq, bir çox rəvayətlərdə nəql olunduğu kimi, həzrətin (s) göstərişi və tə’kidi ilə bütün əsrlərdə davam etmişdir.”[4]

**Əllamə Seyyid Cə’fər Mürtəza Amuli**: “Əmirəl-mö’minin (ə) xalqı Qur’an hifzinə təşviq etmək üçün beytül-maldan pay ayırmışdı.”[5]

**Ayətullah Xəz’əli**: “...Ən yaxşısı, hafizəmizdə, batinimizdə bu əziz qonağı qarşılayaq, bircə sə’y və təlaşla Qur’an hafizi olaq. Hamımız Qur’an hafizi olaq, xüsusi ilə bəhrəli gənc nəsil. İnsan nəslinin bu xürrəm qönçələri bu çətin dövrdə yırtıcıların,

---

[1] “Hədise-vilayət”, Məcmueye-rəhnomudha..., c. 7, səh. 35
[2] “Munyətul-murid...” Şəhid Sani, səh. 263
[3] “Mirase-mandeqar” Keyhane-fərhəngi, c. 1, səh. 63
[4] “Təfsire-nümunə”, c. 11, səh. 22-24
[5] “Qurani-kərim haqqında yeni araşdırma”, səh. 259

özündən və Allahdan bixəbərlərin əqidə hücumlarına mə'ruz qalmışlar."[1]

## *MƏŞHUR HAFİZLƏRİN VƏZİFƏLƏRİ*

Əziz Qur'an hafizlərinin və bu fənn ustadlarının Qur'an hifzinin əhəmiyyətini və dəyərini nəzərə alaraq, hifz mərkəzləri və mədrəsələri təşkil etməklə Qur'ani-kərim hafizləri tərbiyəsində çalışmaları lazımdır. Bu Qur'an cihadında dəqiq proqramlar tərtibini, yeni elmi tapıntıları, böyük hafizlərin təcrübəsini nəzərdən qaçırmaq olmaz.

Eləcə də, maddi imkanlı müsəlmanlar və mö'minlər bu işdə hafizlərin və Qur'an müəssisələrinin yardımçısı olsunlar.

## *QUR'AN HİFZİ MÜMKÜN DEYİL*

İlahi yardımdan faydalanan insan istənilən yaşda olmasına, yaddaş zəifliyinə baxmayaraq, Qur'anı hifz edə bilər.

*Allahdan kömək al atanda addım,*
*Əlin boşda qalar etməsə yardım.*

İnsanların iste'dadı, yaddaşı, hifz qabiliyyəti fərqlidir və bu xüsusiyyətlərin rolu tez və ya gec hifz etməkdə üzə çıxır. Mühüm budur ki, kimsə bu işi özü üçün mümkünsüz saymamalıdır. Uşaq yaşlarında Qur'anı əzbərləyənlər və ahıl yaşda bu işə müvəffəq olanlar çoxdur.

Qur'an hifzi heç vaxt gec olmasa da, bu işin uşaqlıqda görülməsinin nəticəsi daha çoxdur. Bu yaşda hifz daha asan və qalarlı olur. Çünki həmin dövrdə zehnin hazırlığı daha güclüdür və insan ruhi problemlərlə daha az üzləşir.

[1] "Quranı necə hifz edək!", Şəhriyar Pərhizkar, səh. 11

## *ÖZÜNÜ SINAMA*

1. İranda Qur’an hifzinə maraq nə vaxtdan güclənməyə başlayıb?

2. Mədəniyyət məs’ullarının Qur’an hafizinə münasibətdə hansı vəzifələri var?

3. Behişt mənzilinin və dərəcəsinin tə’yinində ölçü nədir?

4. Yaddaşı zəif olduğu halda Qur’an əzbərləyənin neçə mükafatı var?

5. Müəzzəm rəhbərlik məqamının Qur’an hifzi barədə qarilərə tövsiyyəsini bəyan edin.

6. Məşhur Qur’an hafizlərinin vəzifəsi nədir?

7. Qur’an hifzi mümkünsüz ola bilərmi?

## ON YEDDİNCİ QAYDA

### *QUR'ANIN UCA TUTULMASI VƏ ONA EHTİRAM*

Qur'anın uca tutulması və ona ehtiramın qorunması ünvanı ilə bəyan olunan məsələlər Qur'anın zahiri ehtiramı ilə bağlı xatırlatmalara şamildir. Bu məsələlərə riayət edilməsi Qur'anın məqamının dərk olunması ilə nəticələnir. Bu cəhətdən tövsiyyəmiz budur ki, Qur'anla bağlı uyğun məsələlərə riayət edilməsi nəzərdə saxlanılsın.

### *QUR'ANIN MÜNASİB YERLƏRDƏ SAXLANILMASI*

Qur'ana ehtiramın təzahürlərindən biri ona hörmətsizliyə səbəb olmayacaq tərzdə saxlanılmasıdır. Bu barədə bə'zi nöqtələrə riayət etmək tövsiyyə olunur:

a) Qur'anı cildləmək. Bu halda Qur'an istifadə zamanı çirklənməz. Xüsusi ilə məscidlərdə, müqəddəs yerlərdə, ziyarətgahlarda bu iş görülməlidir. Bə'zi məscidlərdə və ziyarət yerlərində biganəlik ucbatından Qur'anlar və dini kitablar sıradan çıxmaq üzrədir. Bu məkanlardakı cavabdeh şəxslər həmin kitabları səliqəyə salmaqla, Allah kitabına qarşı hörmətsizliyin qarşısını almalıdırlar ki, milli sərmayələrdən daha çox bəhrə götürülsün.

b) Qur'anın, Allah eləməmiş, uşaqların əlində oyuncağa çevrilməməsi üçün onu uşaq əli çatmayan bir yerə qoymalı, uşaqların Qur'anı o tərəf-bu tərəfə atmasının qarşısını almalı. Ona görə də Qur'andan istifadə etmədiyiniz vaxt onu münasib və hündür bir yerə qoyun.

Əllamə Təbatəbainin şagirdlərindən biri nəql edir ki, Əllamə otağa daxil olanda Qur'anı yerdə görsəydi, əvvəlcə onu götürüb, hörmətlə taxçaya, hündür bir yerə qoyar, sonra əyləşib söhbət edərdi.

v) Qur'anı qoyduğunuz yer şərafət və təmizlik cəhətdən münasib olsun. Məsələn, mənzil kitabxanası. Əgər mənzildə kitabxana yoxdursa, kiçik taxça düzəldib, Qur'anı oraya qoyun.

q) Qur'anın üzərinə nə kitab, nə də başqa bir şey qoymayın.

**Qur'an hüzurunda ədəbli oturmaq:**

Bə'zi Qur'an məclislərində fərdlərin ədəbli, ehtiramlı halda oturmadığı müşahidə olunur. Məsələn, Qur'anı yerə qoyub,

ona baxırlar. Kimi Qur'an hüzurunda ayaqlarını uzadır, kimi təsbehlə, üz-gözü ilə oynayır, kimi öz oturuşu ilə Qur'ana qarşı hörmətsizliyə səbəb olur.

## *QUR'ANŞÜNAS ALİMLƏRİN XÜSUSİYYƏTİ*

Bu yerdə qələmin ixtiyarını Qur'anşünas alimlərə verməyi və onların buyuruqlarından çələng bağlamağı münasib bildik.

Mövla Möhsin Feyz Kaşani bu barədə yazır:

"Qur'an qarisi öz çöhrəsində münasib ədəbi hifz etməlidir... Tilavət zamanı üzü qibləyə olub, başı aşağı salmaq yaxşıdır. Dizi üstə oturmalı, bir yerə söykənməməli və oturuşu təkəbbür əhlinə xas olmamalıdır. Tənha oturduqda elə fərz etməlidir ki, öz ustadının qarşısında oturmuşdur."[1]

Ayətullah ağa Məhəmməd-Təqi Amili nəql edir:

Soyuq bir qış günü irfan ustadı mərhum Ağa Qazidən soruşdum:

"Biz oxuyuruq və eşidirik ki, bə'ziləri Qur'an qiraəti zamanı varlıq üfüqlərini seyr edir, aləmin qeyb və əsrarı onlara təcəlla olur. Hansı ki, biz Qur'an oxuyuruq və belə bir əsər görmürük." Mərhum Qazi bir anlıq mənə nəzər salıb buyurdu: "Bəli! Onlar Qur'ani-kərimi öz şəraitində tilavət edirlər, üzü qibləyə otururlar...Allah kəlamını (Qur'anı) iki əlləri ilə qaldırır, tilavət etdiklərinə bütün vücudları ilə diqqət yetirir və kimin qarşısında durduqlarını dərk edirlər! Amma sən Qur'anı çənənədək kürsünün altına getmiş halda oxuyur və onu yerə qoyub baxırsan!"[2]

Qədim dövrdən riayət olunan çox yaxşı bir sünnə Qur'anın altına rəhil qoyulmasıdır. Bu çox yaxşı işdir. Qur'an tilavəti ilə daimi məşğul olanların evdə də rəhili olsa yaxşıdır. Bu yolla həm Qur'anın ehtiramı hifz olar, həm də övladlara Qur'ana hörmət əməli şəkildə tə'lim olunar.

**Qibləyə doğru:**

Qur'an qiraəti zamanı yaxşı olar ki, insan üzü qibləyə, Allah evinə doğru otursun, necə ki, namazda üzüqibləyə dayanırıq. Qiraət zamanı üzüqibləyə oturmaq insanın fikrinin

---

[1] "Muhəccətul-bəyza", c. 2, səh. 219

[2] "Usveye-ürfan", səh. 25

təmərküzləşməsinə səbəb olur, Qur’an qarisinə böyük tə’sir göstərir.

Oturmuş və ya ayaqüstü halda Qur’an oxuyan insan, təbii ki, üzünü hansısa bir coğrafi cəhətə tutmalıdır. Amma yaxşı olar ki, üz dünyanın ən müqəddəs nöqtəsinə çevrilsin. Allah müsəlmanlara göstəriş vermişdir ki, namaz və digər ibadətlər zamanı üzüqibləyə, Kə’bəyə doğru dayansınlar.

*Məscidül-hərama döndər üzünü,*
*Layiq olan qiblə Kə'bə evidir.*
*Ey mö'minlər, harda olursuz olun,*
*Kə'bəyə üz tutun, sevgi həbidir.*

Məsələnin rəmzi budur ki, insan üzünü qibləyə döndərdiyi vaxt düşüncəsi, qəlbi Allahdan savay bütün şeylərdən çəkilir. Qəlbdə dost eşqi baş qaldırır, insan bəsirət gözü ilə Allahın böyüklüyünə nəzər salır, Onun qarşısında duracağı günü xatırlayır, əməllərinə görə cavab verməli olacağını düşünür. Buna görə də Qur’an tilavəti zamanı üzüqibləyə olmaq ilahi ayələrin qarinin qəlbinə və canına daha çox tə’sir etməsinə səbəb olur.

## *QUR’AN QİRAƏTİNİN TƏRK OLUNMAMASI*

Hər bir müsəlmanın evində tapılası şeylərdən biri səmavi kitab Qur’andır. Bu kitab insanların həyat və hidayət proqramıdır. Hər bir müsəlman ailəsi kömək almaq, bərəkət və təbərrük üçün evdə ən azı bir Qur’an saxlayır. Evdə Qur’an saxlamağın bir çox faydaları vardır ki, bu faydalardan da biri şeytanın evdən kənarlaşdırılmasıdır. Amma diqqətli olmaq lazımdır ki, Qur’an oxumaq yaddan çıxmasın. Çünki Qur’anı bağlı saxlayıb oxumamaq bu müqəddəs kitaba qarşı hörmətsizlikdir.

Altıncı imam həzrət Sadiq (ə) imam Məhəmməd-Baqirdən (ə) nəql edir: “Mən evdə Qur’an olmasını xoşlayıram ki, Allah-təala onun vasitəsi ilə şeytanları kənarlaşdırsın.”[1]

---

[1] “Vəsailüş-şiə", c. 4, səh. 855

Digər bir rəvayətdə İmam Sadiq (ə) buyurur: " (İlahi mühakimədə üç şey insandan şikayət edər və bu üç şeydən biri Qur'andır)"... İstifadəsiz qalıb toz basmış və oxunulmayan Qur'an."[1]

## *QUR'AN OXUNMASININ MÜNASİB OLMADIĞI HALLAR*

Yeddi halda Qur'an tilavəti qadağan olunmuşdur. İmam Əli (ə) bir rəvayətdə buyurmuşdur: "Yeddi güruh Qur'an oxumamalıdır: rüku halında olanlar, səcdə halında olanlar, ayaq yolunda olanlar, hamamda olanlar, cənabət halında olanlar, nifas və heyz halında olan qadınlar."[2]

Əmirəl-mö'mininin (ə) bu kəlamından böyük şiə fəqihləri belə nəticə çıxarmışlar ki, qeyd olunmuş hallarda Qur'an oxumağın kərahəti var və fitva vermişlər ki, cünub, heyz və nifas halında, vacib səcdəsi olmayan surələrdən yeddi ayədən artıq oxumaq məkruhdur. Amma yeddidən az ayə oxumaq olar. Amma bu üç güruh (cünub, heyz, nifas) vacib səcdəsi olan surələri oxuya bilməzlər. Vacib səcdəsi olan dörd surədən bircə kəlmə oxumaq da haramdır.

Bu mövzuda daha geniş mə'lumat əldə etmək üçün təqlid mərcə'lərinin əməli risalələrinə müraciət edə bilərsiniz.

---

[1] "Üsule-kafi", c. 2, səh. 449
[2] "Vəsailüş-şiə", c. 4, səh. 885

## ÖZÜNÜ SINAMA

1. Mənzildə Qur'an saxlamaq üçün hansı nöqtələrə riayət olunmalıdır?
2. Feyz Kaşani Qur'an qiraəti zamanı oturuş şivəsi haqqında nə deyir?
3. Qur'an tilavəti zamanı nə üçün üzüqibləyə oturmaq daha yaxşıdır?
4. İlahi mühakimədə müsəlmandan şikayət edəcək şeylərdən biri nədir?
5. Hansı hallarda Qur'an tilavəti münasib deyil?

## ON SƏKKİZİNCİ QAYDA

### *TİLAVƏTİ TAMAMLAMA ŞİVƏSİ*

Qur'ani-kərim tilavətini tamamladıqda hansı cümlələr deyilməlidir? Bu barədə rəvayət və hədis nəql olunmuşdurmu?

Bə'zi Qur'an məclislərində belə suallar verilir. Başqa sözlə, bir qisim Qur'an araşdırıcıları və qariləri belə bir sual düşündürür. Adətən, sünnə əhli və onların qariləri öz qiraətlərini **"sədəqəllahul-əzim"** ifadəsi ilə bitirirlər. Amma şiələr və onların qariləri qiraəti başa çatdırdıqdan sonra **"sədəqəllahul-əliyyul-əzim"** deyirlər. Bəs bu ifadələrdən hansı daha düzgündür? Çox olsun ki, istər şiə, istər sünni müsəlmanlar arasında uyğun məsələyə münasibətdə həssaslıq mövcuddur.

Uyğun sualın cavabında deyə bilərik ki, Qur'an qiraətinin necə tamamlamaq haqqında rəvayətlər nəql olunmuşdur. Biz şiə hədis kitablarında nəql olunmuş iki rəvayəti qeyd etməklə kifayətlənirik.

### *BİRİNCİ RƏVAYƏT*

Əllamə Məclisi (r) "Biharül-ənvar" kitabında[1] bu barədə rəvayət nəql etmişdir ki, onun müqəddiməsi belədir:

İslam Peyğəmbəri (s) peyğəmbərliyə məb'us olduğu vaxt İmam Əliyə (ə) göstəriş verdi ki, bir namə ilə kafirləri, məsihiləri və yəhudiləri İslam dininə də'vət etsin. Zikr olunan namənin mətni Cəbrəil tərəfindən Peyğəmbərə (s) bildirilmişdi. Xeybər yəhudiləri naməni aldıqdan sonra onu öz alimləri və böyükləri İsmavilə (İbn Səlam) göstərdilər. O, naməni oxuduqdan sonra suallar topladı ki, Allah rəsulunun (s) xidmətinə göndərsin və dedi: "Əgər suallarıma düzgün cavab versə, yəhudi dinini tərk edib, onun dininə keçəcəyəm."

Yəhudi alim Əbdüllah ibn Səlamın girami Peyğəmbərdən (s) suallarından biri bu idi:

"(Ey Məhəmməd) Mənə xəbər ver! Qur'an nə ilə başlayıb, nə ilə tamamlanır?" Peyğəmbər (s) ona belə cavab verdi: **"Onun**

---

[1] c. 57, səh. 243.

**başlanğıcı “Bismillahir-rəhmanir-rəhim”, sonu “Sədəqəllahul-əliyyul-əzim” ilədir.”**

Əllamə Məclisi (r) bu rəvayəti bir neçə yerdə görmüşdür. Onlardan birində “sədəqəllahul-əliyyul-əzim” yerinə “sədəqəllahul-əzim” olmuşdur. Buna görə də tilavəti tamamladıqda hər iki ifadəni demək olar, amma birincini demək daha yaxşıdır. Çünki “sədəqəllahul-əzim” dedikdə Allahın sifətlərindən biri bəyan olunur və bu “əzim” sifətidir. Amma “sədəqəllahul-əliyyul-əzim” deməklə, Allah-təalanın sifətlərindən ikisini zikr edirik.

## *İKİNCİ RƏVAYƏT*

İkinci rəvayət “Ümmü-Davud” əməli ilə bağlıdır. İmam Sadiq (ə) bu ibadətlər məcmusunun rəcəbin 15-ci günü yerinə yetirilməsini tövsiyyə etmişdir. Bu ibadətin bir hissəsi Qur’anın müəyyən surələrini oxumaqdan ibarətdir.

İmam Sadiq (ə) Ümmü-Davuda buyurdu: “Surələri oxuduqdan sonra üzüqibləyə olduğun halda belə oxu: “Sədəqəllahul-əliyyul-əzim.”[1]

Bu rəvayəti böyük şiə alimi Kəf’əmi şərif “Misbah” kitabında qeyd etmişdir. Amma “sədəqəllahul-əliyyul-əzim” əvəzinə “sədəqəllahul-əzim” göstərilmişdir.

Əlbəttə, imamın (ə) buyurduğunun davamı vardır, amma biz deyilənlərlə kifayətlənirik.

Bu rəvayətdən də mə’lum olur ki, uyğun iki ifadədən hər birini demək yaxşıdır. Amma Qur’anı “sədəqəllahul-əliyyul-əzim”lə tamamlamaq daha yaxşıdır. Bunun dəlilini bir qədər əvvəl qeyd etdik.

---

[1] “Biharül-ənvar”, c. 95, səh. 400

## ÖZÜNÜ SINAMA

1. Sünnə əhli və şiələr Qur’an tilavətini tamamladıqda nə deyirlər?

2. İslam Peyğəmbəri (s) Qur’anın başlanma və xətm şivəsi haqqında Əbdüllah ibn Səlamın sualına necə cavab verdi?

3. “Ümmü-Davud” əməlində surələri oxuduqdan sonra nə demək lazımdır?

4. Nə üçün “sədəqəllahul-əliyyul-əzim” ifadəsini demək “sədəqəllahul-əzim” deməkdən daha yaxşıdır?

## ON DOQQUZUNCU QAYDA

### *QUR'AN TİLAVƏTİNDƏN SONRA DUA*

### *TİLAVƏTDƏN SONRA DUA ZƏRURƏTİ*

Üçüncü qaydada oxuyuruq ki, tilavətə başlamazdan qabaq dua Qur'an tilavətinin qaydalarından biridir. Duanın tə'sirli olduğu yerlərdən biri də Qur'anın qiraətindən sonradır. Bu vaxt dua qəbula yaxın olur. Qur'anı onun qaydalarına riayət edərək xəlvətdə oxuyan şəxs duanın qəbulu üçün şərait yarandığına ümid edə bilər. Çünki Qur'anın nuraniyyəti zaman və məkana da sirayət edir. Çox olsun ki, Qur'an qarisi Qur'anın nuraniyyəti sayəsində ruhi və mə'nəvi cəhətdən elə hala düşə ki, nəticədə dua və onun qəbulu üçün münasib fəza yarana.

Qur'an məclislərində iki dəlilə əsasən bu qaydaya riayət etmək yaxşıdır:

a) Bu sayaq məclislər, adətən, məscidlərdə və müqəddəs məkanlarda keçirilir. Bu isə məclislərin şərafətini ikiqat artırır. Duanın qəbulunda məkanın şərafəti mühüm rol oynayır.

b) Qur'an məclisləri saleh və imanlı insanların yığıncaq yeridir. Nöqsan və günaha daha az aludə olmuş yeniyetmə və gəncləri xüsusi qeyd etməliyik. Digər bir tərəfdən cəm halda olunan duanın qəbul imkanı daha çoxdur. Ona görə də, adətən, Qur'an məclisini başa vuran onun son duasıdır.

Dua istənilən dildə, istənilən tərzdə yaxşıdır. Amma tövsiyyə olunmuşdur ki, dua zamanı din başçılarının dualarından istifadə olunsun. Ona görə də əziz Qur'ansevərlərə tövsiyyəmiz budur ki, Qur'an məclislərinin sonunda din öncüllərinin dualarından istifadə etsinlər. Bu hissədə qiraətin sonuna, Qur'an tilavətinin başa çatmasına məxsus iki dua təqdim olunur.

## BİRİNCİ DUA

Hədis kitablarında nəql olunmuşdur ki, İmam Sadiq (ə) Qur’an tilavətini tamamladıqdan sonra bu duanı oxuyardı:

“Pərvərdigara! Həqiqətən, doğruçu peyğəmbərinə nazil etdiyin kitabını oxudum. Həmd və sitayiş Sənə məxsusdur, ya Rəbb.”

“Pərvərdigara! Məni Qur’anın halalını halal, haramını haram sayan, onun möhkəm və mütəşabeh ayələrinə iman gətirən kəslərdən qərar ver. Pərvərdigara, Qur’anı qəbirdə və qiyamət günü mənə munis və yoldaş et. Məni o kəslərdən qərar ver ki, oxuduqları hər ayəyə görə behiştdə bir dərəcə yüksəlirlər. Mənim duamı qəbul et, ey aləmlərin Rəbbi!”[1]

## *İKİNCİ DUA*

Allah rəsulunun (s) yaxınlarından biri Hüzeyfə deyir: İslam Peyğəmbəri (s) ilə namaz qılırdıq, “Bəqərə”surəsini başladı. Onun qiraətini bitirdiyi vaxt Qur’an xətmində oxuduğu duanı oxumağa başladı. Həmin duanın mətni belədir:

[1] “Biharül-ənvar”, c. 89, səh. 207

**“Pərvərdigara! Qur’anın bərəkətinə, məni bağışlayasan. Qur’anı mənə rəhbər, nur və hidayət, bağışlanma əsası qərar ver. Pərvərdigara, ondan unutduğumu yadıma sal, onda xəbərsiz olduğumu mənə öyrət, gecə saatlarında, günün əvvəli və axırında onun tilavətini mənə nəsib et. Ey aləmlərin Rəbbi, onu mənə dəlil və rəhbər qərar ver.”**[1]

[1] “Muhəccətul-bəyza”, c. 2, səh. 227

## ÖZÜNÜ SINAMA

1. Qur’an tilavətindən sonra dua etməyə nə lüzum var?
2. Nə üçün Qur’an məclislərində, tilavətdən sonrakı dua daha layiqlidir?
3. Qur’an məclislərinin sonunda hansı dualardan istifadə etsək, yaxşı olar?

## İYİRMİNCİ DƏRS

### *QUR'AN XƏTMİ ZAMANI DUA*

Qur'an xətmi müsəlmanlar arasında mövcud sünnələrdən biridir və din başçılarının bu barədə çoxlu tövsiyyələri vardır. On beşinci qaydada bu mövzuda danışıldı.

Qur'an xətmi Qur'anla daha artıq ünsiyyətdə olan insanlara nəsib olmuş ilahi tövfiqdir. Ona görə də Qur'anı xətm edən şəxs bu böyük ne'mətin qədrini bilməlidir. Qur'anı xətm etməklə insanın üzünə ilahi tövfiq qapısı açılır. Bu imkandan istifadə etmək, Allah dərgahına dua etməklə bu tövfiqin davamını diləmək lazımdır. Həqiqətdə dua ilə Qur'an maarifi gülzarından çələng hörmək və Qur'an maarifinin kəsbində daha artıq müvəffəqiyyət diləmək gərəkdir.

*Hafiz gecələrin xəlvət çağında*
*Qəm nə? − Qur'an, dua var dodağında.*

### *QUR'AN XƏTMİ ZAMANI DUA SÜNNƏDİR*

Qur'an xətminə müvəffəq olanlar bilsinlər ki, Qur'an xətmi zamanı dua sünnədir − nəbəvi və ələvi bir sünnə. Bir sözlə, xətm zamanı dua bizim dini rəhbərlərimizin yoludur.

Qur'an xətmi zamanı hər bir duanı oxumaq olar. Amma yaxşı olar ki, necə dua etməyi və Allahdan istəməyi də dini rəhbərlərimizdən öyrənək. Qur'an xətmi dualarından üçü Qur'ansevərlərin faydalanması üçün təqdim olunur.

### *BİRİNCİ DUA*

Asim yeddi qaridən biri olan Zərr ibn Hubəyşdən nəql edir ki, Qur'ani-kərimi Kufə məscidində əvvəldən axıradək Əmirəl-mö'minin Əli (ə) ibn Əbi-Talib üçün qiraət etdim. Həzrət (ə) qiraət başa çatdıqdan sonra mənə buyurdu: Ey Zərr! Qur'anı xətm edəndə bu duanı oxu. Çünki həbibin Rəsulullah (s) göstəriş verdi ki, Qur'an xətmində Allahı belə çağırım:

**“Pərvərdigara! Səndən “xaşe”lərin təvazösünü və yəqin əhlinin ixlasını istəyirəm. Yaxşılarla dostluğu və iman həqiqətlərinə çatmağı diləyirəm. Səndən bütün yaxşı işlərdən qənimət almaq, hər günahdan uzaqlıq, rəhmətinin nazil olmasını, günahların bağışlanmasını, behiştə qovuşmaq, cəhənnəm odundan qurtuluş istəyirəm.”[1]**

## *İKİNCİ DUA*

Mərhum Əllamə Məclisi “Biharül-ənvar” kitabında nəql edir ki, İmam Əli (ə) Qur’an xətmi zamanı bu duanı da oxuyardı:

**“Pərvərdigara! Sinəmi Qur’anla genişləndir, cismimi Qur’anla xidmətə götür, gözümü Qur’anla işıqlandır, dilimi Qur’anla danışdır və nə qədər ki, diriyəm, mənə Qur’an yolunda yardım et, Səndən başqa heç bir güc və qüdrət yoxdur.”[2]**

---

[1] “Biharül-ənvar”, c. 89, səh. 206, 207

[2] Həmin mənbə, səh. 209

## *ÜÇÜNCÜ DUA*

Yığcam və kamil Qur’an xətmi dualarından biri həzrət Seyyidüssacidin imam Zeynəl-abidindən nəql olunmuş duadır. Həmin dua geniş olduğundan onu təqdim etmirik. Maraqlananlar “Səhifeye-Səccadiyyə” kitabındakı 42-ci duaya müraciət edə bilərlər.

## ÖZÜNÜ SINAMA

1. Nə üçün Qur’an xətmindən sonra dua etmək tövsiyyə olunur?
2. “Əllahummə, inni əs’əlukə ixbatəl-muxbitin”... duası kimdəndir və nə zaman oxunmalıdır?
3. Qur’an xətmi üçün İmam Zeynəl-abidindən (ə) dua nəql olunmuşdurmu? Həmin duanın ünvanını yazın.

Mündəricat


ALLAHIN ADI İLƏ....3
ÖN SÖZ....3
YENİ TƏRTİBİN SƏBƏBİ....3
MÜQƏDDİMƏ....5
QUR'AN TİLAVƏTİNİN FƏZİLƏTİ....5
QUR'ANIN FƏZİLƏT VƏ ÜSTÜNLÜYÜ....5
QUR'ANDA ALLAHIN TƏCƏLLASI....5
QUR'AN BÜTÜN ƏSRLƏR ÜÇÜN....5
QUR'AN TƏ'LİMİNİN ƏHƏMİYYƏTİ....6
BACARDIĞIN QƏDƏR QUR'AN OXU....6
QUR'AN QARİSİNİN MÜKAFATI....7
QUR'AN QARİSİNİN MƏQAMI....7
BİRİNCİ QAYDA....9
TƏHARƏT VƏ PAKİZƏLİK....9
QUR'ANA MƏSSİN (BƏDƏNİ TOXUNDURMAĞIN)....9
HÖKMLƏRİ....9
DƏSTƏMAZIN FƏLSƏFƏSİ....10
AĞIZIN PAKLIĞI....10
ZAHİRİN PAKLIĞI VƏ BƏZƏYİ....11
MÜHÜM YADDAŞ....12
ÖZÜNÜSINAMA....13
İKİNCİ QAYDA....14
QUR'AN TİLAVƏTİNDƏ İXLAS....14
İXLASIN İSRARI....15
TİLAVƏTDƏ İXLASIN MÜKAFATI....15
ÖZÜNÜSINAMA....17
ÜÇÜNCÜ QAYDA....18
TİLAVƏTDƏN QABAQ DUA....18
DUA YERLƏRİNDƏN BİRİ....18
ÖZÜNÜSINAMA....22
DÖRDÜNCÜ QAYDA....23
İSTİAZƏ (ŞEYTANDAN ALLAHA SIĞINMA)....23
"İSTİAZƏ" KƏLMƏLƏRİ....23
HƏQİQİ İSTİAZƏ....24
İMAM RAHİLİN (R) BUYURUĞU....24
HƏQİQİ İSTİAZƏNİN YOLU....25
ÖZÜNÜSINAMA....26
BEŞİNCİ QAYDA....27
"BƏSMƏLƏ"....27
"BİSMİLLAH" PEYĞƏMBƏR VƏ MÜVƏHHİDLƏRİN ŞÜARIDIR....27
İMAM RAHİLDƏN (R) BİR XATİRƏ....27
"BİSMİLLAH" DEMƏK NƏ NİŞANƏSİDİR?....28
QİRAƏTƏ BAŞLARKƏN "BƏSMƏLƏ"....28
TİLAVƏT ZAMANI "BƏSMƏLƏ"NİN HÖKMÜ....28
ÖZÜNÜSINAMA....30
ALTINCI QAYDA....31
EVDƏ VƏ MƏSCİDDƏ QUR'AN TİLAVƏTİ....31
BÜTÜN HALLARDA ALLAHIN ZİKRİ....31

EVLƏRDƏ TİLAVƏTİN FƏZİLƏTİ ....................................................................31
FƏZİLƏT DƏLİLLƏRİ ......................................................................................32
MƏSCİDDƏ TİLAVƏTİN FƏZİLƏTİ..............................................................33
QUR’ANI SEVƏN MƏSCİDİ SEVİR ...............................................................35
ÖZÜNÜSINAMA ...............................................................................................36
YEDDİNCİ QAYDA ...........................................................................................37
MÜSHƏF ÜZÜNDƏN TİLAVƏT .....................................................................37
QUR’AN “NUR” KİTABIDIR...........................................................................37
MÜSHƏFƏ BAXMAQ İBADƏTDİR ...............................................................39
MÜSHƏF ÜZÜNDƏN TİLAVƏTİN TƏ’SİRİ ..................................................40
ÖZÜNÜSINAMA ...............................................................................................42
SƏKKİZİNCİ QAYDA.......................................................................................43
QUR’ANIN UCADAN VƏ ASTADAN OXUNMASI ......................................43
QUR’ANI UCADAN OXUMAQ.......................................................................43
UCADAN OXUMAĞIN FAYDALARI .............................................................43
FÜZEYLİN HEKAYƏTİ....................................................................................44
QUR’ANI AHƏSTƏ OXUMAQ........................................................................45
ÖZÜNÜSINAMA ...............................................................................................46
DOQQUZUNCU QAYDA .................................................................................47
GÖZƏL SƏSLƏ TİLAVƏT ..............................................................................47
XOŞAVAZLILARIN VƏZİFƏSİ VƏ QUR’AN................................................47
GÖZƏL SƏS QUR’ANIN ZİNƏTİDİR.............................................................47
QUR’ANI GÖZƏL OXUMAĞIN TƏ’SİRİ ......................................................48
ƏN GÖZƏL SƏSLİ QARİ.................................................................................49
ÖZÜNÜSINAMA ...............................................................................................51
ONUNCU QAYDA ............................................................................................52
ƏRƏB DİLİNDƏ TİLAVƏT..............................................................................52
QUR’ANI ƏRƏBCƏ OXUMAQ ZƏRURƏTİ ..................................................52
QUR’ANI ƏRƏBCƏ OXUMAQ MƏRHƏLƏLƏRİ ........................................54
ÖZÜNÜSINAMA ...............................................................................................57
ON BİRİNCİ DƏRS............................................................................................58
QUR’ANIN GÜNDƏLİK OXUNMASI .............................................................58
BÜTÜN HALLARDA QUR’AN QİRAƏTİ.......................................................58
QUR’AN TİLAVƏTİ VƏ HİKMƏT ƏHLİ.........................................................59
GÜNDƏLİK QİRAƏTİN MİQDARI..................................................................60
QƏFLƏT BU GÜNKÜ İNSANIN XƏSTƏLİYİDİR ..........................................60
SÖVDƏGƏR VƏ TACİRLƏR ÜÇÜN QİRAƏT HƏDDİ ..................................61
ALİM QARİNİN QİRAƏTİ ...............................................................................62
QUR’ANIN TİLAVƏT VAXTLARI ...................................................................63
ÖZÜNÜSINAMA ...............................................................................................65
ON İKİNCİ QAYDA ...........................................................................................66
QUR’ANDA “TƏDƏBBÜR”...............................................................................66
QUR’ANDA TƏDƏBBÜRÜN ƏHƏMİYYƏTİ ................................................66
İMAM ƏLİ (Ə) VƏ QUR’ANDA TƏDƏBBÜR ................................................67
QUR’ANDA TƏDƏBBÜRÜN AÇARLARI.......................................................68
ÖZÜNÜSINAMA ...............................................................................................70
ON ÜÇÜNCÜ QAYDA.......................................................................................71
TİLAVƏT ZAMANI DİNLƏMƏ VƏ SÜKUT ..................................................71
“İSTİMA” (“DİNLƏMƏ”) VƏ “İNSAT”IN (“SÜKUT”) MƏ’NASI .......................71
QUR’AN DİNLƏMƏYİN FƏZİLƏTİ................................................................72
QİRAƏT ZAMANI ZİKR DEMƏK VƏ TƏŞVİQ ETMƏK ..............................73



ZİKR DEMƏK VƏ DİNLƏMƏ ƏDƏBİ ............................................................ 73

ÖZÜNÜSINAMA ... 74
ON DÖRDÜNCÜ QAYDA ... 75
SƏCDƏ AYƏLƏRİNDƏ SƏCDƏ EDİLMƏSİ ... 75
SƏCDƏ AYƏLƏRİNİN HÖKMLƏRİ ... 76
SƏCDƏ AYƏLƏRİNİN OXUNMAMASININ MƏZƏMMƏTİ ... 77
BƏNDƏNİN ALLAHA ƏN YAXIN HALI ... 77
ÖZÜNÜSINAMA ... 78
ON BEŞİNCİ QAYDA ... 79
QUR’AN XƏTMİ ... 79
QUR’AN XƏTMİ ƏN ÜSTÜN ƏMƏLLƏRDƏNDİR ... 79
QUR’AN XƏTM EDƏNİN QƏBUL OLMUŞ DUASI ... 79
MƏKKƏDƏ QUR’AN XƏTMİNİN FƏZİLƏTİ ... 79
QUR’AN XƏTMİNİN SAVABININ HƏDİYYƏ OLUNMASI ... 80
QUR’AN XƏTMİNİN ŞİVƏSİ HAQQINDA ... 81
ÖZÜNÜSINAMA ... 82
ON ALTINCI QAYDA ... 83
QUR’ANIN HİFZİ (ƏZBƏRLƏNMƏSİ) ... 83
HİFZİN GENİŞLƏNMƏSİ ... 83
QUR’AN HİFZİNİN ZƏRURİLİYİ ... 84
MƏDƏNİYYƏT MƏS’ULLARININ VƏZİFƏSİ ... 84
DİN RƏHBƏRLƏRİ VƏ QUR’ANIN HİFZİ ... 84
MÜDRİK ALİMLƏR VƏ QUR’AN HİFZİ ... 86
MƏŞHUR HAFİZLƏRİN VƏZİFƏLƏRİ ... 88
QUR’AN HİFZİ MÜMKÜN DEYİL ... 88
ÖZÜNÜSINAMA ... 89
ON YEDDİNCİ QAYDA ... 90
QUR’ANIN UCA TUTULMASI VƏ ONA EHTİRAM ... 90
QUR’ANIN MÜNASİB YERLƏRDƏ SAXLANILMASI ... 90
QUR’ANŞÜNAS ALİMLƏRİN XÜSUSİYYƏTİ ... 91
QUR’AN QİRAƏTİNİN TƏRK OLUNMAMASI ... 92
QUR’AN OXUNMASININ MÜNASİB OLMADIĞI HALLAR ... 93
ÖZÜNÜSINAMA ... 94
ON SƏKKİZİNCİ QAYDA ... 95
TİLAVƏTİ TAMAMLAMA ŞİVƏSİ ... 95
BİRİNCİ RƏVAYƏT ... 95
İKİNCİ RƏVAYƏT ... 96
ÖZÜNÜSINAMA ... 97
ON DOQQUZUNCU QAYDA ... 98
QUR’AN TİLAVƏTİNDƏN SONRA DUA ... 98
TİLAVƏTDƏN SONRA DUA ZƏRURƏTİ ... 98
BİRİNCİ DUA ... 99
İKİNCİ DUA ... 99
ÖZÜNÜSINAMA ... 101
İYİRMİNCİ DƏRS ... 102
QUR’AN XƏTMİ ZAMANI DUA ... 102
QUR’AN XƏTMİ ZAMANI DUA SÜNNƏDİR ... 102
BİRİNCİ DUA ... 102
İKİNCİ DUA ... 103
ÜÇÜNCÜ DUA ... 104
ÖZÜNÜSINAMA ... 105